

# BƏXTİYAR VAHABZADƏ

## ƏSƏRLƏRİ

**(2000-2004)**

**VII cild**

**On iki cilddə**



**Bakı - 2008**

**“ELM” nəşriyyatı**

*Tərtibçi, ön söz müəllifi və redaktoru*
**Ramazan Qafarlı**

**Bəxtiyar Vahabzadə. Əsərləri.** On iki cilddə. VII cild (2000-2004). - Bakı, "Elm" nəşriyyatı, 2008. - 463 s.

İSBN 5-86874-037-8

V $\frac{4702060000}{055\ (07)\ -\ 2008}$ Qrifli nəşr

© B.Vahabzadə - 2008

## YENİ ERANIN İLK ÇAĞIRIŞLARI

Bəxtiyar Vahabzadə poeziyası XX yüzilliyin II yarısında, totalitar sosialist rejiminin Böyük Vətən müharibəsindən sonra ikinci nəfəslə dirçəlib gücləndiyi, ac pələngə döndüyü, azadlıq, müstəqillik ideyasına düşmən kəsildiyi çağlarda həyəcan təbili kimi meydana atılıb ötən minillikdə türk dünyasının son ən kəsərli bədii fikirlərinin daşıyıcısına çevrildi. Bu odlu-alovlu poetik söz və düşüncə yaranışları yarım əsrlik dövrün hadisələrinə güzgü tutmaqla yanaşı insanlığın narahatlığına səbəb olan bütün ağrılı, acılı məsələləri də içərisinə aldı. Şair daim rus-sovet imperiyasının buxovlarını boynunda, yumruqlarını başının üstündə hiss etsə də, ölümcül zərbələrə məruz qalsa da, məngənəyə salınıb sıxılsa da, susmağı köləliyin əsas əlaməti bilib qələminin mürəkkəbini qurumağa qoymadı. O, tərəddüdsüz anlayırdı ki, dünyanı öz nəzarətinə götürməyə can atan mühüm qüvvələrdən birinin – SSRİ-nin dövlət siyasətinin əsasında müxtəlif xalqları ruslaşdırmaq xətti durur. Bayağı qardaşlıq, dostluq, bərabərlik şüarlarının irəli sürülməsi əslində məkrli məqsədlərin həyata keçirilməsinə geniş imkanlar açırdı. Ümumi yad dillə birlikdə elin mentalitetinə zidd adət-ənənələr də insanlara Mərkəzdən sırıdılırdı. Qafqaz, Sibir, Volqaboyu, Orta Asiya, Krım, Pribaltika xalqlarının əski mədəniyyətlərinin üstünə kölgə salınır, millətçilik damğası basılıb yandırılır, ya da arxivlərə atılırdı. Bu mənada B.Vahabzadənin külliyatının ilk 6 cildində toplanmış əsərlərinin xronologiyasına nəzər salsaq, ötən əsrin ikin-ci yarısının gercəkliklərinin, təlatümlərinin, uğurlarının və uğursuzluqlarının poetik dillə əksini görərik. Belə ki, sairin yaradıcılığının ilk mərhələsi 1949-1959-cu illəri əhatə edir, görüb-götürdükləri məktəblə və gənclik illərində rastlaşdığı müharibə ilə bağlıdır. “Mənim dostlarım” (1949) adlanan birinci kitabında ilk qələm təcrübələrinin əsas qəhrəmanları və mövzusu da məhz məktəb, müəllim və müharibədir. Əslində təhsil, bilik əldə edilən ocaqla qanlı döyüş meydanları, cəbhə bir-birinə ziddiyyət təşkil edir. Lakin davanın, savaşın, nahaq qan tökmənin mayasında insanların nadanlığı, dünyagörüşünün məhdudluğu, kəmsavadlığı durur. Dünya həmişə müdriklərin, bilicilərin əlində olsa, qarşıdurma yaranmaz, silah əvəzinə ağıl, kamal iş görər.

“Yaşıl çəmən, ağac altı, bir də ki, tünd çay…” Şairin işıq üzü görən ilk şeirinin adı qəribədir. Səməb Vurğunun bəyənib o zaman gənc şair və yazıçılar üçün hazırlanan topluya təqdim etdiyi bu əsərdən iddialı qələm sahibinin meydana atıldığı duyulurdu. Dövr üçün o qədər də xarakterik olmayan süjetli şeir formasında yazılmış əsərin adında zaman və insan bağlılığının ziddiyyəti, daha

doğrusu, qoca zamanın insanlığa qarşı böyük haqsızlığı özünə yer alırdı. Əsgər öz qardaşı ilə yaşıl çəməndə, ağac altında əyləşib tünd çay içərkən müharibədə keçirdiyi bir günü xatırlamaya bilmir. Ona görə ki:

*Arxadakı əlli illik dostluqdansa bil,*
*Cəbhədəki bircə günlük möhkəmdir daha.*
*Çünki orda gün, ay vardır, yoxdur uzun il.*
*Bu sabahdan ümid olmur gələn sabaha...*

Döyüşdən qabaq əsgərin dostu ən böyük arzusunu bildirir: çiçəkli bağçalarından bir də keçmək, çəmənlikdə, otlar üstə oturub vətəninin tünd çayını içmək… Topların gurultusu bir-birinə qarışır. Zaman böyük haqsızlıq edir. Axı, bu gəncin istəyində fövqəladə bir şey yox idi?.. O günkü savaşdan sağ çıxmaması dostunu ona görə yandırır ki, minlərlə kama çatmamış insanlar müharibədə torpağa qarışmışdılar. Əslində zamanı çıxılmaz vəziyyətə salan elə bəşər oğlunun özü idi.

“Xatirələr” şeirində də müharibənin ağrılarının sızıltısına yer verilir:

*Ömrün tacı gəncliyimi cəbhələrdə mən qoymuşam,*
*İndi isə o günlərə qanad açan quşam, quşam.*

Şair dünyanın gələcəyini bilikdə, zəkada, aqillikdə görür və bildirir ki, bütün yeniyetmələr o yoldan uğurla keçsələr, dava-qalaşa ehtiyac qalmaz.

*A məktəb yolları, sizsiniz yalnız*
*Yaradan işıqla istiqbalları.*
*Məni xoşbəxtliyə siz apardınız,*
*A məktəb yolları, məktəb yolları.*

“Bahar” (1950) kitabında da B.Vahabzadə hələ axtarışdadır. Doğrudur, o, burada zaman və insan əlaqəsinin bir bağlılığının da təbiət olduğunu anlayır. Sənət dühalarına – A.S.Puşkinə, Ü.Hacıbəyova, Azərbaycan Dövlət Dram teatrının yaradıcı heyətinə, sənət məktəbindən istehsalata gedən gənclərə həsr etdiyi şeirlərdən hiss olunur ki, Bəxtiyar Vahabzadə özü də həmin çağlarda öyrənir, mütaliə edir, Azərbaycan və dünya mədəniyyətinin inkişafında öz yerini, dəst-xəttini tapmağa çalışır.

Şairin daxili narahatlığı ilk qələm təzrübələrində də nəzərə çarpır. Xalqı daşlı-kəsəkli cığırlarla addımladığı halda yolların hamarlığının gözə soxulduğu ilə barışmır. Təkcə yurdunun füsunkar təbiəti qarşısında olayları unudub əlinə rəssam fırçası alır və tablolar yaratmaq istəyir:

*Çay daşları yenə xal-xal,*
*Gözəl olur çöldə bu hal.*
*Ətirlənir çəmən, çayır,*
*Göy üzünü qucaqlayır*
*Kəmər kimi qövsi-qüzeh.*

*Yavaş-yavaş əsdikcə meh,*
*Yayılır xoş torpaq iyi.*
*Bu mənalı gözəlliyi*
*Biz sevirik əzəl gündən,*
*Gözəl vətən, gözəl vətən!*

Ümumilikdə, şairin onilliyin sonunadək ("Gülüstan" poemasını qələmə alanadək) bir-birinin ardınca 7 kitabı çap olunub: "Mənim dostlarım" (1949), "Bahar" (1950), "Dostluq nəğməsi" (1953), "Əbədi heykəl" (1954), "Ceyran" (1957), "Aylı gecələr" (1958) və "Seçilmiş əsərləri" (Şairin kitabxanası" seriyasından, 1959). Bu, sovet dövründə böyük uğur və qələm sahibinə göstərilən sonsuz etimad idi. "Bəxtiyar Vahabzadə" imzası artıq Azərbaycan ictimaiyyətinə yaxşı tanış idi. Bu imzanın yaratdıqları əvvəlki onilliklərin sablon mövzularından, pafoslu, ritorik, hay-küylü, şüarabənzər fikirlərindən uzaq idi. İnsanı düşündürən ən səmimi duyğularla, gənclik etirasından doğan qətiyyətli misralarla zəngin idi. Bəxtiyar Vahabzadə "Anni Dobi" (1951) seiri ilə ilk dəfə öz vətəninə aid qarşısıalınmaz gizli problemləri başqa ölkəyə şamil edib sətiraltı mənalarda düşüncələrini oxucularına çatdırmağın mümkünlüyünü anladı. Bu günün prizmasından yanaşanda az yaşlı uşağın pul əldə etmək üçün işləməsində faciəvi heç nə yoxdur. Balaca oğlanların əlinə əski parçası alıb yoldan ötən maşınların şüşələrini silməklə sürücülərdən qəpik-quruş alması ilə hər gün rastlaşırıq və adi hal kimi qarşılayırıq. Bəs uzaq Hindistanda Deh-li tütün fabrikinin fəhlələrinin uşaqlardan ibarət olmasına şairin sarsılmasının səbəbi nə idi?

*Onun vur-tut on yaşı var,*
*Tütün eşir... ömrü boyu,*
*Yanağında göz yaşı var.*
*Yazıq bala, körpə quzu,*
*Oynamalı bu çağında*
*Yadlar sənin gülüşünü*
*Qurutdular dodağında.*
*Dağlar dələn bir ah qopdu*

*Mənim dərdsiz ürəyimdən...*

Bu, "dərdsiz şair ürəyi"nin yadlara ilk etirazı idi. Diqqət yetirin, əslində dərdsiz ürəkdən daşlar dələn ah qopa bilməz. Bir neçə il sonra görəcəyik ki, Bəxtiyar Vahabzadə və soydaşları dünyanın ən dərdli və məzlum insanlarıdırlar, yadlar tərəfindən vətənlərinin parça-parça edilməsini şərəf işi sayaraq bayram edirlər, övladlarının ana dilini yadırğamaları üçün dəridən-qabıqdan çıxırlar. O, millətinin qəsdən tənbəlliyə alışdırıldığını da dərk edirdi. İnsanlar təpə aşağı sürüşüb ləzət almaq üçün xizəyi yuxarı qaldırmalıdırlar. Bəziləri istəyir ki, hansı qüvvəsə bu işin yerinə yetirilməsində onlara yardımçı olsun:

*Meyvəni yemək üçün*
*Ağac əkəsən gərək,*
*Ləzzət çəkmək istəsən,*
*Zəhmət çəkəsən gərək.*
***("Xizək" seiri, 1951)***

Bəli, köləlikdən yaxa qurtarmaqdan ötrü mübarizə aparmaq, vuruşmaq lazım gəlirdi.

Şairin Cənub mövzusuna üz tutmasında da xeyli keyfiyyət dəyişikliyi hiss olunurdu. Müharibədən sonrakı illərdə Süleyman Rüstəm İran Azərbaycanına,Təbrizə silsilə əsərlər həsr etmişdi. Bu seirlərdə yanğıdan çox təntənə, pafos, quzeyin füsunkar təbiətinə heyranlıq vardı. Bəxtiyar Vahabzadənin 1951-ci ildə qələmə aldığı "Cənublu bacıma" şeirini isə bu günün özündə də həyəcansız oxumaq mümkün deyil.

*İçir suyunu da göz yaşlarından*
*Toxuduğun güllər hey narın-narın.*
*Neçin göz yaşların dönüb tikana*
*Dəlmir ayağını müftəxorların?!*

*Həyat sənin üçün nə çətin oldu?*
*Qələmin yumaqdır, dəftərin xana.*
*Nəmli zirzəmilər məktəbin oldu,*
*Ömrünün sonuna çıxdı karxana!*

Bu misralar 20 yanvar faciəsindən sonra şairin yazdığı üsyankar əsərlər qədər təsirli deyilmi? Təbriz gözəlinin toxuduğu xalçaları göz yaşları ilə islatmağının səbəbi nədir? Axı, ata-babasının yadigarı olan sənət incisi gəlinlik cehizi olmaq əvəzinə yadların ayaqlarının tapdağına çevriləcəkdi.

*Ay kamı qəlbində qıvrılan bacım,*
*Dərdli nəğmələrin tanışdır mənə.*
*Dumanlı Təbrizin dumanlarından*
*Şehmi çilənmişdir kirpiklərinə?*

Xarakterindəki hədsiz çılğınlıq püxtələşdikcə sairin şeirlərinin ruhuna qarışırdı. O, ana dilinin və Vətən torpaqlarının qorunmasını müstəqilliyə bərabər tuturdu. Məqsəd və amalı uğrunda yorulmadan daim çarpışmağa hazır idi. Təbiətində daxildən püskürən üsyankarlıq da vardı, heç nəyi vətənlə bölüşməzdi. Bəzən daxili ehtirasları zahiri hərəkətləri ilə üzə çıxırdı. Hələ 1956-cı ildə yazdığı "Ürək" adlı şeirində vətən sevgisindən doğan etiraslarını cilovlaya bilməməsini poetik dillə belə bəyan edirdi:

*Mənə deyirlər ki, danışan zaman*
*Yaman qışqırırsan, əl-qol atırsan.*
*Asta danışsana, asta dinsənə,*
*Ucadan danışmaq zərərdir sənə.*

Hələ onda çəkinmədən hay salırdı ki, sonsuz nifrətim də, məhəbbətim də dərindir. Maraqlıdır, represiya dalğası hələ keçməmişdi, həbsxanalarda, sürgünlərdə günahsız çürüyənlərin psixasında köləlik bitirilmişdi. Stalinin ölümündən sonra 1953-cü ildə türmələrin qapısının açılıb məhbəslərin kütləvi şəkildə azadlığa buraxılması ölkədə xaos yaratmışdı. Bu, heç də nahaq tutulanların üsyan qaldırması deyildi. Əksinə, bir çox qatı cinayətkar ünsürlərin də şərə düşmüşlərlə birgə sərbəstliyə çıxarılmasının nəticəsi idi. Hələ haqqı nahaqdan ayırmağın vaxtı çatmamışdı və hamı ancaq partiyaya böyük rəğbətindən danışırdı. B.Vahabzadənin seirlərindən açıq-aydın duyulurdu ki, ana dilinə, Vətəninə, xalqına bitib-tükənməyən məhəbbəti onu sel kimi daşdırır. Elə isə dərindən dərin olan nifrətinin obyekti nə idi? Hansı səbəb onun qəzəbini də coşdurur, ürəyini tir-tir titrədirdi? Bu sualların cavabını "Gülüstan" poemasında və "Latın dili" şeirində verəcəkdi. Hələlik təbiətinin dəyişməzliyini etirafla kifayətlənirdi:

*Mən bunu bilirəm, ancaq neyləyim,*
*Ayrıla bilmirəm təbiətimdən.*
*Əsir nifrətimdən tir-tir ürəyim,*
*Daşıram sel kimi məhəbbətimdən.*

*Deşər ürəyimi gizli sirr mənim,*

*Ürəyim səslənər hər söhbətimdə.*
*Orta yolum yoxdur, dərindir mənim*
*Sonsuz nifrətim də, məhəbbətim də.*

Beləliklə, B.Vahabzadənin yaradıcılığının ilk mərhələsini yetkinləşmə çağı adlandırmaq olar. Bir-iki kövrək addımdan sonra mətinləşən şair onu söz sənətkarı kimi təsdiqlədən, ölkəyə və dünyaya (xüsusilə İrana və Türkiyəyə) tanıdan "İztirabın sonu" (1956) "Şəbi-hicran" (1958), "Gülüstan" (1959) kimi dahi əsərlər meydana gətirmiş və ədəbi-ictimai aləmdə fırtına, tufan qoparmışdı.

Və şair zamanın qorxu xofuna qalib gəlmişdi. DTK-ya çağırılıb dindirilmiş, ölümlə hədələnmiş, universitetdən qovulmuş, evdən kənara çıxmasına qadağa qoyulmuşdu. Susdurulması, "başına ağıl qoyulması" üçün cəmiyyətdən kənarlaşdırılmışdı. Ancaq xoş bir təsadüf – o zaman dövlət təhlükəsizlik orqanında işləyən Heydər Əliyevlə görüşü taleyini imperiyanın məngənəsindən qurtarmışdı.

Nuh peyğənbər tufandan çıxan kimi dünyanın xilası yollarını düşünüb. Bəxtiyar Vahabzadə isə fırtına ötüşər-ötüşməz zamanla haqq-hesab çəkməyə başladı. Aldığı zərbələrdən daha da mətinləşmiş, məqsəd və məramını dəqiq müəyyənləşdirib bişmiş qələmi, iti zəkası və sevgi dolu qəlbi ilə yaradıcılığının ən məhsuldar çağına qədəm qoymuşdu. Onun poetik irsinin ikinci mərhələsi 1960-cı ildən başlayaraq 1989-cu ilədək davam edir. Bu 30 illik böyük mərhələdə yazdığı əsərlər forma və məzmunca rəngarəgdir. Külliyatının II, III (1960-1969), IV (1970-1979) və V (1980-1989) cidlərini əhatə edir.

Həyatı həyat kimi yaşamaq və çıxmağa təpə yox, uca dağ istəyən şair 1960-cı ildə qələmə aldığı "Dağda şəlalə kimi" şeirində özünün və soydaşlarının həyat kredosunu irəli sürürdü.

*Həyat – bir cıdır düzü, bir döyüş meydanıdır.*
*Hər kəsi öz cürəti, öz qüdrəti tanıdır.*
*...İstəyirəm döyüşəm qayaların başında*
*düşmənlə qartal kimi.*
*Bağçadakı arx kimi ötüb həzin nəğmələr,*
*axmağı istəmirəm.*
*Səyyah olub həyata seyirçi bir nəzərlə*
*baxmağı istəmirəm.*
*Çağlamaq istəyirəm dağda şəlalə kimi,*
*Səpilmək istəyirəm çöllərə lalə kimi.*
*Dərya olub, nəhr olub, çalxanmaq istəyirəm,*

*Göylərdə ulduz kimi mən yanmaq istəyirəm.*
*Şığımaq istəyirəm başsız küləklər kimi,*
*Bəslənmək istəyirəm bütün ürəklərdə mən*
*arzu, diləklər kimi.*

Bəli, sair bu illərdə zirvələrə qalxıb divlərlə kəllələşdi. Amma görəsən 1960-cı ildə niyə ondan soruşmayıblar: axı, sənin düşmənin kimdir? Kimləri qartal kimi döyüşmək üçün qaya başına çağırırsan? Sosializmin iri addımlarla irəliləməyə başladığı vaxt dərya kimi çalxalanmaq çağırışının sətiraltı mənası nədir? Bu suallara onda cavab tapılmamışdı. Yalnız 1990-cı ilin qanlı yanvarından sonra II minilliyin son 10 ilində yazdığı üsyankar əsərlərində açıq-aşkar bilindi ki, şair hansı səbəbdən soydaşlarını onda mübarizəyə hazır olmağa səsləyirmiş.

B.Vahabzadə yaradıcılığının XX yüzillikdə son mərhələsi 1990-1999-cu illəri əhatə edir və bu çağda yazdığı əsərlər külliyatının irihəcmli VI cildində toplanmışdır. Onları poeziyanın üsyanı kimi ümumiləşdirmişik.

Göründüyü kimi, XX əsrin tən yarısını gərgin yaradıcılıq axtarışlarında keçirib böyük sənət əsərləri yaradan B.Vahabzadəni həmin dövrün ən nəhəng şairi kimi xarakterizə etməyə tam əsas var. Lakin onun ömrü XXI yüzilə də adladı.

Azərbaycan zamanın bir çox çətin sınağından çıxdı, qardaş qırğınının qarşısı alınsa da, torpaqlar əsir düşdü və III minilliyin ilk ən çılğın carçısı da məhz Bəxtiyar Vahabzadə oldu. Onun 2000-2004-cü illərdə yaratdığı poetik əsərlər külliyatının VII cildini meydana gətirdi. Şeirlərini özünəməxsus bölmələrlə təqdim edən şair xalqın ümdə problemlərinə, insani hiss və duyğulara həsr etdiyi əsərlərini "Əlvan çiçək"lər başlığı altında topladı. Artıq ağır qurbanlar bahasına da olsa, müstəqilliyə çatmışıq. Bu, hamının ən böyük idealı, arzusu idi. Gerçəkləşməsi nə qədər uzaq görünsə də, Vətənin dünya xəritəsində məxsusi yeri vardı. Lakin o günün problemləri də bitib-tükənmirdi. Şair:

*Bu dünya öldürüb-dirildir məni,*
*Dayaq olmayanda özgələrinə. – deyir.*
***("Qəribəliklər" seiri, noyabr 2000)***

Çünki göz görə-görə sapı özümüsdən olan baltalar, özümüzü kəsən qılınclar millətin ağrısının çoxalmasına şərait yaradırdılar. Yenə də əskiklər önündə susmaqla alçalır və başlarına gələnləri qəzadan bilirdilər:

Onu bu quyuya salanı görmür,
*Quyunun dibini günahkar sayır.*

*Yalanı eşitmir, yalanı görmür,*
*Zavallı, özünü kor və kar sayır.*
***("Ağrı çoxaldıqca" seiri, iyul 2000)***

"Tarix qarşısında utanmamaq üçün nə etməliyik?" sualına 2000-ci ildə xalqın başbilənləri cavab axtarmaq əvəzinə didişib-çəkişməyə, mühüm dövlət kürsülərini naşı adamlara paylamağa başladılar. Onda B.Vahabzadəni dinləsəydilər, torpaqlarımız düşmən tapdağına çevrilməzdi. Şair deyirdi ki:

*Bir yol var: o yolu biz keçməyincə,*
*Köhnə qanımızı dəyişməyincə,*
*Nağıla uymağı unutmayınca,*
*Vaxtın sükanını bərk tutmayınca,*
*Zaman axarını, vaxt axarını*
*Axan qanımıza biz qatmayınca,*
*Vaxtilə hər şeyə qadir millətin,*
*Bu ulu millətin, nadir millətin*
*Zəlil durumuna can yanmayınca,*
*Bu miskin halından utanmayınca*
*Tarix ruhumuzu utandıracaq.*
***("Məram" seiri, avqust 2000)***

Azərbaycan türklərinin işini düyünə salanlarla təkcə poeziyanın dili ilə danışmaq artıq kifayət deyildi, çünki haqqın libasında zoru görüb göstərmək hünər sayılmırdı:

*Yazıram, pozuram, açılmır düyün,*
*Böhtan da atıram bəzən dövrana.*
*Özümdən soruram: – Sən kimsən bu gün?*
*Yalnız gördüyünü göstərən ayna.*

Dünyanı təəccübləndirmık üçün baş verənlərin səbəbini öyrənmək vaxtı çoxdan çatmışdı:

*Hünərin var isə sən bizə göstər*
*Yaxşının, ya pisin səbəbi nəymiş?*
***("Açılmır düyün" seiri, iyul 2000)***

Şairi ən çox narahat edən məsələ vətənin dar günlərində var-dövlətə,

sərvətə uyub mənliyini satanların sayının artması idi. Hərislərin kökünün kəsilməsi üçün elin qarşısında haqlı tələb qoyurdu:

*Oğul istəyirəm, şərafət bilə*
*Xalqın şərəfini, ləyaqətini.*
*Özünə ən böyük səadət bilə*
*Bu müdrik millətin səadətini.*
*Oğul istəyirəm, «məqsədim» deyə*
*Kürsünü özünə amal bilməyə.*
***("Oğul istəyirəm" seiri, mart 2000)***

Tarixi təftiş edən hoqqabazlar keçmişimizdə də, bu günümüzdə də qüsur tapmaqdaydı, birinin ağlına yerləşirdi ki, guya "Babək soykökündə bizdən deyilmiş». Xətaini islamı parçalamaqda, Fətəlini allahsızlıqda, Vaqifi «baz» olmaqda, Hadini gecəli-gündüzlü dəm gəzib-dolaşmaqda günahkar sayanlar millətin başbilənlərinə çevrilirdilər. Dahilərə, ulu babalara ləkə yaxmaq ən böyük nadanlıq deyildimi? Bəlamız onda idi ki:

*Dünya gözgörəsi şər atır bizə,*
*Biz də şər atırıq öz dədəmizə.*
*Harda ayrılsaq da, burda biz birik,*
*Ulu dədəmizə yol göstəririk.*

*Haqqı tapdayanıq biz haqq adına,*
*Dil uzun, əl qısa, fikir dərbədər.*
*Görən, bu dünyada öz əcdadına*
*Çirkab atan varmı özümüz qədər?*
***("Qaç, at basdı, millət gəlir" şeiri, iyul 2000)***

Şair zaman-insan bağlılığına həsr etdiyi silsilə şeirlərinin son akordunda isə vaxtın azlığından şikayətlənir, dünyanın bütün gərdişlərində meydan sulasa da, ahıl yaşında zamana təslim olduğunu etiraf edirdi:

*Vaxt tapmadıq Tanrıdan*
*Doğru yolu sormağa.*
*Zamanın əllərilə*
*Baş da keçdi qarmağa.*

Nəhayət, arxanı, önü yadırğayan, gecəni gündüzdən ayırmayan insan özünü zamanın töhmətindən qurtarmaq üçün "ölümmü, qalımmı?" – sualı qarşı-

sında acizliyini nümayiş etdirirdi:

*Bu, arxamı, ya önmü,*
*Bu, rüzgarmı, bu, günmü?*
*Özümü öldürümmü*
*«Özümü qurtarmağa?»*
***(«Özümü qurtarmağa» şeiri, may 2001)***

Ömrünü başa vurduğu ərəfədə dünyanı tam dərk etməməyi insanın ən böyük bəlasıdır. Bəs qoca zamanın qarşısında diz qatlayıb yalvarması onun acizliyindənmi irəli gəlirdi?

*Zaman, belə tələsmə*
*Zaman, mənə zaman ver.*
*Dünyanı anlamağa,*
*Zaman, mənə aman ver.*
***("Zaman, belə tələsmə" seiri, 2001)***

Yox, bu zamanla insan qarşılaşdırılmasında birincinin əbədiliyinin, ikincinin isə faniliyinin təsdiqi idi.

**Ramazan Qafarlı**


SANDIQDAN
səslər

*Yol gedirik bayaqdan*
*Ada görüb uzaqdan,*
*Şükr elədik Allaha.*
*Elə düşündük daha*
*Dənizin sahilidi…*
*Qoparmadı Tanrısa*
*Qolumuzdan zənciri,*
*Dilimizdən kilidi!*



## MÜƏLLİFDƏN

*Sovetlər İttifaqı dağılandan sonra arxivimi araşdırdım, gənclik illərindən yazmağa başladığım gündəliklərimi, çap olunmamış şerlərimi varaqladım, keçdiyim yolları dəftər səhifələrində yenidən keçib həm fərəhləndim, həm də təəssüfləndim. Ona görə fərəhləndim ki, gənclik illərimdə də həqiqəti görmüş, ağı qaradan seçə bilmiş, duyğularımı, fikirlərimi qəlbimdə gizlətməmiş, müəyyən qədər yazıya köçürə bilmişəm. Ona görə təəssüfləndim ki, ömür yollarında büdrəmələrim də olmuş, duyğu və fikirlərimi açıq-aşkar və tam dəqiqliyi ilə yaza bilməmiş, zamanın tufanlarından ehtiyat etdiyim hallar da olmuşdur.*

*O dəhşətli illərdə çapa verə bilmədiyim, yalnız yazmaqla təsəlli tapdığım bu şerlər qəlbimin fəryadı – yəni, o zamanın ağrı, acılarıdır. Həmin şeirləri ilk dəfə «Nağıl-həyat» (1991), «Ümidə heykəl qoyun» (1993), «Körpü çaydan uzaq düşüb» (1996) kitablarımda çap etdirmişəm. «Sandıqdan səslər» başlığı altında verilən bu şerilər 1950-ci illərdən Sovetlər İttifaqı dağılana qədər yazılmış və arxivimdə gizlədilmiş şerlərdir.*

## YOX

Ömrüm başdan-başa ahu-nalədir,
Çox da ki, dilimin ahu-zarı yox.
Hər il bahar gəlir çölə, çəmənə,
Nə olsun, könlümün öz baharı yox.

Düşdüyüm dünyanı düşündüm dərin,
Önündə acizəm mən bu sirlərin.
Könlümdə bəslənən cəvahirlərin
Kolxoz bazarında xiridarı yox.

Dar gəlir könlümə dünya büsbütün
Dünya da kiçilir, yoxsa, günbəgün?
Yaralı könlümün, yazıq könlümün
Nə göydə, nə yerdə bir qərarı yox.

Alçaldım yerə də, qalxdım göyə də,
Başımın üstündə gördüm min hədə.
Dinməyə qoymurlar,
düşünməyə də
Axı, mən yazığın ixtiyarı yox.

*1948*

## ƏMZİK

-Südüm yoxdur, körpə quzum, ağlama,
Şirin sözüm, iki gözüm, ağlama.
Əmziyini əm görüm,
Gözlərini yum görüm.

...Körpə əmir əmziyi
Elə bilir, məmədir.
Aldadana can qurban
Dünyada kim kimədir?!

Aldadırıq, aldanırıq elə biz
Saxta əmzik ağzımızda bal dadır.
Uşaq ikən öz doğmaca anamız,
Böyüyəndə həyat bizi aldadır.

*Mart 1953*

## GÜNAH ƏSRİN ÖZÜNDƏDİR

*Altmışında alma əsa,*
*Yetmişində batma yasa.*
*Hər kəs yüzü yaşamasa,*
*Günah onun özündədir.*
**O.Sarıvəlli**

Sən arifsən, Osman qağa,
Gör bir insan nə gündədir.
Hər muradın, hər istəyin,
Hələ sənin gözündədir.

Küyə getmə sən bu qədər,
Yelə vermə ömrü hədər.
Kimə gərək yalan sözlər?
Sözün gücü düzündədir.

Zaman ilə ver səs-səsə
Heç olmasa bu sindəsə…
Dürr dənizin dibindəsə,
Çör-çöp suyun üzündədir.

Dedim: «düz yaz», dedin: «Yavaş!».
Basdı səni qorxu, təlaş.
Bilirsən ki, «böyük qardaş»
Hər sözünün izindədir.

Aç gözünü, Osman dədə,
Yüz «niyə» var hər «niyə»də.
Ömür çatmır əlliyə də
Günah əsrin özündədir.

*Noyabr 1955*

## PAMBIQ

Adına min lənət, özün bir yana,
Gəlmişik zülmündən zinhara, pambıq.
Rəngin ağdırsa da, yazıq kəndlinin
Elədin gününü sən qara, pambıq.

Havaya sovrulur əlimin rənci,
Qocaya döndərdin cahılı, gənci,
Yazı əkinçiyik, qışı dilənçi,
Düşmüşük əlindən azara, pambıq.

Sən mənim xalqıma kəsildin qənim,
Çox da ki, bahadır qiymətin sənin.
Millət lüt-üryandır,
amma özgənin
Əynində dönürsən paltara, pambıq.

Anamın, bacımın yeyib ətini,
Gözündə qoyursan hər niyyətini.
Çəkirsən kəndlinin heysiyyətini,
Hərrac malı kimi bazara, pambıq.

Hər zülmə cəfaya sinə gərmişik,
Xeyiri, qazancı yelə vermişik.
Səni biz əkmişik, biz becərmişik
Yüklənib gedirsən bəs hara, pambıq?

*Oktyabr 1956, Şamxor*

## ALDANIŞ

Yol gedirik bayaqdan
Ada görüb uzaqdan,
Şükr elədik Allaha.
Elə düşündük daha
Dənizin sahilidi…
Qoparmadı Tanrısa
Qolumuzdan zənciri,
Dilimizdən kilidi!

*1958*

## OLDU

Mən ələmdən qaçırdım
Ələm mənə tuş oldu.
Bəxtimin göyərçini
Bağçamda bayquş oldu.

Dağlar tufan qopardı
Sel Saranı apardı.
Qəza başımı yardı,
Günahkarı daş oldu.

Kimə bu sirri açım?
Necə özümdən qaçım?
Vaxtsız ağardı saçım
Günahkarı yaş oldu.

Yaman bəd əsdi rüzgar,
Saraldı bağ bağçalar.
Taleyimə yağdı qar
Günahkarı qış oldu.

Adım oldu Bəxtiyar
Bəxt, adımdan bəxt umar,
Nəşə mənə – zəhrimar,
Ələm mənə – nuş oldu.

*1961*

* * *

Krım, Yalta, Qızıldaş… Bir xalqın ata yurdu –
O xalqa yad, ay allah, gəlməyə vətən oldu.
De, mümkünmü ayırmaq burda xeyirdən şəri?
Axı, haqqın gözləri oyum-oyum oyulmuş.
Torpağın altındadır torpağın sahibləri,
Gəlmələr torpaq üstə torpağa sahib olmuş.

*Avqust 1961, Yalta*

## POMPEY XƏRABƏLƏRİ ÖNÜNDƏ

Əsrlər ötdükcə tarixdən bəri
Başqa gözlə baxır zaman, hər şeyə.
Pompey şəhərinin xərabələri
Muzeyə dönübdür, indi muzeyə.

Axarlı-baxarlı bu qədim şəhər
Bu gün səhnəsidir ötən tarixin.
Bu gün izlərini axtarır bəşər,
Dünən bir vulkanla itən tarixin.

Bu ölü şəhəri yalnız görməyə
İldə on minlərlə səyyahlar gəlir.
Səyyah marağından hər il ölkəyə
Neçə milyonlarla dövlət, var gəlir.

Bəs biz?
Oyanmadıq əsrin səsindən.
Dondu sevgimiz də, nifrətimiz də.
Əcnəbi pul qırır xərabəsindən,
Bizə düşmən olub sərvətimiz də.

*Fevral 1961,*
*Pompey xərabələri*

## AZƏROĞLUNA

Sən mənə həsrətsən, mən sənə həsrət
Bitməzmi həsrətin ömrü, ay Balaş?
Qalmışıq Vətəndə Vətənə həsrət
Necə vətəndaşıq, necə vətəndaş?

Təbrizdən adlayıb keçdin bu yana,
Qardaşın yanına gəldin dərmana.
Gördün, yaxşı gördün mən kiməm, nəyəm,
Mən də sənin kimi yaman gündəyəm.

Qırdılar Vətənin qol-qanadını,
Biz xeyir oğluyuq, olduq şər oğlu.
Niyə Azəroğlu qoydun adını,
Hanı Azərbaycan, ay Azəroğlu?

*Mart 1961*

## ONUN PƏRİŞANLIĞI

*Füzuli heykəlinin açılışı münasibətilə*
**Heykəlin müəlliflərinə**

Sağ olun,
Çox sağ olun,
Gözəldir heykəliniz.
Qoy var olsun əliniz!
Füzulini deyil, siz
Bu günü duymuşsunuz.
Sənətin bizim əsrə
Sözünü duymuşsunuz.

Öz əsrində Füzuli
Axı, nəyə ağlamış?
Kim deyir ki, Məcnuna,
Ya Leyliyə ağlamış?
Mən anlaya bilmirəm
Şah İsmayıl əsrini
Yamanlaya bilmirəm.

O, öz zərrə dərdinə
Ümman dedi, dağ dedi.
O, öz «yalanlarıyla»
Əsri də silkələdi.

Bizsə ağ yalanları
Daddıq həqiqət kimi –

Bədbəxtliyi səadət,
Zəhəri şərbət kimi.

Heykəliniz gözəldir!
Şairin o əyri beli
Sanki mənim əsrimin
Dərdilə yüklənibdir.
Şeirinin hər nidası,
Nəğməsinin hər xalı
Əsrinə köklənməyib,
Əsrimə köklənibdir.

Şairin pərişanlığı
Köksündə od qalanmış
Ana yurdu talanmış
Elin pərişanlığı…
Yüz yerə parçalanmış
Dilin pərişanlığı.

O, sakit görkəmiylə
Qaya kimi dayanıb,
Dərya kimi çağlayır.
Öz doğma millətinin
Dününinə güvənir,
Bu gününə ağlayır.

*İyul 1962*

## ASSORİ

*Yıxılır uca dağlar,*
*Tozu bir zaman qalır.*
**Bayatıdan**

Dırmanır yoxuşu maşın nər kimi,
Çağlayır dərədə köpüklü Qarqar.
Dağların belinə bir kəmər kimi
Dolanıb uzanır dolama yollar.

Mənzilə çatmağa hələ qalsa da,
Yollar yordu məni, lap darıxmışam.
Təbiət nə qədər gözəl olsa da,
Bu uzun yollarda təntiyir adam.

Üzümü çevirib şoferə birdən
-Bir şey oxusana, - dedim, - Stepan.
-Axı, səs sarıdan çox məğmunam mən.
-Ona məhəl qoyma, ürəkdən qopan
Hər səs gözəl olur, bezikmişəm mən.
Eyni zənguləli xanəndələrdən.

Stepan oxudu...
Nəsə çox yanıqlı bir mahnıydı bu...
Mahnı duman oldu,
O, sardı məni.
Qədim bir zamana apardı məni.
Bu həzin... yanıqlı... təranələrdən,
Bir qəriblik duydum ürəyimdə mən.

Ötən əsrlərlə sanki öpüşdüm.
Elə bil bir özgə aləmə düşdüm.
Düşündüm:
«Bu mahnı nə deyir görən?
Qəlbimə yatsa da səsi, naləsi
Bəs niyə sözləri anlamıram mən?»
Səsdən məst olmuşdu çiçəkli dərə
Hıçqırıb dayandı o, birdən-birə.
Gördüm üzünü də çevirdi yana.
Nə oldu?
Nə oldu, görəsən, ona?
Gözümün ucuyla baxırdım… deyən
Gözünün yaşını gizlətdi məndən.

Həyəcan sovuşdu…
Keçdi bir qədər
Halını soruşdum.
-Eh, keçib gedər.
-Mahnın, doğrudan da, gözəldi – dedim.
Ancaq sözlərini başa düşmədim.
-Eh… qədim Assori nəğməsiydi bu.
Mənim millətimin…
Deyib, o susdu.
-Sənin millətinin? Sən assorisən?
-Bəli.
-Rus bilmişdim amma səni mən.
-Yox, yox, bu mahalda beş on evik biz,
Qurtarmaq üzrədir bizim nəslimiz.
Mənim əsl adım Kirodur, Kiro, -
Deyərək, dərindən köks ötürdü o.
-Xalqımın çox qədim bir tarixi var.

Şərəflə yaşamış bizim babalar,
Boyun əyməmişdir heç bir düşmənə. –
Deyə, tarixini danışır mənə.
Danışır...
Mənimsə nəzərlərimdə
Qılınclar toqquşub, komalar yanır.
Bir zaman oxuyub əzbərlədiyim
Tarix kitabları hey varaqlanır.
Ağ saçlı tarixin alt qatlarından
Gəlir qulağıma qəribə bir səs:
«Tarixin məhvəri məgər bir zaman
Bu xalqın əlində deyildimi bəs?
Yaşadılar mətin, öldülər mətin,
Zaman da bu xalqa saz olmadımı?
Tarix də bir zaman assorilərin
Kəskin qılıncıyla yazılmadımı?»
Axırı nə oldu?
Bu çərxi dövran
Atlını necə də salır atından.
Söz budur: gözlərə görünməsə də,
Demə, öz işini görürmüş zaman.
Göylərə baş çəkən dünənki bir dağ
Toz olub yerlərə ələnir bu gün.
Bir zaman tarixlər yaradan bu xalq
Tarix səhnəsindən silinir bu gün.
Dünənə səcdə qıl, bu günə düz bax.
Zaman yaman əyir, «əyilməzləri».
Xalqlar, qəbilələr yox olur, ancaq
Kitablarda qalır ayaq izləri.

Səsində dərdimi duyuram onun.
Daldım gələcəyə aram-aram mən.
Adı da əlindən çıxan Kironun
Dərdini, qəmini mən duyaram, mən.

Bir zaman,
Bir zaman mən idim mən də
İndi necə?
Yenə, de, oyammı mən?
Sarsıldım zamanın keşməkeşində
Yıxılan bir dağın tozuyammı mən?

*May 1962*

## ANLAMAQ ÇƏTİN

*Mir Cəfər Bağırovun «öz» millətinin başına nə oyunlar açdığını düşündükcə adamı dəhşət götürür. Görəsən, bu cəlladın damarlarından millətin qanı axmırdımı?*

Ona günahını keçə bilmirəm
Belə nankorluğa heyrətdəyəm mən.
Necə ola bilər, necə bilmirəm
Millətin rəhbəri, millətə düşmən?

Xəyanət üstündə qurulub bəlkə
Bizim cövhərimiz, təbiətimiz?
Baş vuraq tarixə, qayıdaq ilkə:
Bəzən özümüzlə savaşmışıq biz.

Vallahi, bu sirri anlamaq çətin!
Hissimiz, duyğumuz kormu, ya karmı?
Nağıl qəhrəmanı – Məlik Məmmədin
İpini qardaşlar qırmadılarmı?

Xəyanət, qısqanclıq bizə baş daşı
Gerçəyi yalana satan olmuşuq.
Atalar ip qıran, bizsə qardaşı
Quyunun dibinə atan olmuşuq.

*1962*

## ƏHMƏD, AY ƏHMƏD

Qaldıq nə günlərə… nə günlərə biz.
Hanı bığı burma igidlərimiz?
Hanı yanağından qan daman ərlər?
Hanı qoç Nəbilər, hanı Həcərlər?
Bəlkə anamızdan qul doğulmuşuq?
Bir tula payına möhtac olmuşuq…
Zəhmətin havayı, qazancın minnət
Əhməd, ay Əhməd!

*Yanvar 1963*

* * *

Bu gün bayram edir qırğız elləri.
Yadın caynağına keçəndən bəri
«Ağ günə çıxıbdır…»
Buna bax, buna!
Sevinir, fəxr edir qul olduğuna.
Bayrammı?
Kül olsun gözünə, millət!
Zar-zar ağlayasan gərək sən bu gün.
Yüz il bundan əvvəl başın kəsildi,
Öldüyün günündür bu gün, öldüyün!..
Ölür,
Qatilinə «pənahım» deyir,
Qul olduğu günü bayram eyləyir.

*Noyabr 1963*

## QƏRİB

Novruz gəlir əllərində səməni,
Otağıma gətirmişəm çəməni.
Zaman, sənin axarına üzmədim,
Nə mən səni anladım, nə sən məni.

Bu dünyanı başa düşə bilmədim,
Öz-özümlə mən döyüşə bilmədim.
Qah-qah çəkib dünya gülür halıma,
Zəmanəyə mən uyuşa bilmədim.

Dövran mənə pis üzünü göstərib,
Müztəribəm, müztəribəm, müztərib.
Öz doğmaca vətənimin sakini,
Zəmanədə mən qəribəm, mən qərib.

*Mart 1963, Şəki*

## 150 İL

Tapdamaq olarmı haqqı bu qədər?
Yüz əlli ildir ki, soyurlar bizi.
Bu heç,
                    Bizə bayram elətdirirlər
Tarixdə ən böyük faciəmizi.

Vətən əldən gedib… Buna yanmıram.
Ağır bir qədərlə üzbəüz olduq.
Ona yanıram ki, o gün, o bədnam
Alverin dəllalı özümüz olduq.

*Fevral 1964*

## NAĞIL - HƏYAT

Anam olsan belə, ay anam, xeyli,
Səndən gileyliyəm, səndən gileyli...
Sən duymaq düşünmək öyrətdin mənə,
Duyub-düşünməkdən azad olaydım.
Danışmaq öyrətdin sən öz körpənə
Nola, mən anadan lal doğulaydım.

Dilini bir ilə öyrəndim... nahaq!..
Öz dilim özümə kəsilib yağı.
Bütün ömrüm boyu çalışdım, ancaq
Öyrənə bilmədim danışmamağı...
Başıma bəladır mənim öz dilim,
Dənizəm üzümə durub sahilim.

Yerimək öyrətdin tutub əlimdən,
Dolaşdım aranı, dolaşdım dağı.
Balana yerimək öyrədincə sən,
Gərək öyrədəydin yıxılmamağı...

Fikirlər yığılır beynimdə qat-qat,
Cavablar-qorxulu, suallar-yasaq.
Həyatı qanana ögeydir həyat,
Onu qanmayana doğmadır ancaq.

Məni incidirlər bəzən qəsd ilə,
Ertəsi hər şeyi unuduram mən.
Girəvə düşəndə zalimə belə
Zülm edib, kam almaq gəlmir əlimdən.

Ana, quduzlaşır həyat, ilbəil,
Dalayır puç olan ümidlərimi.
Niyə isti deyil, mehriban deyil
Bu amansız həyat qucağın kimi?..
Hardasan, ay ana, bir gəl, mən yenə
Bəlalı başımı qoyum dizinə.
Mənə nağıl danış, dayansın anlar,
Görüm, nağıldakı o qəhrəmanlar
Cütbaşlı divləri nə təhər yıxır,
Nə təhər gizlənib, tilsimdən çıxır.

Bir danış, hardadır, görüm, səadət?
Bizim yurdumuza o niyə gəlməz?
Danış, danış görüm, Məlik Məhəmməd
Zülmətdən işığa necə çıxdı bəs?

Danışma ay anam, danışma, kiri,
Beynimə batmayır bu əfsanələr.
Divlər görmüşəm ki, nağıl divləri,
Onların yanında toyuğa bənzər.

Nadanlar görmüşəm, öz yolundakı
Dikə eniş deyir, düzə dik deyir.
Tülkülər görmüşəm, öz qolundakı
Dəmir zəncirlərə bilərzik deyir.

Atasını söyən, yada baş əyən
Rəhbərlər görmüşəm, qəddar, amansız.
Tikana gül deyən, gülə kol deyən
Qarılar görmüşəm dinsiz, imansız.

Quldurlar görmüşəm, özgə yer deyil,
Yurdunu talayıb asudə yatmış.
Tacirlər görmüşəm, simuzər deyil
«Malades» sözünə Vətəni satmış.
Dünyanı biləndən, duyandan bəri
Mənim gözlərimdən düşüb həyat da.
Nağılda gördüyüm qorxunc şeyləri,
Həyatda görmüşəm, anam, həyatda.

*Yanvar 1964 – may 1965*

## KİROVUN HEYKƏLİ

*Kamil Mirbağırova ithaf**

O, heykəlmi?
Yox ey dost!..
O, ölkənin sahibi.
Başımızın üstündə
Sıyrılıb qılınc kimi.
Hədələyir o bizi.
Deyir mənimdir ölkə –
Bu göy,
bu yer,
bu dəniz!
Başınızı vuraram,
Ayaqlarım altından
Başınızı çəksəniz!
Ayağım altındadır
Namusunuz,
arınız.
Başınızı sürüsün
Daim ayaqlarınız.

-Bu düzdür!
Bəs neyləmək?
Susub oturmaqmı?..
-Yox!
Biz nə qədər yaşayaq
Başımız üstdə yumruq?..

Öz doğma şəhərində
Sən kimin heykəlini
İstəyərdin ucala
O heykəlin yerində?
-Koroğlunun,
-Babəkin.
-Yox, dostum, yox, bilmədin!
Mən istərəm tarixə
Bu gündən də iz qala.
O heykəlin yerində
O heykəli yıxanın
Tunc heykəli ucala…

*Aprel 1966*

## MƏNDƏN QORXURSAN!

Məni də sənin kimi
Nəhəng doğmuşdu anam!
Sonralar xırdalandım,
Quyruğuna calandım.
Sən nəhəng, mən cırtdanam!

Mən təpəcik, sənsə dağ,
Sən yetkin bir pəhləvan,
Mənsə hələ özünü
Tanımayan bir uşaq!..
Məndən qorxursan ancaq!

Məndən qorxursan,
Bəli!
Gülməlidir, gülməli!..
Qorxmursansa sən, əgər
Ey pəzəvəng, yekəpər
Mənim köhnə düşmənim
Bəs niyə əl qolumu
Bağlamısan sən mənim?

Sən qadirsən hər şeyə,
Sənin gücün, qüdrətin,
Sənin hökmün, fərmanın.
Nəhəng də əl-qolunu
Bağlayarmı cırtdanın?

May 1966

## DEDİM, DEDİLƏR

İslandım danlağın, min-min töhmətin
Gur yağan şıdırğı yağışlarında.
İllərdir üzürəm min bir həsrətin
Könlümdə göllənən göz yaşlarında.

Gedirəm… Mənzilim uzaq bir ada,
Çox da ki, haqq yolum çənə bürünmüş.
Gözüm irəlidə, könlüm arxada,
Əqidəm gümandan imana dönmüş.

Dedilər: – İnamın bir qarışqanın
Dağı dəlməsinə bənzər, ay yazıq.
Dövranı danmağın,
bircə damlanın
Selə gülməsinə bənzər, ay yazıq!

Dedim: - Haqqın sapı uzanar, ancaq
Qırılmaz… Dədələr kəlamı haqdır.
Dedilər: – Zəncirdir, sap yox, yaxşı bax.
Dedim: - Nə olsa da, qırılacaqdır.

Dedilər: - Nağıldır sənin bu arzun.
Dedim: - Qoy olsun!
Tilsim də kəsəmmir haqqın yolunu,
Zəfərlə qurtarır nağılın sonu.

*Dekabr 1966*

## KRIMDA TATAR QƏBİRLƏRİ

Torpağın altında yatır yerlilər,
Üstündə gəlmələr kefdə, damaqda.
Yerlinin dərdini yersiz nə bilər?
Yerlinin haqqını o, tapdamaqda.
Gəlmə haqlı bilir özünü, haqlı!
Yerlinin yurduna yolları bağlı…

Bilmirəm Krımın öz sahibləri
Bu torpaq altında necə dincəlir?
Millət bu diyardan gedəndən bəri.
Ruhlar öz yurdunu ziyarət üçün
Sibirəmi gedir, buramı gəlir?

Tatar məzarları… əl açıb göyə
Torpağı qaldırıb niyə qabarmır?
Ölülər yer altda, görəsən, niyə
Haqq deyə qışqırıb fəryad qoparmır?
Krımı götürüb çiyinlərinə
Millət olan yerə niyə aparmır?

Məzarlar bu yurdun öz sahibləri
Niyə bu zillətin bağrını sökmür?
Torpağın üstündə sahibkar kimi
Gəzən gəlmələri dənizə tökmür?

*May 1966 Krım, Yalta*

## TORPAQDAN PAY OLMAZ

Biz yaxın olmuşuq, qədimdən yaxın.
O qədər yaxın ki, bizim dağların,
Kölgəsi düşübdür sizin dağlara,
Mən əfsus demirəm ötən çağlara.
Baxşının kamanı bizi ağladıb,
Cabbarın cəh-cəhi sizi ağladıb.

Babam, baban ilə dost olub, ancaq
Dostluqdan bir kəlmə danışmazdılar.
Biri-birimizə diş qıcırdaraq
Dostluqdan deyirik indi o ki, var.

Nədir bu eyhamlar, bu atmacalar,
Yenə şeytan girib araya bəlkə?
Deyirəm, kənardan barmaq basan var,
Köz tutan o köhnə yaraya bəlkə?

Torpaq istəyirsən sən indi məndən,
Bu necə qardaşlıq, yoldaşlıq oldu?
Özgə torpağına göz dikdiyindən
Sənin neçə dəfə gözün oyuldu?
Sənə dərs olmadı yenə də bunlar,
Yoxsa, tökülməli artıq qanın var?

Mənə üzəvarı «qardaş» deyirsən,
Ancaq altdan-altdan iynələyirsən.

Əyyami-qədimdən sadədiləm mən
Baş aça bilmədim, hiylələrindən.

Əgər düşmənsənsə… hiylədən əl çək
Açıqca davalıq məramın olsun.
Mənimlə min ildir kəsdiyin çörək,
Aldığın kirvəlik haramın olsun!

Hardan sənin oldu bizim Qarabağ?
Adı, sahibini demirmi aşkar?
Xoşluqla verməzlər torpağı, ancaq
Qanla möhürləyib, zorla alarlar.

Hələ göz dikmisən Naxçıvana da
Təbriz də, Sərab da bəlkə səninmiş?
Vartazar yaşayan bütün ölkələr –
Yəni, bütün dünya öz vətəninmiş?..

Günahım nədir ki, qanqal kimi sən
Bütün yer üzünə səpələnmisən?..

Arxını selimə gəl bənd eləmə,
Bu, qan davasıdır, bu qan davası.
Xəbərimiz yoxdur… yamaqmış, demə,
Sərçə yuvasına, qartal yuvası?!

Yatır bu torpaqda əcdadım mənim,
Şərəfim,
Şöhrətim öz adım mənim…
Cəddimin yatdığı ulu torpağı,
Sinəsi sərvətlə dolu torpağı,

Mən sənə pay verim?
                Mən qul, sən ərsən?
Sən məni bu qədər axmaq bilirsən?
İsa bulağının zümzüməsini,
Cabbarın,
                Seyidin,
                        Xanın səsini,
Dalğalı Qarabağ şikəstəsini,
Babək türbəsini necə pay verim?

Oğuz nəslindənəm, ər oğlu ərəm,
Özgə bağçasından bir gül dərmərəm,
Halal torpağımdan çərək vermərəm,
Əgər dardasansa sənə «hay» verim!

«Dığalar» yenə də yolunu azmış,
Məndən yuxarıya şikayət yazmış.
Neçə yol vermişəm, görünür, ,"azmış,"
İstəyir mən ona yenə pay verim!

*Oktyabr 1966*

## XX ƏSRİN ADAMI

Gözüm şüşə, dişim qoyma,
qıçım taxta,
Arzuları vurdu şaxta.
Qanım qara, laxta-laxta!
Kişilikdən bir əsər yox,
Özüm axta,
Sözüm saxta.

Yalanlara əl çalıram,
Alçaldıqca ucalıram.
Sözüm iki,
Üzüm iki.
Mən əyriyə düz deyirəm,
Gecəyə gündüz deyirəm
İndi bizə ağıl gərək.
Yuxa ürək
Kimə gərək?!
O ürəyi mən atmışam!
Yerinə daş bağlatmışam.
Mən zamanın hökmü ilə yol gedirəm
Yoldaş deyib,
Yoldaşımın yoluna daş gillədirəm.
Əməlsiz də keçib gedər,
Gərək bollu sözün olsun.
Ağ yalanı qıp-qırmızı

Demək üçün üzün olsun.
Əməl deyil, söz oğluyam,
Mən əsrimin öz oğluyam!

*Fevral 1966*

## DAŞ QAYALAR

Öz fikrimi, düşüncəmi
Ürəyimdə doğulmamış –
Kağız üstə söz olmamış
Öz əlimlə boğan mənəm.
Həm də neçə ataları bilinməyən
Bic, zinakar «balaları»
doğan mənəm!
Fırtınalar qabağında
Öz səmtini dəyişdirən
bir yelkənəm.
Öz fikrini öz əliylə
Yox eləyən qatil mənəm!
Çəpər bağı dolanınca
Bağ çəpəri dolandı hey.
Fikirlərin çağlar seli
Bulandı hey…
bulandı hey!..
Sel bulanmaz
Qabağında qaya kimi bənd olmasa,
Daşqın sular
Öz içindən oyulmasa.
Olmayaydı, kaş, qayalar.
Daş qayalar, daş qayalar!

*1967*

## VƏKİL

Yüz yerə parçalandım,
Görmədilər tam məni.
Mən dünyadan incidim,
Qınadı aləm məni.

Asılmışam dözümdən,
Dərddir axan gözümdən.
Mən qaçmışdım özümdən,
Hardan tapdı qəm məni?

Mən kiməm? Qərəzim nə?
Qarşı durdum zillətə.
Bilmirəm bu millətə
Vəkil etdi kim məni?

Bu zülmün, bu zillətin
Sonunu görmək çətin!
Vəkil etdi millətin
Çəkdiyi sitəm məni.

*Oktyabr 1968*

## HÖRÜMÇƏK TOR BAĞLADI

Tariximiz danıldı,
Uydurma tarix ilə kimliyimiz anıldı –
Öz kökünü bilməyən gözü küllü bu millət
Zamanın yollarında hər addımda yanıldı.
Uydurma tarix bizi anamızdan ayırıb
Yad anadan alınmış bələkdə qundaqladı,
Təməlimiz laxladı.
Bu xalqın tarixini düz bildirən, düz yazan
Tarix kitablarında hörümçək tor bağladı.

Kimə deyək dərdini bu dövranın, bu günün?
Vəzifəyə sümsünən
                    Vəzifə kürsüsünün
Birinci pilləsində mərkəzdən noxtalandı.
Kişiliyi vardısa, bu yerdə axtalandı...
Ürəkdəki cəsarət,
  mərdanəlik,
          dəyanət
                  talandı,
                          tapdalandı.
Məğrur keçmişimizdən üzüldü əllərimiz
Şərəf bildik özgəyə qul olmağı, yoxsa, biz?
Hər cürə zülmü udduq.
Köləliyi qazanıb, ağalığı unutduq.
Vicdan, düzlük, həqiqət sürgün oldu bu yerdən.
Yaltaqlıq və xəyanət silahını yağladı.
Cəsarət qılıncının ağzı düşdü kəsərdən,

Qəbzəsində, qınında hörümçək tor bağladı.
Dilimiz yasaq oldu.
Ruhumuz qəlbimizdə əbədi dustaq oldu.
Ruhsuz yaşadıqca biz
Vicdanımız, eşqimiz
Üzümüzə ağ oldu.
Biz beləcə yaşadıq, yaşamadıq, süründük,
Əməlimizdə deyil, sözümüzdə göründük.
Ruhumuz qan ağladı,
Məscid qapılarında hörümçək tor bağladı.

Həqiqət dilə gəldi.
Dildə ilişdi, qaldı.
Həqiqətin üstünə yalanlar kölgə saldı.
Vuruşmadıq, barışdıq
Biz «azadlıq» adlanan bir uydurma nağılla.
Ölən düşüncələrə qəlbimiz yas saxladı.
Həqiqəti deməkdən elə qorxduq...
Ağılla
Həqiqət arasında hörümçək tor bağladı.

*Oktyabr 1968*

## KAL OLDUM

Deyirlər ki, hər ilkin öz sonu var.
İstəyirəm biz adlayaq
Bu sondan da o yana.
Son evimiz məzardırsa,
Addım atmaq istəyirəm
Mən ondan da o yana.
Özüm oldum öz arzumun hədəfi,
Məni mənə düşmən etdi
Duyğuların, fikirlərin
mənə gizli tərəfi,
Axır bezdim, yoruldum,
Gözəl-gözəl fikirlərə,
Əlvan-əlvan duyğulara gor oldum.
Bu dünyanı
mən bəsirət gözlərimlə
Görə-görə kor oldum.

Qaya üstdə tək qalmışdım,
Tufan qopdu, inildədim,
ney oldum.
İdrakımın qazanında
Bişə-bişə çiy oldum.
Az biləndə çox danışdım,
Çox biləndə
susa-susa
lal oldum.

Cücərməmiş bir tum idim
Neçin? Neçin? – deyə-deyə,
Budaq üstdə dəyə-dəyə
Kal oldum.

*Mart 1968*

## DAMCI-DAMCI

Bulaq oldum, çağladım,
Susuz qalan çöllərin
Halına qan ağladım.
Çəmənlərə çiləndim,
Axdıqca nəğmələndim.
Tez yolumu kəsdilər,
Ağzıma daş basdılar.
Elə güman etdilər,
Gah mıxa, gah da nala
Döyən amalsızmışam.
Amma əsli budur ki,
Gur axa bilməsəm də,
Damcı-damcı sızmışam.

Dəniz deyil göl oldum,
Axıb çuxura doldum.
Öz dərdimə doluydum,
Dibimi oydum, oydum.
Yer altında daşları,
Qayaları döşlədim.
Eninə bacarmadım,
Dərininə işlədim.

Dalğa pıçıltısında
Dibdə yatan daşların
Mətləbinə varan yox.
En görünür hər gözə,

Dərinliyi görən yox.
Dedilər dayazmışam,
Bir çuxurdan baş alıb
Öz yolumu azmışam.
Mən yolumu azmadım,
Mənə «az!» - deyənlərin
Fikrini azdırmışam.
Onun öz məramını
Qəsdinə yozdurmuşam.

Qanım Qorqud qanıdır
Mən əvvəlki damaram.
Damcı-damcı damaram,
Damcımı saxlamaram.
Damcı damar, göl olar,
Cığır dönüb yol olar.

Bir yanıqlı sazam mən,
Hələ çağlamazam mən.
Asta-asta dinmişəm mən,
Arzuma köklənmişəm.
Səsləri bu kök üstə
Səsləyən avazmışam.

Dərd qaynaqlı ələməm,
Kağız üstə qələməm.
Nifrətimi deməyə
İmkanım olmayanda
Mən sevgimi yazmışam.

*1969*

## XALQ DÜŞMƏNLƏRİ

Xalqa neçə-neçə tələ qurdular,
Başımız çilova keçəndən bəri.
Qəsdən, bilə-bilə adlandırdılar –
Xalqın dostlarını «xalq düşmənləri»

*1969*

## DƏRƏLƏR

Oynamaqdan yorulanda
«Mustafabəy» bağlarında
Tək başıma mən enərdim
dərələrə
Günün isti çağlarında.
Çox sevərdim dərələri
Əl çatmayan,
Ün yetməyən,
Gün düşməyən guşəsini.
Mən uzanıb dinləyərdim
Şırıl-şırıl şırıldayan çay səsini...
Nə gözəldir ana torpaq.
Göy, yosunlu daşlarından
Sular sızan
Qayaların altına bax!..
Bu qayalar başım üstə
Tağlar açar çətir kimi.
Damcı-damcı axan sular
Dərələrə nəqş edərdi
Nisgilimi...

Gün düşməyən bu kimsəsiz dərələrə
bələd idim.
Öz doğmaca bağçam kimi...

Hanı indi o dərələr?
Ürəyimə köçüb indi

o dərələr.
O təbii dərələrdən daha dərin
Dərələr var ürəyimdə,
Yaralar var ürəyimdə.

Dərələrin gur səsləri
çağlar,
ağlar ürəyimdə.
Heçə dönüb gözlərimdə
Uşaqlıqda vurulduğum
Əlvan-əlvan mənzərələr.
Yüz illərin seli, suyu axıb gəlsə,
Yenə dolmaz könlümdəki
bu çuxurlar,
bu dərələr.

*İyun 1969*

* * *

Özümə də görünməyən
 könlüm mənim,
  duyğum mənim,
   sevdam mənim.
Azadlığım – dünyam mənim.
Öz içimdə, öz dünyamda
 Hakim də mən, məhkum da mən.
Min bir yerə qol atıram
 Bir özəkdə, bir tumda mən.
O, coşqundur,
 O daşqındır,
  Min rənglidir,
   sürəklidir.
Söz-fikrimin, düşüncəmin
   qəlibidir, öz şəklidir.
Düşüncələr – havadakı quşa bənzər,
Sözlər – quşa atdığımız
daşa bənzər.
Dəyə bilsə, səninkidir.
Dəymədisə, daşdan küsmə özündən küs.
O incidən əlini üz.
Ürəkdədir o qönçələr.
Hansı gözə görünübdür düşüncələr?

*1969*

## MƏN XƏYAL YEMİŞƏM

Mən xəyal yemişəm, xəyal həmişə
Özümü xəyalla doyuzdurmuşam.
Gəlincə zamanla hər gün döş-döşə
Xəyalı gerçəyə çox yozdurmuşam.

Boz rəngə bürünüb arxa da, ön də
Eyni rəng ömrümün boyuna döndü.
Arzuyla imkanın hər döyüşündə
Həyatım başabaş oyuna döndü.

Xəyalım, ümidim var olsun yenə
Məchul bir sabaha üz tutmuşam mən
Ümid laylasında səhər eşqinə
Qəzəb əjdahamı ovutmuşam mən.

Baxıram, ağarmır niyə dan yeri?
Bəs günəş üfüqdən nə vaxt qalxacaq?
Saralır könlümün ümid gülləri
Ləçəklər tökülmür, tökülmür ancaq.

*1970*

## SAHİRƏ CAVAB

*Böldülər quşları aləmdə məgər,*
*Bizə də çatdı – o ağlar bayquş.*
*... Yanar əflakidə minlərcə çıraq,*
*Bizə bir şəm, bir avizə də yox.*
**Sahir**

Şeirinin sehrinə düşdüm, Sahir,
Demisən hər sözü mahir, mahir.
Vətəni şöhrətə qurban eləsə şair olan,
Vətənin dərdinə dünyada tapılmaz dərman.

O qədər nalə çəkib ağlamışam,
Gen düşüb indi könüllərdən işıq.
Bilmədik bunca müsibətdə nə gündüz, nə gecə,
Özümüz bayquşa döndük beləcə.

Ağamız dərd sapından bizə köynək toxuyur,
Hələ bayquş səsinə mürgü döyür el-obamız.
Yerin üstündəki bayquşlara lənət oxuyur
Yerin altındakı qartal babamız.

Niyə bəy, xan babadan bir belə qullar törədi?
Niyə qartal babadan sərçə oğullar törədi?
Bizə avizə yaraşmır, nə gərək?
Özümüz yanmalıyıq avizə tək!

*Sentyabr 1971*

## QORXU

Mən qorxuram, sən qorxursan,
O da qorxur, bu da qorxur,
                Biz qorxuruq.
Təzə fikir beynimizə gələn kimi
tez qorxuruq.
Başqasından qorxduğumuz bəs deyilmiş
Özümüzdən biz qorxuruq!
Qorxu, qorxu!
Bir qurd olub yeyir bizi içimizdən,
Nə gözləyir Vətən bizdən?
İradə yox,
            kişilik yox.
Biz qorxuruq,
            biz susuruq.
Fikir ölür,
can sustalır,
ürək donub, ruh boğulur.
Qorxu bizim dilimizdə kilid olur,
Beynimizdə qıfıl olur.
Dərd budur ki, bu dərdi də,
Biz qanırıq, biz bilirik.
Qorxa-qorxa
Özümüz də özümüzçün
Biz qorxuya çevrilirik.

*İyul 1972*

## YUXULARIM
*(Röyalarım)*

Yuxularım, yuxularım, -
Arzularım, xəyallarım,
Bu dünyada ən sevimli
                    xoş hallarım.
Yuxularım –
Əli bağlı,
Qolu bağlı imkanımın
                    cövlan yeri.
O – dan yeri.
O qızarır,
Günəşimsə doğulmadı.
Yuxularım çin olmadı.
Oyanıram,
Tez qurtarır yuxumdakı nağıllarım,
Şirin-şirin xəyallarım.
Oyandımmı,
Gecələrin işığından
Gündüzlərin zülmətinə mən düşürəm.
Yaman üzlü həqiqətlə görüşürəm.
Onda könlüm nalə çəkir:
-Yatma, oyan, yuxularım,
Mənim yalan yuxularım.
Qoy şərt üzlü həqiqəti
Boğub dansın yuxularım.
Mən oyanmaq istəmirəm.
Qoy oyansın yuxularım.

Xəyal dolu, röya dolu
Gecələri verin mənə.
                    İstəmirəm mən gündüzü –
O sərt üzü.
Gəl-gəl, gəl-gəl, yuxularım,
Mənim şirin yuxularım,
Mənim gözəl yuxularım.
Gəl ki, gəl ki, əzab dolu bu dünyanı
sən danasan,
Ömrüm qədər uzanasan!

*İyul 1972, Hacıkənd*

* * *

Mənim səbrim.
        Daş səbrimə mən nə deyim?
Mənim səbrim - mütiliyim
                köləliyim!
Atam kölə olduğunu heç bilmədi,
        «Ağa» kimi ömür sürdü.
Yaşayırdı,
        düşünmürdü.
Mənsə kölə olduğumu
Qana-qana, bilə-bilə
                yaşayıram.
Öz-özümü dana-dana,
                ölə-ölə
                yaşayıram!
Xoşbəxtliyim ondadır ki,
Düşmənimin hökmü böyük,
                        taxtı çürük!
Bədbəxtliyim ondadır ki,
Mənim səbrim,
Düşmənimin qüdrətindən daha böyük!

*Sentyabr 1972*

## QƏRİBƏDİR

Dövran bizi tarixdə veyilləndirən oldu
Bir yerdə donub, göl kimi lilləndirən oldu.
Dünyaya Uluq bəy1 kimi dahini verən xalq
Bir qul kimi yad millətə pambıq verən oldu.

*1973*

## SƏMƏD MƏNSURA

*Hüquq, hüquq, nə gözəl şey, yetişməz isə əlim*
*Mən ölmüş olsam, unutma hüquqa həsrətimi.*
**S. Mənsur**

Mənsur kimi haqdan yapışıb haqq dedi Mənsur,
Həsrət qalıb öz haqqına çox göynədi Mənsur.

Hər mətləbin öz məğzini, öz rəngini gördü,
Ardında küdurət dayanan «eşqə» tüpürdü.

Aldanmadı üzlərdəki kirşanlara Mənsur,
Göz oxşayan, İman çalan «imanlara» Mənsur.

Xalqın o, böyük dərdinə Sabir kimi yandı,
Bir gün doğacaq ulduza qəlbiylə inandı.

Ey namusu şeirində mücəssəm olan insan,
Namusuna, vicdanına, imanına qurban!

Öz xislətin olmuş sənə şeirində təxəllüs,
Mənsur kimi sən dara çəkilsən də, sözün düz!

Mərdlik məqamından kişi tək enmədi ruhun,
Çirkinlərə çirkin dedi, çirklənmədi ruhun.

«Rəngdir»-dedin, hər məqsədə qoyduqsa da bir ad,
Qayən, əməlin haq dedi, rəng olmadı, ustad.

Aldanmadı dost çöhrəli bic düşmənə Mənsur,
Rəhmət sənə, rəhmət sənə, rəhmət sənə, Mənsur.

*Dekabr 1973*

## AT KİŞNƏDİ

At kişnədi...
Qazanxanın, Xançobanın
Qanı dindi damarımda.
Bu kişnərti havalandı
Cingildədi damarımda...
At kişnədi...
Ərənlərin nərəsinə
Əsdi dağlar,
                Coşdu dağlar.
İtil çayın sahilindən
Qaldırıldı alaçıqlar.
At kişnədi...
                «Aynalı»lar daraqlandı.
At kişnədi...
                Tariximiz varaqlandı.
At kişnədi...
                Hirsim mənim, kinim mənim,
                Dağı yardı, daşı dəldi.
Ağzına daş basdırılan
                Bulaqların suyu gəldi.
At kişnədi...
                                qanım coşdu,
Kişiliyim kişiləndi.
Qəzəbimdən yad başına
                                Daş ələndi...
At kişnədi...
Pəncərəni açıb gördüm

Koroğlular, qoç Nəbilər
Daşa dönüb daş olubdur.
Qırat, Dürat
Arabaya qoşulubdur…

*1973*

## SOĞAN
*("Sandıqdan səslər" silsiləsindən)*

Soğan qabığına baxdı,
düşündü.
Başını buladı,
O, mənə döndü,
Dedi: - Sərt olacaq qış, bu il yaman.
Dedim: - nədən bildin?
Dedi: - Qabıqdan.
Qalındır, deməli, sərt olacaq qış.
Təbiət əzəldən müdrik yaranmış.

O ki, nəğməsidir qaydanın, yönün.
Dağı yaratmamış ona yol seçir.
Soğanı soyuqdan qorumaq üçün
Onun paltarını o, qalın biçir.

Əhsən bu paltara, dona, təbiət.
Sən bu səxavətdə nəsən, nəsənmiş?
Ey ana təbiət,
Ana təbiət,
Bilmirdim,
            Necə də rəhimlisənmiş!
Acı soğan kimi bəs, axı, mən də
Övladınam sənin, balanam sənin.
Mən də üşüyürəm.
            Mənə gələndə
Rəhmin harda qaldı, ay anam, sənin?

Ələm çovğununda, qəm tufanında
Soyuqdan əsirəm, axı, mən yetim.
Soğana qıymadın.
            Sənin yanında
Bir soğan qədər də yoxmuş qiymətim?

Nədir bu fikirlər, bu üzüntülər?
Ürəyi bir verdin, əzabı min-min.
Nolardı, mənə də dözümüm qədər
İztirab verəydin, əzab verəydin.

*Sentyabr 1973*

## XƏYAL-XƏYAL

Asanlaşır həyat, hələ varkən xəyal, xəyal.
Ömrün davamıdır, yaşayırkən, xəyal, xəyal.
Dünyaya gəlməmişdən əzəl bir xəyal idim,
Getdimsə dünyadan, olaram mən xəyal, xəyal.

*1973*

## BELƏ QALMAZ
*("Sandıqdan səslər"dən)*

Sabir demiş, «Biz ərlərik»,
İş yerinə
«Özgəsinin sözlərini
əzbərlərik».
Toz-torpağı yel sovurar,
Dənəsi də yelə qalmaz…
Vallah, billah, belə qalmaz,
belə qalmaz!
Bu inamla yaşamışam,
Bizim kimi zəvzəklərin
İgidliyi dözüm olsun,
«Heyvərəlik, boşboğazlıq»
bizim olsun.
Gələcəyin övladları iş görəcək.
Hamı dua əvəzinə «lənət» deyib,
Qəbrimizə tüpürəcək.
Deyəcəklər, ey babalar,
Yaş yetirib kal oldunuz,
Görə-görə kor oldunuz,
Dinə-dinə lal oldunuz.
Səbrinizə heyrətdəyik,
Siz dözümdə fil oldunuz.

Ey nəvələr, nəticələr,
Biz heç nəyik, biz heç nəyik…
Gecə-gündüz babamızın

əməlinə heyrətdəyik.
Heyrət edin sizsə bizim
səbrimizə…
«Lənət» deyib, siz tüpürün qəbrimizə…

Haqqımızı biz qanmadıq.
Biz bu günü yola verib
Gələcəyə inanmadıq!
Keçirdik öz əlimizlə
Boynumuzu biz xaltaya,
Sap olmadıq bir baltaya.
Ac olsaq da, «toxuq» - dedik.
Biz ucadan «bəli» deyə çox bağırdıq,
Qəlbimizdə «yox-yox!» - dedik.

Toz-torpağı yel sovurar,
Dənəsi də yelə qalmaz.
Vallah, billah, belə qalmaz,
Belə qalmaz!

*1974*

## ÖZ «MƏN»İMİN AĞASI

*(Sandıqdan səslər)*

Öz yurdumda, öz evimdə özgəsi,
Oldu mənim gülşənimin ağası.
Ağlar qoydu inamı da sabaha
Bu günümün, dünənimin ağası.

O zamankı ümidimdən barındım,
Bu dövranın çirkabından arındım.
Zülmlərdən nə ağrıdım, nə sındım,
Ola bildim öz «mən»imin ağası.

Daşdan-daşa vurdu məni diləklər,
Qədərimə qəh-qəh çəkdi fələklər.
Öz səmtini dəyişməyən küləklər –
Vətən adlı yelkənimin ağası!

Kotanımı çox sürsəm də xama mən,
Yetişmədim bir müqəddəs kama mən.
Çox çalışdım,
çox vuruşdum,
amma mən
Olammadım Vətənimin ağası.

Ölə-ölə rəzalətin içində
Bərkimişəm məşəqqətin içində.

Bu zülmətin, bu zillətin içində
Olmuşamsa öz «mən»imin ağası,
Olacağam Vətənimin ağası!

*Mart 1974*

*  *  *

Qəlbim nə qədər ağladı sirdaşlarımızla
Səbrin kasası çağladı göz yaşlarımızla…

Sönmüş odu boş qəlbimizin… Yoxsa, öyündük,
Bir böylə qapazdan gic olan başlarımızla?

Biz damğa vurub kam alırıq bir-birimizdən
Öz quşlarımız məhv olur öz daşlarımızla…

Ağlım məni hey səbrə çəkir, «döz» deyir hər gün,
Ünsiyyətə məcbur edir oğraşlarımızla…

Eyvah, bizi düşmənlərimiz yüz yerə bölmüş,
Birləşməliyik, gec-tezi qardaşlarımızla

*Fevral 1974*

## İNAMIMLA

Sənin uzaq görən iti gözün yox,
Amma uzaq vuran tankın, topun var.
Sənin ədalətin, doğru sözün yox,
Haqqdan, həqiqətdən boş-boş gopun var.

Gücünü, zorunu gözə dürtmə çox
Sökən də inamdır, quran da inam.
Bütün ömrüm boyu ciyərimlə yox,
Ancaq inamımla nəfəs almışam.

Demə ki, dəryayam, dərindir təkim
Vallah, quruyursan sən damla-damla.
İnamdır əqidəm, gücüm, məsləkim,
Qələbə mənimdir bu inamımla!

*Avqust 1974, Şəki*

## SUAL – CAVAB!

Ulu zaman!
Sən varmısan, sən yoxmusan?
Yoxdu buna vaqif olan.
Gör necə də gerçək olub uydurulan!
Gün uydurduq, il uydurduq, ay uydurduq.
Özümüzdən yalan-yalan say uydurduq.
Nizam qurduq, ölçü qurduq.
Getmək üçün,
Gəlmək üçün.
Ömürlərin
                    əvvəlini,
                    axırını bilmək üçün.
Bir zamanı uydurduq ki,
Qoy günahkar bu dolanan dünya deyil,
                              zaman olsun.
Qoy həqiqət yalan olsun.
İnsan açıb əllərini dedi: – Zaman,
Niyə sən öz qurduğunu uçurursan?
Xıncır-xıncır üyüdürsən ömürləri
Milyon-milyon ildən bəri.
Bəs axırı harda bitir
                    Bu dövranın, yoxdu bilən.
Üyüdənin hikmətindən
Xəbərsizdir üyüdülən.
Qoca dünya,
Qucağında neçə ömür
Çiçək kimi açıb soldu.

Beşcə çərək torpaq üçün
Qan tökənin, baş kəsənin
Son qisməti iki çərək torpaq oldu.
Sənsə durdun öz əvvəlki məqamında,
Nə böyüdün, nə kiçildin.
İldən - ilə təzələndi
Köhnə cildin.
Qoca dünya,
Bu hakimlik nədir səndə?
Mən ki, səni belə gördüm,
Xəbərsizsən özündən də.
Qoca dünya,
Çox qocasan,
                    ancaq sənin
Qocalıqdan əsərin yox.
Öz işindən, əməlindən
                    xəbərin yox.
Sinən üstə kimi sökür
                        kimi tikir.
Kimi dərdin özünü də
                    dərdləndirir,
Kimi dərdi özü çəkir.
Nə sökənə nifrətin var,
Nə tikənə bir «sağ olun»…
Baş aşağı dolanırsan,
Bir yönün var, bir də yolun.

Mənsiz dünya! Söylə nəsən?
Mən də bir gün gedəcəyəm
Bu yoxluğa, söylə, niyə biganəsən?
Anam dünya!

Etibarın bumu sənin?
Sirri nədir möcüzəli bu pərdənin?
Sanki dünya
Pıçıldadı qulağıma elə bu dəm:
-Gəlişindən nə qazandım,
Gedişindən nə itirəm?
Ölümləri rədd eləyən
Gəlimləri rədd eləyir.
Bu gəlimlər, bu gedimlər
Məni hər gün təzələyir.
Su bir yerdə durmamalı,
Axmalıdır.
Yerdə pöhrə boy atmalı,
Göydə şimşək çaxmalıdır.
Mənim təzə qalmağımçın
Su buluda çevrilməli,
Bulud suya,
Daş torpağa.
İnsanlar da dövr eləyir,
Bulud kimi göyə qalxıb,
Yağış kimi yağa-yağa.

*1975*

## YALAN

Yalan özü qışqırır ki,
-Axı, mənim öz adım var.
Mən yalanam,
Mən yalanam.
Niyə məni başqa adla çağırırlar?
Heç olmasa öz adımla, ünvanımla
İstəmirəm haqqı danam.
Yalan özü qışqırır ki:
-Vallah, billah, mən yalanam!
Ancaq ona bircə nəfər
«Sən yalansan!» - deyən oğul tapılmadı.
Yalan oldu düzün adı.

*May 1976*

## DİZ ÜSTƏ
*("Sandıqdan səslər"dən)*

O, çox əzəmətli, çox qüvvətlidir
Böyükdür,
Nəhəngdir və qüdrətlidir.
Bunu çox eşitdik, çox dedik düzü.
Çox deyib, alçaltdıq öz-özümüzü.
Onun böyüklüyü aydındır bizə.

Bir baxaq,
        Bir görək,
                bilək, biz nəyik?
O, böyük görünür gözlərimizə
Nədən ki, özümüz diz üstündəyik.

Kiçildik, biz ona böyük dedikcə
Yetər bu səcdələr, bu diz çökmələr.
Biz onun önündə iməklədikcə
Əzdi başımızı nallı çəkmələr.

Duraq ayaq üstə!
                        Axı, ərik biz.
Qalxsaq, o kiçilər, böyüyərik biz.

*Avqust 1976, Şəki*

## ÖLÜMLƏ QARŞI-QARŞIYA

Dünən gecə yuxudaykən
Qarşılaşdım ölümlə mən.
Dedim: - Örtün tez qapını,
Pəncərəni,
Qoy tapmasın ölüm məni.
Öz içimdən
baş qaldırıb
qəh-qəh çəkdi,
güldü ölüm.
Mən ağladım zülüm-zülüm.
Ölüm dedi: - Mən sənin öz içindəyəm.
Səninlə bir doğulmuşam.
Havaxt səndən gen olmuşam?
Örtmə qapı-pəncərəni,
Sən ayıra bilərsənmi səndən səni?
Dedim: - Məndən istəyin nə?
Dedi: - Hərdən görünməsəm gözlərinə
Ayılmazsan bu dünyanın xumarından.
Deyirəm ki,
Sən gəlmisən getmək üçün,
Ayıl, insan!
Dedim: - Axı, nə görmüsən
Xəzan kimi bu əsməkdə –
Yaranmışı yox etməyə tələsməkdə?
Nə tikirsən,

Nə qurursan,
Yaşayanı yox eləyib,
Yarananı uçurursan.
Dedi: - Çünki əbədiyyət öz adımdır.
Dağıtmaqsa inadımdır.
Həyat ani,
Ölüm ölməz.
Zamandan da, məkandan da
Qoca olan ölüm bilməz.
Mən olmasam sular axmaz,
alov yaxmaz,
Bulud enməz.
Sular ölər axmazında,
Qoca dünya təzələnməz.
Həyat – ölüm! Bir-birinin
həm ilkidir,
həm də sonu.
Varlığında görməlisən yoxluğunu.
Həyat – ölüm!
Bir-birinin qənimidir.
Dünya özü bir yuxudur,
Yuxu özü varlığında yox kimidir.
Yaranmışın
hədəfi mən,
yönü mənəm!
Zamanın da, məkanın da
Sonu mənəm.
Sonu mənəm!
Mən əbədi soyuqluğam,

Mən heçliyəm,
Mən yoxluğam!
Dedim: - Söylə, heçlik nədir?
Mən heçliyi dərk etmirəm.
Dedi – heçlik ikimizin birliyidir,
Mən ki, səni tərk etmirəm.

*May 1976*

## ÖZGƏ LİMANLARA

İtirib özümü bəzən büsbütün
Tapırdım şirincə yuxularımda.
Bağrına dağ basıb cəllad qorxunun
Deyirdim sözümü yuxularımda.

Yuxumda gürz vuran Koroğluyam mən,
Ayıldım, mələyən bir toğluyam mən.
Qurdun qapısına gələr, mələrəm,
Bir çəngə ot üçün mələr, mələrəm.
Mənə qüvvət verin, mənə güc verin,
Məni babam kimi kişiləşdirin.
Nağıl yuxularım, bal yuxularım,
Çaylardan ümmana yol yuxularım,
Özgə limanlara yol alır daha.
Yoxsa, özüm kimi qocalır daha?!

*İyul 1976*

## QƏZƏB BORCUMUZ

Ağrıdan göylərə dirək oldu ah,
Axır sarsıtdılar iradəmizi.
Yaşamaq əzaba dönüb, ay Allah,
Ya öldür, bu dərddən ya qurtar bizi.

Təzə izlər açdı təzə xəbislər,
Zülmü geydirdilər gündə bir dona.
Səslər gətirdilər, lap yeni səslər
Zülmün Nuhdan qalan əlifbasına.

Arxamız dərədir, önümüz qaya,
Nə öndə sabah var, nə dalda keçmiş.
Deyirəm, yaşamaq – bəlkə dünyaya
Qəzəb borcumuzu ödəmək imiş?!

*İyul 1976 Şəki*

## VAR – YOX

-Getmədin ardınca sən arzu, kamın
Beləysə, dünyadan nədir məramın?
-Qəlbi təmizləmək qərəzdən, kindən.
Gerçəyə tapınmaq, haqqa can atmaq.
Var kimi görünən yoxluq içindən
Yox kimi görünən varlığa çatmaq!

*1977*

# MÜSAVAT

Zülmətlə savaşlarda zəfər çaldığı gündən,
Qəlblərdə azadlıq odu yandırdı Müsavat.
Ulduz və hilal eylə ki, üç rəngə qovuşdu,
Boz qurdu könüllərdə oyandırdı Müsavat.

Meydan oxudu qan çiləyən dövrana qarşı,
Hər zalimə, hər nadana, hər hədyana qarşı,
Tüğyan elədi eyləki zülm insana qarşı,
Öz həddini zalimlərə qandırdı Müsavat.

İlhamını almış o, Vətən adlı gözəldən,
İman suyunu, çünki, o içmişdi düz əldən.
Xalq naminə haqq adlı vuruşlarda əzəldən
Ön cərgədə hər tilsimi sındırdı Müsavat.

Öndər dedi: - İstiqbal üçün dağ aşalım biz,
İstiqlala, istiqbala daim qoşalım biz,
Bir türk kimi islamlaşa, çağdaşlaşalım biz
Amalına bir xalqı inandırdı Müsavat.

Amalı təmiz, məqsədi aydın, üzü ağdır,
Ən ali məramında qərəzlərdən uzaqdır.
Tarix şüuru – xalqımı millət yapacaqdır
Haqdan dönəni haqqa tapındırdı Müsavat.

Düzlük şuarı daima çarpışdı yalanla,
Torpaqdan alıb qüdrəti, kökləndi zamanla.
Cənnət edəcək amala dönmüş bir imanla
Ünvanı Azərbaycan olan yurdu Müsavat.

*Fevral 1977*

## ALLAHU-ƏKBƏR

Allaha ucalan ulu bir yolun
İlkin pilləsidir Allahu-Əkbər.
Haqqı dananların üzünə dəymiş,
Haqqın şilləsidir Allahu-Əkbər.

Göylərin nidası ucalıb yerdən
Daim xilas edir xeyiri şərdən.
Qüdrəti – kamilin minarələrdən
Gələn nəğməsidir Allahu-Əkbər.

Məkana, zamana, dövrə o, soltan!
Odur həqiqətə qapılar açan.
Möminlik yolunda qəlbə nur saçan –
İman şöləsidir Allahu-Əkbər.

Odundan əriyər sinə dağları,
İşığa bürüyər qaranlıqları.
Donmuş ümidləri, batmış haqları
Bir anda isidər Allahu-Əkbər.

Dünyanın əzəli borcludur ona,
O bir pəncərədir əvvəldən sona.
Görünməz dünyanın var olduğuna
İnam müjdəsidir Allahu-Əkbər.

Odur əyriliyə düzün həmləsi –
Rəhmin ilk nidası, axır cümləsi!

Allahın səsidir vicdanın səsi,
Vicdanın səsidir Allahu-Əkbər.

*1977 İstanbul*

## TARİX YADDAŞI

Bizi ayırdılar mənliyimizdən
Millət kökdən qopan bir budaq oldu.
Süzüldü yad səsi öz neyimizdən,
Keçmişin üzünə indim ağ oldu.

Hələ unuduldu Quran da, din də
Keçib gəldiyimiz yollar danıldı.
Əridik özgələr, yadlar içində
Hünərli, zəfərli illər danıldı.

Tarixdir hər daşın, qayanın yaşı,
Tarixlə bağlıdır insan yurduna.
Yox isə bir xalqın tarix yaddaşı,
Vətən də adicə torpaqdır ona.

*Yanvar 1977*

## QAYTARA BİLƏRMİ?

Həkim nüsxə yazır,
                    Çöhrəsi dalğın.
Kağızın o üzü, bu üzü doldu.
Mənim neçə illik əzablarımın,
Ağrımın, acımın çarəsidir bu?

O, öz yazdığına inanır, görən?
İnana biləydim mən də, kaş, ona.
Çəkdinmi dərdimi tərəzilə sən –
Həkim, qiyas oldu hansı daş, ona?

Yaşımı soruşdun, ağrı-acılar
Ölçüldü dünyada hansı yaş ilə?
İnsan əzabını çəkə bildilər
Hansı tərəzilə, hansı daş ilə?

Nə dərdimi bildin, nə dərmanımı,
Bunlar təsəllidir,
Təsəlli yalnız!
Bir ömürlük dərdin ağırlığını
Heç çəkə bilərmi bir parça kağız?

Verdiyin nüsxədə o qüdrət hanı –
Açılsın düyünlər, gümanlar, həkim?
Zamanın insandan aldıqlarını
Qaytara bilərmi dərmanlar, həkim?

Yazım öz dərdimin nüsxəsini mən:
Bir səhər şəfəqi, bir qom yasəmən.
İlk sevgim, ilk görüş, ilk qəsəm, ilk and.
Quşa daş atdığım qarağac sapand.

Xərçəngdən, infarktdan xəbərsizliyim,
Dağlarda çaldığım o qarğı neyim,
Geriyə qayıtsın çilingağacım,
Dinləsin dərdimi öz anam, bacım.

Marxal dərəsində ilk ayaq izim,
Taxçalı, boxçalı komamız bizim,
Şirin nağıllara inamım gəlsin,
Sehrli yollara inamım gəlsin.
Gəlsin, simurq quşun lələyi gəlsin,
Məlik Məhəmmədin biləyi gəlsin.

Hanı mərd əlində sehirli toppuz? –
Vura, zülmün evi uçula dərhal.
Hanı yaddan çıxan o sehirli söz –
Mən deyəm, qapılar açıla dərhal.

Gündə neçə dəfə bu zaman məni
Dərdimlə bərabər udur, ay həkim.
Aldat o nüsxənlə sən özgəsini,
Dərdimin dərmanı budur, ay həkim.

*1978*

## ÇÖLDƏ HAQQ AXTARMA

Hamı çölə baxır,
            könülsüzlüyü
Heç kəs hünər bilməz içinə baxsa.
Hamı çöldən umur haqqı, düzlüyü,
Çöldə haqq axtarma, içində yoxsa.

Adam axtarıram, hamıdan öncə
İçini arasın, özünü görsün.
Hardasa boğulan haqqı görüncə
Haqsızın üstünə qılınc sıyırsın.

Haqsızın səsi gur,
            rəngi də min-min,
Açıqca görürük təntənəsini.
Adam axtarıram, eşidə bilsin
Quyuda boğulan haqqın səsini.

İnsan da ölüdür, vicdan öləndə
Ağlasın, gerçəyi çağırın yasa.
Biz insan deyilik haqq döyüləndə,
Vicdan içimizdə qımıldanmasa.

Hamı çölə baxır,
            könülsüzlüyü
Heç kəs hünər bilməz içinə baxsa.

Hamı çöldən umur haqqı, düzlüyü
Çöldə haqq axtarma, içində yoxsa.

*Yanvar 1978*

## SƏBR ELƏDİK
*(“Sandıqdan səslər” silsiləsindən)*

Açan gündən gözümüzü
Ümidlərin laylasında
Xumar gördük özümüzü.
Arzumuzu vermədilər,
Bizə ancaq döz, dedilər.
Elə bildik, düz dedilər.
Hər gecənin gündüzü var,
Gələcək gündüz, dedilər.
Biz gözlədik.
Qəlbimizdə baş qaldıran
ümidləri əzizlədik.
Hey izlədik,
Uca-uca kürsülərdən
Vəz olunan nitqləri.
Həyatda yox,
qəzetlərdə göstərdilər
bizə yalnız xeyri-şəri.
Şirin-şəkər yalanları yeyə-yeyə
Biz inandıq gələcəyə.
O gəlmədi,
Düz əyildi,
Əyriliklər düzəlmədi.
Arzumuzun əvəzinə
Bizə yenə söz verdilər.
Həqiqəti görməməkçün

Dəyişdirib gözümüzü
Bizə başqa göz verdilər.
Baxıb saxta gözümüzlə
Hamar gördük çuxuru biz.
Saray bildik axuru biz.
Görəmmədik qat bağlayan paxırı biz.
Bu paxırı görənləri,
Xalq yolunda candan keçən ərənləri
«Xalq düşməni» damğasıyla
Ləkələyib məhv etdilər.
Haqq adına haqqı yıxıb sürütdülər.
Bozu ağdan seçənləri
zindanlarda çürütdülər.
Susub dözdük, döz, dedilər.
Sözdən boluq
Söz içində üz, dedilər.
Söz içində üzə-üzə
Səbrimizdən bəzək vurduq ömrümüzə.
Hər cəfaya dözə-dözə
Biz alçaldıq addımbaşı.
Qul etdilər vətənində vətəndaşı,
Ayaq altda palaz oldu ləyaqəti.
Biz ucalıq zənn elədik rəzaləti.
Səbr elədik.
Qara günü ağ söz ilə pərdələdik.
Zənn etməyin,
bədbəxtliyi özümüzə dərd elədik.
«Biz xoşbəxtik, bəxtəvərik» - sözlərini
Şüar kimi dilimizdə vird elədik.
Qırıb qalın meşələri

Pambıq əkdik.
Qanımızdan gülab çəkdik.
Yüz hektarın məhsulunu on hektara,
On nəfərin məhsulunu bir nəfərə
yaza-yaza,
Həm insanı, həm torpağı
Necə verdik biz güdaza.
Meydan verdik ağ yalana,
Həqiqət də tapdalana-tapdalana
Çəkildi dağlar dalına,
Bəlkə... orda daldalana.
Səbr elədik,
Özümüzə cəbr elədik.
Orden, medal yarışında
Dumanladıb beyinləri
DDT-ylə zəhərlədik
Yüz-yüzləri, min-minləri.
Bircə çəngə ağ pambığa
Qurban verdik gənc qızları, gəlinləri.
Bu dünyaya göz açmamış körpələri
Bətndəcə zəhərlədik.
Yaşamadıq, baş girlədik
Yalan-yalan vədləri yeyə-yeyə,
Ümid ilə qarnımızı doyuzdurub,
Biz inamla yenə baxdıq gələcəyə.
Gələcəklər gəlib keçdi,
Ümidimiz doğrulmadı.
Şirin-şəkər yuxular da çin olmadı.
Amma yenə səbr elədik.
Qəlbimizi arzulara qəbr elədik.

Susmağı da qeyrət sandı qeyrətimiz.
Səbrimizin laylasında
 xumarlandı qeyrətimiz.
Bu dözümə,
Bu zülümə
 Heyrətdədir heyrətimiz!

*Sentyabr 1979*

## LAL - KAR
*("Sandıqdan səslər" silsiləsindən)*

*Dil açmada lallıq da gedər, karlığımız da.*
*Çün lallığımız doğmuş idi karlığımızdan.*

**Şəhriyar**

Həm lal olduq, həm də kar
Lallıq karlıqdan doğar.
Niyə lal olduq, görən?
Bunu bilirsənmi sən?
Bunu bilək biz əvvəl,
Ötənlərə baş vuraq
Bunun üçün indi gəl.
Zaman-zaman əzildik
Məhkum olduğumuzu
Nə anladıq, nə bildik.
Bununçün da soydular
Dərimizi qatbaqat.
Haqqımızı kimsədən
istəmədik, ey ustad.
Çünki onu qanmadıq.
Bu miskin halımızdan
Qızarıb utanmadıq.
Bütün dünya oyandı,
Biz hələ oyanmadıq.
Susduq, hər şeyə dözdük.
İçimizdən oyulduq.
Karlıqdan lal olmadıq,
Susduq-deyə lal olduq.

Sabirimiz demişkən:
«Bir əcayib şeyik biz».
Tərs gəlib hər işimiz.
Bizim çaqqalımız da
Gəlir öz dağımızdan.
Bizim karlığımız da,
Bizim lallığımız da
Doğub susmağımızdan.

*İyul 1979, Şəki*

## ALLAHIN ZİDDİ Kİ, YOXDUR

Dedi: - Ağlım ora varmaz, yoxun isbatı da yox.
Görmürəm, görmədiyim bir şeyin heç zatı da yox.

Dedim: - Heç söz də görünmür gözə, lakin can alar,
Onun hökmüylə ürəklər gah enər, gah ucalar.

Hər şey öz ziddi ilə aşkar olurkən binədən
Allahın ziddi ki, yoxdur, görəmməzsən onu sən.

*May 1979*

## ÖMÜRLƏ ÖDƏDİK

Arzuyla imkanın davası bitməz,
Qocaltdı bu cənglər, davalar bizi.
Dalınca qaçdıqca biz arzuların
Vaxt da arxamızca qovalar bizi.

Heç nə arzulama, heç nə istəmə
Elə yox kimidir dünyanın varı.
Dünya gəldi-gedər mənzilmiş, demə
Biz də bu mənzilin kirədarları.

Biz mənzil haqqını ödədik hər il,
Yaşamaq haqqını qazanmaq üçün.
Ancaq bilmədik ki,
                                        pul ilə deyil,
Ömürlə ödədik biz onu hər gün.

*Fevral 1979*

## AYI

-Ata, ayı gəlib məhəlləmizə
Yaman toy tutacaq, deyəsən, bizə.

-Bilirəm, ay oğul,
                    ac ayılardan
Nə desən görmüşəm.
Gözlərəm yenə.
Ancaq bu gəlişi yozma heç zaman
Ayının gücünə, cəsarətinə.
Onun məhlədəki hökmündən, yəqin
Xətər toxunacaq hər zaman bizə.
Dərd budur: Ayını qeyrətimizin
Kəmliyi gətirib məhəlləmizə.

*İyul 1979, Şəki*

## ALUŞTADA ƏMƏTXAN SULTANIN HEYKƏLİ ÖNÜNDƏ
### *("Sandıqdan səslər" silsiləsindən)*

*Müharibə illərində Krım tatarlarını Krımdan sürgün etmiş. Amma cəbhədə böyük qəhrəmanlıq göstərərək, iki dəfə Sovet İttifaqı Qəhrəmanı adı almış tatar oğlu Əmətxan Sultana doğulduğu Aluşta şəhərində heykəl qoymuşlar. Paradoksa baxın! Millətin qovulduğu yerdə həmin millətin oğluna heykəl!*

Əmət Sultan!
De, hardadır indi sənin ana yurdun?
Sən cəbhədə Rusiyanı qoruyurdun.
Həmən ölkə Vətənindən sürgün etdi
millətini,
Tapdaladı namusunu, qeyrətini.
O, üzünə gülə-gülə
Yaxşılığın əvəzini çıxdı belə!
Eşitmişəm, bu təhqirdən
Qəlbin olmuş oyuq-oyuq,
Sənin ana torpağından özünə yox,
Təkcə sənin heykəlinə yer verdilər.
Sənə sənin qan bahanı göstərdilər.
Dəyərinə diqqət elə
Alçaldılan şərəf, şanın!
Vətənində ucaltdılar
heykəlini qəhrəmanın.

Dedilər ki, biz sevirik Əmətxanı.
Demədilər: Bu igidi yetişdirən
millət hanı?
O, göydənmi düşdü yerə?
Atası kim, anası kim? Milləti nə?
O igidin məhəbbəti yox idimi
Vətənindən qovduğunuz millətinə?
Döşünə cüt ulduz taxıb dedilər ki:
«Öz millətin sənə yaddır.
Atan da biz, anan da biz.
Dedilər ki, sən yaxşısan,
Atan da pis, anan da pis...»

Heykələ bax!
Qəzəb yağır baxışından.
Sən dostunla düşmənini
Seçəmmədin, ey Əmətxan!
Sən qəzəblə nə baxırsan qərbə sarı?
Dödnər, döndər sən Şimala
O qəzəbli baxışları.
Qərbdə deyil, qardaş, sənin
Şimaldadır öz düşmənin!
O düşmən ki, torpağına sahib olub
Səni dandı.
«Ayı dağ»da* ayılandı.
Necə deyim «qəhrəmansan»
mən də sənə –
Dostu ilə düşmənini seçməyənə?
Sənin iti nəzərin var.

*Krımda dağ adıdır.

Yaxşı vuran,
Ancaq niyə vurduğunu
Düşünməyən bir ovçuya bənzərin var.
Atəşinə öz ürəyin hədəf oldu,
Şərəfsizlik indi dönüb şərəf oldu.

Heykələ bax! Dayanıbdır əzəmətlə,
Ləyaqətlə
Millətinin şərəfini
                Qoruyan bir igid kimi.
Döşündəki o ulduzlar
Əldən çıxan torpağının əvəzimi?

Əmət Sultan,
Sənə haram elədilər halalını.
Sən tutuşdur heykəldəki qürurunla
Həyatdakı bu halını.
Vallah, billah, yaraşmayır qürur sənə,
Qanan hər kəs gülür sənə!
Kimdir sənin o dünənki qürurunu
                Bir quruşa bu gün alan
Ey Vətəndə daşa dönüb yalqız qalan!
Sən döyüşdün
Düşməninin düşmənilə nahaq yerə.
Döşündəki nişanlardan
Bu gün gərək Vətən boyda
                Dərd göyərə, qəm göyərə!

*Aprel 1980, Krım Aluşta*

## BU DA BİR ÜSULDUR…

Babam sultan idi, atam qul oldu,
Atam yağmalandı, atam soyuldu.
Mən də soyuluram, bir fərqimiz var:
Atam dərk edirdi soyulduğunu,
Səadət bilirəm mən səfeh bunu.

Atamın sərvəti daşındı, yalnız
Möhür vurmadılar təfəkkürünə.
O, öz ağlı ilə düşündü, yalnız
Düşünən olmadı onun yerinə.

Qanımı sordular… Qanmayım deyə
Fikrimə, ağlıma qandal vurdular.
Sərvətim daşındı… üstəlik hələ,
Özümü özümə unutdurdular.

Bu da bir üsuldur, qədimdən qədim
Zalimlər ayırır kökü budaqdan…
Elə səfeh oldum, seçə bilmədim
Zülmü əsarətdən, haqqı nahaqdan.

Mən öz faciəmi səadət bildim,
Toyumda ağladım, yasımda güldüm.
Zülmətə nur dedim, yoxa var dedim,
Ən böyük bədbəxtə bəxtiyar dedim.

Ayıra bilmədim xeyiri şərdən –
Doğrunu əyridən, duzu şəkərdən.

Nə yönüm görünür, nə də sahilim,
Mənə zülm edənə pənahım dedim.
Məni yaradana mənim qatilim,
Amma qatiliмə allahım dedim.

*Fevral 1981*

## BAŞQASININ YASINDA

Dərindir, qorxuludur sakit axan lal sular.
Bir kəlmənin içində bəzən neçə söz yatır.
Adi gözlə görünməz orda yatan duyğular,
Çözələsən, görərsən kül altında köz yatır.

İçimi göstərmədim cahil tutan güzgüyə,
Üzdə gülüb, içimdə müşkülümə ağladım.
Millətimin dərdini ünvanlayıb özgəyə,
Başqasının yasında öz ölümə ağladım.

*Dekabr 1981*

* * *

Alçaqlığı bir qayə sanıb «yüksəlirik» biz
Alçaqlığı, satqınlığı qeyrət bilirik biz.

Qanmazlığımız qanmağımızmış, demə, yarəb,
Qollardakı zəncirləri ziynət bilirik biz.

Yaxşıyla pisin fərqini dərk etmədi nadan,
Bədbəxtliyi, vallahi, səadət bilirik biz.

Biz burda külük, orda cəhənnəm bizə neylər?
Dünyavi cəhənnəmləri cənnət bilirik biz.

Zindanda doğulduq, o qədər zülmə alışdıq,
Məhbusu azad, zülmü ədalət bilirik biz.

Hər zülmə şükürlər deyə zülmətdə süründük,
Məhbusluğu, məhkumluğu qismət bilirik biz.

Sabir o zaman cəhl ilə nadanlığa gülmüş,
Nadanlığı indiysə fərasət bilirik biz.

Alçaqlığı amal götürüb «yüksəlirik» biz,
Alçaqlığı, satqınlığı qeyrət bilirik biz.

*1982*

## HÜSEYN CAVİDƏ

Sənin amalını çəkdilər dara,
İllər gəlib keçdi bir hovur kimi.
Vücudun torpağa dönəndən sonra
Ana torpağına döndün nur kimi.

*1983*

## KİMİN ƏLİLƏ?

Bir eldə neçə yol, neçə inam var
Bu yollar, inamlar güclüdür bizdən.
Vətəni doğrayan, bölən hüdudlar
Düşdü xəritəyə «qeyrətimizdən».

Qeyrət torbasıyıq söhbətdə, sözdə
Axır qanımızdan qanı Babəkin.
Əslində, bölünüb qeyrətimiz də
Bölünən yurdumuz, dilimiz təkin.

Niyə ayaqlara düşdü bir belə
Bu xalqın namusu, şərəfi, yarəb?
Bu bədbəxt millətin –
kimin əlilə,
Harda düyün düşüb kələfi, yarəb?

Girib qınımıza kiçilmişik biz,
Hamımız bir qismət çörək hayında.
Qurtarır ən böyük mübarizəmiz
Yaddan aldığımız tula payında.

Hünər damarımız kəsilib çoxdan,
Seçilmir, vallahi, yatan oyaqdan.

Bu xəstə millətin qızdırmasını
Ölçməyi bacaran termometr yox!
Qorxu – kişiliyin əyləc basanı
Biz öz qorxumuzda dəfn olunmuşuq.

*İyun 1983*

## BƏLKƏ AYILDIM

*Zori Balayanın «Ocağ»ına cavab*

Gah Şərqə, gah Qərbə qol budaq atdıq,
Biz tarix yazmadıq, tarix yaratdıq.
Sizsə özünüzə hey zaman-zaman
Tarix uydurdunuz şərdən, yalandan.
Gerçəyin üzünə boya sürtdünüz
Böhtanı doğru tək gözə dürtdünüz.

Utanmaz üzünlə, Balayan, utan
«Bala»dan yaranmış öz soyadından.
Nədir Ələkçiyan, Dəmirçiyanlar?
Ələyə, dəmirə sən nə deyirsən?
Türkü bəyənməyib sən açıq aşkar
Türkün sərvətini mənimsəyirsən.

Nə tez cığırından çıxıb qudurdun
Dünənki ağanın üzünə durdun.
Çarın hiyləsiylə köçüb İrandan
Bizə sığınmaqçın masqa geydiniz.
Pənah xan Şuşanı tikdirən zaman
Çaydan daş daşıyan qulbeçəydiniz.
Vaxt keçdi, girdiniz başqa bir dona,
Düşdünüz ağalıq iddiasına.
Guya bu torpağın qəsbkarı biz,
Əsl sahibkarı yalnız sizsiniz.

Tarixin dərsləri unudulammaz,
Dünənki nökərdən ağa olammaz.

Saxta dəlillərlə yanan bu «ocaq»
Nifrət çöplərilə qalanıb ancaq.
Geydin astarını sən həqiqətin
Hər kəlmən uydurma, hər cümlən qərəz.
Türkə bəslədiyin kinin, nifrətin
Siqləti çəkiyə, ölçüyə gəlməz.

Düşmən kəsildiniz haqqa, gerçəyə
Əslində olmayan «soyqırım» - deyə.
Bürüdü dünyanı hay-harayınız,
Quyruq bulamaqda yoxdur tayınız.
Sənin «tarixinin» dolanbac yolu
Yalanla, böhtanla, şərlə dopdolu.
Allah, elə bil ki, yaradıb səni
Bizim başımıza bəla, erməni.

Həmişə oyaqsan...
                    sən bu gününə,
Mənsə keçmişimə uydum, bayıldım.
Uydur yalanları, uydur sən yenə
Bəlkə, qəflətimdən bir gün ayıldım.
Mən öz keçmişimlə xumaram hələ
Balayan, sən allah, məni iynələ.
Elə iynələ ki, göynəyən ağrı
Mənə çoxdan çatıb, hamıya çatsın.
Düşünüb sabahı deyirəm barı
Rəhbərlər oyanıb xalqı oyatsın.

*Dekabr 1984*

## BİR ULU MƏZAR

*Xalqa milli azadlığın nə*
*olduğunu başa saldıq.*
**M.Ə.Rəsulzadə**

Gəldim ziyarətə bir ulu qəbri,
Arzumla, fikrimlə, dopdolu qəbri.
Kimdir burda yatan?
-Şanlı dünənim.
Məkkəmin içində Məkkəmdir mənim.

Bu ulu məzara Məkkəmdir – dedim.
Mən ondan bir ovuc torpaq götürdüm.
Bu ulu məzarı məzar bilmədim,
Yatanın böyüklük haqqını gördüm.

Mənimçün bu məzar bir məzar deyil,
Dünənki qüdrətim, fərasətimdir.
İki il yaşayan, yalnız iki il –
Qundaqda boğulan hürriyyətimdir.

Dəydi bir-birinə əvvəl də, son da
Yatır bu məzarda eşqim, vicdanım.
Qədim Türk elinin ana qoynunda
Yatır bəxti yatan Azərbaycanım.
Yatır bu məzarda, qeyrətim, yatır,
Dünənki şərəfim, şöhrətim yatır.

Yatır millətimin öz ilkin adı,
«Mən də varam» - deyən səsi, fəryadı.

Yatır səadətim, yatır bayrağım,
Yatır qənimimə mənim göz dağım.
Yatır öz keçmişim, yatır səhərim,
İyirmidən bu yana itirdiklərim.

Atam, azadlığın nə olduğunu –
Onun ləzzətini dərk etdi xalqım.
Sabah, ya biri gün, bilirəm bunu,
Yenə qalxacaqdır enən bayrağım.

Qəbrindən aldığım tütyə torpağı
Sənin qaldırdığın şanlı bayrağın
Dibinə qürurla tökəcəyəm mən.
Orda gələcəyi əkəcəyəm mən.

*Oktyabr 1987, Ankara*

* * *

Şərin əliylə ölən, xeyrin xeyirxahlığın
Sığalıyla dirildi.
Yüz il yatmış gözəli bir nəvaziş, bir öpüş
Dərhal oyada bildi.

*1989*

## ZİNDANDA ŞEİR
**(*Kiçik poema*)**

*Həbsxanada şeir yazdığına görə*
*H.Cavidin cəzasını 5 il də artırdılar.*
**Turan Cavidə yazılan bir məktubdan**

**1**

-Sən qanunu pozmusan –
Deyə onun cəzası
Beş il də artırıldı.
Şeir yazmaq günahmış.
Qəfəsdəki qartalın
Qanadları qırıldı.

Onun gözü tutuldu
Deməyin ki, kor oldu.
O gördü daha aydın,
Daha dərin, daha düz.
Ümidinin gözüylə,
İnamının gözüylə
O gördü,
zülmlərlə
Dayananda üzbəüz.

Şair gözsüz də yaşar
Gecə gündüzdür ona.
Qəlbi, hissi, duyğusu,

İdrakı gözdür ona.
Gözlü ikən kor olan,
Anasının südünə,
Vətəninin adına,
Tüpürən, nankor olan,
Özünü alçaq görüb
Özgəsinə vurulan,
Yalanlara əl çalıb
Həqiqətə kar olan,
Dal çevirən, göz yuman,
Haqqını cirə-cirə
Yad qapısından uman,
Dilənçi paylarını
Böyük səxavət bilən,
Babasının önündə
Əyilmiş qul önündə
Özü qul tək əyilən,
Bağırovlar gözünə
Bir yox, on çeşmək taxa,
Dağın başına çıxa,
Cavidin gördüyünü
Görə bilərmi? Əsla!
Görən göz yox, ürəkdir
Göz duyğuda gərəkdir
Göz idrakda gərəkdir.

Günahı nəydi onun
Cəzasının üstünə
Beş il də artırdılar?
O, qəfəsdə ötübmüş
Bundan böyük günah var?

Şeir – işıq, şeirdən
Nura boyandı zindan.
Bəs qorxmasın neyləsin
Yarasa bu işıqdan?

Bəs həbsinin səbəbi
Nə imiş?
Bildi hamı:
Həqiqəti yalana
Dəyişmədi ilhamı.
Xərabəni mədh edən
Bayquşa o, « kəs!» dedi,
İçində çırpındığı
Məhbəsə məhbəs dedi.

Günahı ondaydı ki,
O, zülmə əyilmədi.
Ağa doğulmuşdu o
Nökər ola bilmədi.

Günahı ondaydı ki,
O, qula qul olmadı.
Millətinə oğuldu
Yada oğul olmadı.

Gözləri bu günə yox,
Sabaha dikilirdi.
Onu yirmidən bəri
Günahkar bilənləri
O, günahkar bilirdi.

O, haqqını çeynəyən
Əsarətə «get» dedi.
Millətinin düşdüyü

Qəfəsə lənət dedi.
Bizim zəmanəmizdə
Nə qədər istəsən bax
Görmə, görmə sən ancaq.

Gözlülər baxdı, fəqət
Görmədi,
haqqa hürdü
Cavid isə hər şeyi
Gözsüz belə görürdü.
Dedi: Yox, istəmirəm
Qan üstündə qurulan
Bu yeni dövranı mən,
Təzə düzəltdiyiniz
Şərəfi mən, şanı mən.

Şərəf ordenlərini
İstəmirəm,
mənim öz
Şərəfim var, şanım var,
Namusum, vicdanım var.
Mənə bəzək
Nə gərək!

**2**

Azad olmaq istədim
Vəzndən, qafiyədən
Burda mən.
Cavidin də ən böyük
Arzusu - qibləgahı
Azadlıq deyildimi?

Ah azadlıq, azadlıq
Sənin gözəlliyini
Sənə qılınc çəkənlər
Görən bunu bildimi?

Qırılmasın neyləsin
Vəznim də,
Sözlərim də…
İndi Cavidin özü
Olsa mənim yerimdə
Hecanı da sındırar,
Əruzu da sındırar.
Qırılan qəlbi kimi,
Qafiyəni də qırar.

Vəzn – ölçü,
Qafiyə – ahəng
Cavidin keçirdiyi
İztirabın, əzabın
Ölçüsü oldumu ki,
Burda mənim vəznimin,
Sözümün də ölçüsü,
Ahəngi olsun, Allah?..
Vəznimi sındıranın,
Ürəyimi qıranın,
Səsi tutulsun, Allah,
Demək istədikləri
Qəlbində qalsın, Allah.
Mənim kimi naləsi
Ərşə ucalsın, Allah!..
Cavidin əzabını,
Dərdini yazanda mən

Söz cırdı köynəyini,
Söz atdı örpəyini.
Daş kimi çılpaq oldu.
Söz üzümə ağ oldu.
Daş kimi şaqqıldayıb
Söz bir-birinə dəydi,
Sözlər başını əydi
Bu kədərin önündə,
Bu matəmin önündə,
Dərdin, qəmin önündə...

Söz ölçüyə gəlməyir
Söz sözlüyündən çıxır.
Söz özlüyündən çıxır,
Söz əsəbə çevrilir,
Söz qəzəbə çevrilir.

Dərdimə dünya susur
Qəzəbim dağdan ağır!
Yay günündə
                    könlümə
Sibirin qarı yağır.

«Yüklənən əzilir» -
Deyən bir sənətkarı
Arabaya qoşdular
İçinə doluşdular.
Onun öz yükü vardı,
Onun söz yükü vardı.
Daş yükünü çəkməyin
Elə bilmə rənci var.

Daş yükü qəm yükündən
Min kərə yüngül olar.
O, söz arabısında
Çox daşıyıb qəm yükü.
Qəm yükü
Ələm yükü…
Daş yükü ağır olmaz
Qəm yükünü çəkənə,
        sabaha göz dikənə.
Çiynimizdə iz açmış
Məhkumluğun qırbacı,
həyat zəhərdən acı!
Hey çəkirik bu yükü
Çəkəcəyik biz hələ…

Çox zarıma, a millət,
Çox dözmüsən, döz hələ.
Hələ çox illər əvvəl.
Məmmədəmin sel kimi
Haray çəkdi çağladı...
Bax, bu günə ağladı.

Onun haray səsinə
Səs vermədi millətim,
   çəkdiyi bu zillətə
«Şükür» dedi millətim.

Məmmədəmin,
            ay atam,
İki il azadlığı
Daddırdın millətinə.

Bu gün mənim dilimlə
Xalq deyir «rəhmət!» – sənə.

**3**

O, şeir yazdığıyçün,
Cəza verdilər ona.
Dedilər, sən nə haqla
Zidd getmisən qanuna?

Qanun!
Yüz əlli ildir
«Qanun» - deyə
qanunsuz
Məni əsir etdilər,
Düşünən başlarımı,
Duyan ürəklərimi
Sibirdə çürütdülər.
«Qanun», çürütmədimi
Zakiri də Sibirdə?
«Qanun» - deyə qoydular
Bizi lüt, quru yerdə…

Zindanlarda çürüyüb
Zakir, üsyan eylədi
Qulluğa,
Köləliyə…
«Ah, gündə bir zakonu
görən canımız!..» - deyə.

Mən bunları bilirəm
Bunu bilmirəm ancaq:

Bu gedişlə, görəsən,
Sonumuz nə olacaq?
Qəlbimi göynədirkən
Millətimin çəkdiyi
Bu dərd, bu qəm, bu sitəm
Hara aparır məni
Əlimdəki bu qələm?
Qara rəngin üstünə
Ağ boyamı çəkim mən?
Yoxsa, Cavidlər kimi
Dönməyim tapındığım
Böyük həqiqətimdən?
Bu yerdə olum-ölüm
Ayrıcında dayandım
Haqq verirkən oluma
Özüm özümü dandım.
Ölüm-zülmün təsdiqi,
Olum-haqqın inkarı
Mən hansını götürüm?
Allah, tərsinə döndər
Sən bu əsən rüzgarı…

Yazmışdım «Gülüstan»ı*
hələ altı il əvvəl
Bu yol Cavid yoluydu.
Bəla açdı başıma
Yeddi başlı ilanla
Məni üz-üzə qoydu.

---

*1959-cu ildə yazıb "Şəki fəhləsi" qəzetində dərc etdirdiyim "Gülüstan"a görə əzablara düçar olduğuma işarədir.

Mənim həqiqətimi
O vaxt əjdaha bildi,
Həbsimə qol çəkildi.
Haqla nahaq üz-üzə!
Gah onu dindirmişəm,
Gah bunu dindirmişəm.
Gah ona haqq vermişəm,
Gah buna haqq vermişəm.

Dedim: - Bir yol tapmalı
Olum-ölüm tən olsun.
Həm xanımın dediyi,
Həm də xan deyən olsun.

Bu yolda əsarətə
İpək sapla tor hörmək,
Zülm əjdahasının
Gözünə kül üfürmək.

Dedim, bu zəmanədə
Ən doğru yoldur bu yol.
İlahi, sən bu yolda
Özün mənə kömək ol.

Tutuşdurdum içimdə
Çarpazlaşan yolları.
Sonra qələmə aldım
«Yollar və oğullar»ı*.

---

*1964-cü ildə Əlcəzairdə gedən azadlıq mübarizəsi mövzusunda yazıb öz milli dərdimizi, istiqlal arzumuzu dilə gətirdiyim poema.

Ucuzca bir qiymətə
Dəyişdirdim bahanı
Mən yolumu azmadım
Gözünə kül üfürüb
Azdırdım əjdahanı.

4

Hansı qanunda var ki,
Məhkəməsiz, qərarsız
Bir qocaman millətə
Dar ağacı qurulsun?
Hansı qanunda var ki,
Çağrılmamış qonaqlar
Evin sahibi olsun?

Hansı qanunda var ki,
Dəyişələr millətin
ruhunu, fitrətini?
«Səadətindir» - deyə
Zorla yedizdirələr
Ona əsarətini?..

Hansı qanunda var ki,
Xalqın ləyaqətini
Ayaqlara atasan,
«İndi xoşbəxtsən» - deyə
Əl çalıb oynadasan?
Sibirdə ən müqəddəs
Arzu, diləklər yatır,

Böyük ürəklər yatır,
Azadlıqçın canından
Keçən igidlər yatır,
Arzu, ümidlər yatır.
Kim deyir onlar yatır?
Onlar torpağın altda
Şaxələnir, boy atır…

Onlar bir gün qalxacaq,
O üfüqdə ağaran
Dan yerinə yaxşı bax!
Göyərəcək ümidlər.
Altaylardan baş alıb
Avropada dayanan
Dəbilqəli igidlər,
Mete,
Teymur,
Oğuz xan
Nə tez çıxdı yadından?..

*Dekabr 1965*

## VƏTƏNDAŞLIQ VƏSİQƏM
*(kiçik poema)*

Əcnəbi məmləkətə
Bizim gəmi yan aldı.
Məni həyəcan aldı
Oxuyunca öndəki
Binanın üstündəki
Yazını…
Bu ölkədə
Gözümə ilk dəyən şey
Həmin bu yazı oldu,
Mənim yanan sinəmə
Elə bil buz qoyuldu.
Dönə-dönə oxudum
  Dönə-dönə mən onu.
O nədir ki?
  Sən də, gəl,
Oxu: «Yolçu salonu».

Duman qalxır başımdan,
  Od püskürür dilimdən.
Bu doğma kəlmələri
İçmək istəyirəm mən
Yayın isti çağında,
Səhralar qucağında,
Dodaqları çatlayan
Ümidsiz yolçu kimi.

Arzumsa əl çatmayan
Bir qayanın başından
Axır, axır su kimi…
Aman allah!.. bu nədir?
İşə bax… hər şey mənim
öz ana dilimdədir,
«Əcnəbi məmləkətdə»

Necə udum, necə mən
Bu həsrəti, bu qəmi?
Öz doğma vətənimdən
Sürgün olmuş öz dilim
«Əcnəbi ölkəyəmi?»

Gəmidən yerə düşdüm,
İlk dəfə
neçə illik
həsrətimlə öpüşdüm.
«Oxqay?» deyib dərindən
Mən bu boyda şəhəri
Sanki basdım bağrıma.
Aldığım hər nəfəsi
Məlhəm bildim ağrıma.

Hər kirpiyim göz oldu,
Hər tüküm də bir qulaq.
Bütün əzalarımla
Onu görmək istədim.
«Bu ölkə başdan-başa
Həm də «mənimdir» dedim.
Mənim arzum, istəyim

Kimsəyə sezilmədi.
Məni güdənlər belə
Bunu sezə bilmədi.
Onlar adi göz ilə
Görə bilməzdi bunu.
Kim gözlə görə bilmiş
Özgənin duyğusunu?
Mənə elə gəlir ki,
Quşlar da səhər-səhər,
Bu həsrət könlüm qədər
incəldib öz səsini
Mənim ana dilimdə
oxuyur nəğməsini
«əcnəbi məmləkətdə».

Baxıram məlul-məlul
yoldan ötənlərə mən,
Süzürəm hər birini
yüz kərə, min kərə mən.
Onlar nə bilsin mənim
ürəyimdən keçəni.
Onlar gavurmu sanıb,
nifrətlə süzür məni?
Onlar mənə baxırlar
Düşmənə baxan kimi,
Mən onlara baxıram
can içində can kimi.
Mən onlarla danışmaq,
Dərdləşmək istəyirəm.
Amma məni izləyən
Gədalardan qorxaraq,

Taleyə baş əyirəm.
İşə bax! Ömrüm boyu
Mən quruya yaş dedim,
İt yalına aş dedim.
Qardaşıma əcnəbi,
Gəlməyə qardaş dedim
Öz doğma vətənimdə.

«Bir sovqat alaq» - deyə
Banka getdim, dolları
Dəyişməkçün lirəyə.
Gözlərimlə yeyirdim
Gördüyüm ilk türkü mən.
Bundan başqa bu anda
Nə gələrdi əlimdən?
Dollarımı uzatdım
Heç üzümə baxmadan
Mənə qəbz də verdi
Qarabuğdayı oğlan.

İçimdəki tufanı
Heç oxuya bilmədi
Mənim baxışlarımdan
Bu qarayanız oğlan.
Boylanıb qəlbimdəki
Öz çəkimdən çox ağır
dərdə, çiləyə baxdım.
Gah əlimdəki qəbzə,
gah da lirəyə baxdım.
Ciləm, dərdim axırdı
Mənim həsrət gözümdən

Dönə-dönə oxudum
Əlimdəki qəbzi mən:
«Dənizçilik bankası»
«Mərkəzi müdirliyi»
«Banka pulu on quruş».
Anamın dilindədi
Əlimdəki bu cansız,
Bu adicə sənəd də.
«Əcnəbi məmləkətdə».

Möhürdəki yazı da
    Mənim öz dilimdədir.
Avtobusa minmişəm
    bu cansız, quru kağız
    yenə də əlimdədir.
Adi kağız parçası
    Alışan bir ürəyi
    Sərinlədə bilərmiş.
Demə, mənim dilim də
    Bu dünyada nəyisə
    təsdiq edə bilərmiş,
    inkar edə bilərmiş.
Sən ey mənə bənzəyən
    Qarabuğdayı oğlan,
    cızma-qara etdiyin
    bir parça kağızla sən,
Xəbərsizsən dünyanı
    mənə bəxş etdiyindən.
Vallah, qürbət adlanan
Bu yurd, bu vətən mənim.
Əlimdəki qəbz də

Vətəndaşlıq vəsiqəm
oldu bu gündən mənim.
Ay mənim kimliyimi
Mənə bildirən dilim,
Vətəndə qürbətləşən
Qürbətdə vətən dilim.
Öləndə də bu kağız
qəbrim üstə qoyulsun,
Bu adı bank kağızı
məndən balalarıma
ən gözəl miras olsun!
Aman allah! Nə dedim?!
Arzuya bax, sözə bax!
Mənim balalarım da
Doğma ana dilinə
Məgər həsrət qalacaq?..

*Fevral 1961, İstanbul*





# ƏLVAN ÇIÇƏKLƏR

*Gəldiyim dünyanı anlamadım mən,*
*Nə gecəm bəllidir, nə də gündüzüm.*
*Dünyanı apaydın görən gözümdən*
*Daha yaxşı görür bəsirət gözüm.*
*O gözlə baxanda ucalır ürək,*
*Duyğum gözə dönür, gözüm duyğuya.*



## QƏRİBƏLİKLƏR

İçimdə nə qədər söz güləşməsi,
Özümün özümlə kəlləkləşməsi.
Bir anda hirsimin atına minmək,
Hardasa, kiməsə birdən təpinmək.

Sözümü toz kimi göyə sovurmaq,
Birinin məqsədli nadanlığını
Qırmızı-qırmızı üzünə vurmaq.
Nəzakət haqqını tapdayıb aşmaq,
Bircə an keçdimi, sonra barışmaq.

Üzümə deyilən ağ yalanlara
Bəs demək yerinə qulaq da asmaq.
Özünü kiçildib ucalanlara
Dözmək, hiyləsinə, fəndinə susmaq
Boynuma alım ki, olub məndə də.

Bəzən çəkinmişəm söz savaşından
Haqlı olduğumu mən biləndə də.
İki yol qarşımda durub yan-yana,
Elə şeylər keçib hərdən könüldən,
Özgəyə deməyim dursun bir yana,
Özümə deməkdən çəkinmişəm mən.

Bəzən ayırmıram vardan yoxumu,
Nə isə duyuram... nə duyduğumu

Qorxuram ələyib çözələməkdən,
Qorxuram özümə faş eləməkdən.

Bəzən qüsurlarım girir yuxuma,
Kiminsə qəlbinə toxunduğuma.
Sonradan ayılıb peşmanlıq çəkən
Ağlıma, könlümə məəttələm mən.

Biri danışanda mənə dərdini,
Özümü qoyuram onun yerinə.
Bu dünya öldürüb-dirildir məni,
Dayaq olmayanda özgələrinə.

Könlümdə səslənən uğultuları
Qulaq eşitsə də, mən anlamıram.
Sirri məndən ötən bu duyğuları
Məğzinə varsam da yamanlamıram.
Qəflətən könlümə bir işıq düşür,
Qəflətən sıxılıb tutulur ürək.
Bir anın içində pərişan olur,
Bir anın içində şad olur ürək.
Özümü özümdən alıb nə qədər
Başa düşmədiyim qəribəliklər.

Gəldiyim dünyanı anlamadım mən,
Nə gecəm bəllidir, nə də gündüzüm.
Dünyanı apaydın görən gözümdən
Daha yaxşı görür bəsirət gözüm.
O gözlə baxanda ucalır ürək,
Duyğum gözə dönür, gözüm duyğuya.

O gözlə baxanda əsəb teli tək
Gərilib dönürəm özüm duyğuya.
Görünən dünyadan daha çox, dərin,
Görünür gözümlə görmədiklərim.

*Noyabr 2000*

## AĞRI ÇOXALDIQCA

Elə dərdlər ilə könlüm üzləşir,
Özünü itirib, cürətsizləşir.
Çəkdiyi dərdlərin ağırlığından
Həm fəryad qoparır, həm də süstləşir.

Parçalanmış onun mənliyi,
Şzü də bilmədən qüruru sınmış.
Əcdaddan boylanan xan ərənliyi
Zamanın hökmüylə gördük, aşınmış.

Kim yazdı bunları onun alnına?
Ağ ilə qaranın fərqini bilmir.
İnsanlıq haqları qalsın bir yana,
Yaşamaq haqqı da ona verilmir.

Haqsızlıq o qədər bezdirib onu,
Bilmir o, haqqın da nə olduğunu.
Yaxşılıq axtarır o, yamanda da,
O, “vara” inanır, bilmir “yox” nədir.

Birindən səsinə hay umanda da
O, bilmir üzdəki soyuqluq nədir?
Bilmir hardan dəyir çiyninə şallaq,
Üzünə şapalaq, başına toppuz.

Onun qismətini yeyir bir alçaq,
O isə alışır odsuz, alovsuz.

Əzab güc gəldikcə, dərd ögeyləşir,
İztirab ürəyi incitmir daha.

Ağrı çoxaldıqca, bədən keyləşir,
Yazıq, ağrısını hiss etmir daha.
Artıq taleyinə biganələşmiş,
Bu gor əzabını o gordan bilir.

Vaxtın çamuruna elə bələşmiş,
Bu günə düşməyi çamurdan bilir.
Döydüyü qapılar üzünə bağlı,
Biləmmir neyləsin o sinədağlı.

Əskiklər önündə susub əskilir,
Başına gələni qəzadan bilir.

Onu bu quyuya salanı görmür,
Quyunun dibini günahkar sayır.
Yalanı eşitmir, yalanı görmür,
Zavallı, özünü kor və kar sayır.

Elə məğmunlaşıb, unudub kini,
Mütilik həddini o, qıra bilmir.
Dili topuq çalır, qəlbindəkini
Məqam sahibinə çatdıra bilmir.

Ona bir özgədir elə bil hamı,
Baxır döyülənə, döyənə gendən.
Elə bil dünənki meydan qiyamı
Biryolluq silinib hafizəsindən.

Bilmir, dünya yetim, omu yetimdir?
Bilmir dostu kimdir, düşməni kimdir.

Əlləri büsbütün üzülüb yerdən,
Üz-üzə dayanan bu cəbhələrdən
Bilmir ona, yoxsa, buna inansın,
Hansını özünə havadar sansın?
Bilmir, müxalif nə, iqtidar nədir,
Ona da, buna da o, biganədir.

Əzab güc gəldikcə dərd ögeyləşir,
İztirab ürəyi incitmir daha.
Ağrı çoxaldıqca bədən keyləşir,
Yazıq, ağrısını hiss etmir daha.

*İyul 2000*

## MƏRAM

### 1

Üzümüz dönmədi vahid qibləyə,
Niyə düyünümüz açılmır, niyə?
Əksinə, çoxaldı hər gün dərdimiz,
Bu gün beş dərdimiz sabah on oldu.
Səpməyə toxumluq axtarırıq biz,
Amma erməninin dəni un oldu.

Çayı keçmək üçün çırmanınca biz,
Erməni keçibmiş çayı bayaqdan.
Yastı bir təpəni dırmanınca biz,
Erməni burnunu göstərdi dağdan.

Heç bir iş görmədən, havayı, yersiz,
Hində xoruzlanmaq adətdi bizdə.
Bazara baş çəkib at seçincə biz,
Erməni at çapır eşiyimizdə.

Bizimki gətirmir, vallah, bu dövran
Elə bil işləyir əleyhimizə.
Biz kürt basdırırıq, yumurtamızdan
Erməni cücəsi boylanır bizə.

BMT kürsüsü Ucadan uca,
Birini qaldırır, birini qırır.
Biz öz haqqımızı başa salınca,
Erməni zoruna haqq qazandırır.

Sonradan seçirik dostdan düşməni,
Ağlımız yuxuda, gözümüz bağlı.
– Kaş, mənim olaydı, – dedi erməni –
Bədbəxt müsəlmanın sonrakı ağlı.

Niyə bu kəlamdan biz məmnun olduq?
Oyanmaq – yatmağın ziddi, tərsidir.
Sonradan oyanan ağıl, ağıl yox,
Dünyanın verdiyi həyat dərsidir.

**2**

Bir yol var: o yolu biz keçməyincə,
Köhnə qanımızı dəyişməyincə,
Nağıla uymağı unutmayınca,
Vaxtın sükanını bərk tutmayınca,
Zaman axarını, vaxt axarını
Axan qanımıza biz qatmayınca,
Vaxtilə hər şeyə qadir millətin,

Bu ulu millətin, nadir millətin
Zəlil durumuna can yanmayınca,
Bu miskin halından utanmayınca
Tarix ruhumuzu utandıracaq.
Gələcək nəsillər bizə yad kimi
Məhkəmə quracaq, divan quracaq,
Nəvə babasına damğa vuracaq.

Verib yurdumuzu çirkin əllərə,
Bir ovuc vətəni məhəllələrə
Bölüb, kiçiltməyi tərgitməyincə,

Köhnə vərdişləri tərk etməyincə,
Ucalıq taxtından enən millətin,
Bu gün dilənçiyə dönən millətin
Şərəfi, şöhrəti, ulu mənliyi,
Kimliyi, qüruru, bəy ərənliyi
Yenidən özünə qayıtmayınca,
Dilindən, dinindən, özündən dönən,
Əhdə vəfasından, sözündən dönən
Yaltaq tüfeylilər faş olmayınca,
Zibil qutusuna atılmayınca,
Vallahi, dünyamız düzələn deyil.
Arzu etdiyimiz gün gələn deyil

**3**

Dollar qabağında diz çökənlərin,
Qaçqının payına göz dikənlərin
O həris gözləri ovulmayınca,
Yalanlar gerçəyə ov olmayınca,
Yalnız özümüzə güvənməyincə,
Dostun xoş gününə sevinməyincə,
Lap yeri gələrsə, min bir hiyləni
Tülkü ermənidən öyrənməyincə,
Özünü danandan iyrənməyincə,
Bizə tor atana tor atmayınca,
Zəlzələ qoparıb, öz-özümüzü
Dirçəldib, təzədən yaratmayınca
Əsrin əjdahası udacaq bizi,
Heçə döndərəcək mənliyimizi.

*Avqust 2000*

## AÇILMIR DÜYÜN

Günahsız doğulduq, amma illəri
Yaşa calayırıq dərd çəkə-çəkə.
Günahkar dünyaya Adəmdən bəri
Günah qazanmağa gəlirik bəlkə...

Bu gərdiş puç etdi xəyallarımı,
Dünya bir sifətli, insan min üzlü.
İçimi gəmirən suallarımı
Özümə verirəm özümdən gizli.

Yazıram, pozuram, açılmır düyün,
Böhtan da atıram bəzən dövrana.
Özümdən soruram :– Sən kimsən bu gün?
Yalnız gördüyünü göstərən ayna.

Nə böyük hünərdir bezib yalandan
Haqqın libasında zoru görməyin?
Görə bilməyinlə öyünmə, dayan,
Nə görməyin hünər, nə göstərməyin.

Yazdın gördüyünü sən birər-birər,
Bu yaxşı, bu yaman, bu kal, bu dəymiş.
Hünərin var isə sən bizə göstər
Yaxşının, ya pisin səbəbi nəymiş?

*İyul 2000*

## CİSM DEYİL, RUHAM MƏN

İtirirəm özümü xoş dəmlərin içində,
Mən tapıram özümü ələmlərin içində.
Qarğa qoz ağacında «qa-qa» deyib sevinir
Budaqdakı yeminə.
Bülbülsə cəh-cəh vurub ahəng tutur içində
Nalə çəkən qəminə.
Halım, günüm, ovqatım dəyişdikcə dəmbədəm,
Dəm çəkəndə qarğayam, qəm çəkəndə bülbüləm.
Bülbülün öz cəhcəhi, qarğanın «qa-qa» səsi
Qəm çəkəndə özüməm, dəm çəkəndə özgəsi.

Min ildir, milyon ildir
Qəm ürəyi ucaldır, dəm ürəyi kiçildir.
Siz ey mənim dərdlərim, qəmlərim, fikirlərim,
Ey məni mənləşdirən mənim könül sirlərim.
Məndən uzaqlaşmayın,
Dolun, amma daşmayın.
Siz mənim ruhumsunuz, axı, sizsiz nəyəm mən?
Sizdəyəm, sizdəyəm mən.
Gəlin, yalnız sizinlə təpədən dırnağadək
Duyan bir ürəyəm mən,
Kədərəm mən, aham mən.
Dünya əzablarına fitrətimdən şaham mən.
Cism deyil, ruham mən.

*Oktyabr 2000*

## SƏNİ DƏRK ETMƏYƏ

*Dəyanətli dost M.İsmayılzadəyə*

Bir tərəf beşikdir, bir tərəf məzar,
Arada ömrümün yolu... bir də mən.
Məzardan o yana bilmirik nə var,
Məzardan bu yanı taledir bilən.

Gələnin, gedənin bu təmənnaya
Öncə öz ricası, öz rizası yox.
Gələnin, gedənin iki dünyaya
Dünyaya gəlməmiş iddiası yox.

Gəlirik, gedirik, nə hüdud, nə hədd,
Gəlirik nə üçün, niyə bilmədən.
Nə imiş ən ali, ən uca məqsəd
Yoxluqdan varlığa gətirilmədən?

Sınaqmı? İlahi, keç günahımdan.
Sən qüdrət sahibi, mən sənin qulun.
Gəlirik, gedirik biz zaman-zaman,
Bəs sonu yoxmudur bu sonsuz yolun?

Görmək istəyərkən görünməyəni,
Dilədim ağlıma uğur, ilahi.
Özümə verdiyim suallar, səni
Dərk etmək arzumdan doğur, ilahi.

*Noyabr 2000*

## OĞUL İSTƏYİRƏM

Vətənin eşqinə alışıb yandıq,
Kim «Vətən» dedisə, ona inandıq.
Sandıq ki, danışır Vətənin özü,
Sandıq ki, qəlbindən qara qan gəlir.
Bilmədik bu Vətən, bu millət sözü
Ürəkdən, yoxsa ki, boğazdan gəlir.
Elə ki, puç olur ümidlərimiz,
Onda anlayırıq, aldanmışıq biz.

Sözün də üzündə bir qara pərdə,
Ağızlar açılı, ürəklər bağlı.
Anlaya bilmirik, bu çək-çevirdə
«Hə» deyən haqlıdır, «yox» deyən haqlı?
Tərəflər, cəbhələr artır ilbəil,
Tərəflər şər atır tərəfsizlərə.
İqtidar, müxalif İki yol deyil,
Hər yol da bölünür on, on beş yerə.

Oğul istəyirəm, bu tərəfləri
Tək bircə tərəfə yönəldə ancaq.
Çıxarıb dillərdən boş-boş lafları,
Bir cəbhə yarada əməldə ancaq.

Oğul istəyirəm, xalqa əyilə,
Haqqa könül verə, qaça yalandan.
Oğul istəyirəm, çıxarda bilə
Xalqı dirəndiyi bu dar dalandan.

Oğul istəyirəm, şərafət bilə
Xalqın şərəfini, ləyaqətini.
Özünə ən böyük səadət bilə
Bu müdrik millətin səadətini.
Oğul istəyirəm, «məqsədim» deyə
Kürsünü özünə amal bilməyə.

*Mart 2000*

## ÇAL, ÇAL Kİ...

Habil, kamanın arzuma yol, dərdimə dərman.
Çal, çal, qoy işıq telləri axsın kamanından.
Çal, çal ki, könül zülmətimin ömrü gödəlsin,
Səslər kamanından süzülüb səcdənə gəlsin.
Çal, bağrı yanıq, qupquru çöllər də sulansın,
Çal, çal ki, bu dövran da məramımca dolansın.
Dünyaya baxım könlümün öz pəncərəsindən,
İstəklərimi barı xəyalımda görüm mən.
Çal, çal bu Vətən mülkü yenə nura bürünsün,
Bir anlığa yoxsul obalar cənnətə dönsün.

*İyul 2000*

## SİZ EY LİMANLARDA YATAN GƏMİLƏR

Üzümə dirəndi yazdığım qələm,
Masamın üstdəki bəyaz varaq da.
Bir qədər rahatlıq, dinclik istərəm
Əlimlə saldığım bağçada, bağda

Dolaşdım bağçanı, suladım bağı,
Elə bil ayrıldım özüm-özümdən.
Dedim, dincəlməyi, rahatlanmağı
Nə qədər özümə haram bilim mən?

Sözlərlə nə qədər güləşmək olar?
Gah o yıxır məni, gah da mən onu.
Sözün şirəsini, məğzini axtar,
Qələmin ucundan axıt duyğunu.

Bəzən yağış kimi səpələnir söz,
Qələm varaq üstdə ilişir bəzən.
Duyğumun rənginə uyarlı bir söz,
Fikrimin cənginə hava gəzirkən.

Fikir qatar-qatar, söz yığın-yığın,
Bir söz yüz mətləbi bir fikrə bağlar.
Çıxıram ovuna naqqa balığın,
Düşür tilovuma xırda balıqlar.

Özümə, sözümə inam var isə,
Xırda balıqları atıb dənizə,
Dalğalar qoynuna çıxıb yenidən,
Naqqa balığımı axtarıram mən.

Tapdım, ya tapmadım; budur həqiqət.
Budur əzabları şerin, sənətin.
Boşuna yaranmır sözdəki hikmət,
Hikmətə ucaltmaq sözü çox çətin.
Sözün çəkisi var, sözün rəngi var,
Kiçiyi, böyüyü, lap nəhəngi var.
Sözün ən ağırı, ən tutumlusu
Yerinə düşməsə, qulaq dəngi var.
Bəzən uduzsam da söz yarışında,
Mən nəyə qadirəm qələmdən özgə?
Gözəl bir kəlamın axtarışında
Mən nə qazanıram dərd, qəmdən özgə?

Ürəyin ən dərin güşəsindədir
Ən nadir, ən qadir hikmətli sözlər.
Görünən dənizlər, dəryalar nədir,
Hər kəsin qəlbidir dərin dənizlər.
Dalğıcam, dalıram içimə hər gün,
Nadir söz gəzirəm şerlərimçün.

Bağçanı bir xeyli gəzdim, düşündüm,
Yenidən masamın üstünə döndüm.
Ləzzətdir qoxlamaq gül-çiçəkləri,
Həzz elə budursa, bəs məram nədir?

Liman – gəmilərin dincəliş yeri,
Amma zəfərləri dənizlərdədir.

Dəryanın təkini qəvvaslar bilər,
Mənimçün ölüdür tufansız dəniz.
Siz ey limanlarda yatan gəmilər,
Açıq dənizlərdir sizin yeriniz.

*İyul 2000*

## ÖZÜNƏ DÖNÜŞ

Xəyal dəryasında üzdüm sərasər,
Amma üzülmədim torpaqdan bir an.
Xəyalda boğular xayalpərəstlər,
Qüdrətli olmasa xəyallarından.

Xəyal – sabahına bir yoldur sənin.
Sabah – gələcəyə bu gündən uçuş.
Özündən qaçışdır yolu özgənin,
Özünə dönüşdür özündən uçuş.

*Oktyabr 2000*

## QAÇ, AT BASDI, MİLLƏT GƏLİR

*Eyni mayadan yoğrulduğum,*
*amalına vurulduğum*
*qələm dostum, ələm dostum*
**S.Rüstəmxanlıya**

İmandan, gümandan, əsən küləkdən
Bu millət bir neçə yerə bölündü.
Biri digərini iynələməkdən,
Elə bil çevrilib əqrəbə döndü.

Bu ona şər atır, o buna böhtan,
Allah özü çatsın fəryadımıza.
Bezib özümüzü damğalamaqdan,
İndi də keçmişik əcdadımıza.

Yaxşını kənarda axtarırıq biz,
Fərqini bilmirik boşla dolunun.
Savaş meydanından əkilməyimiz
Adına yazılıb Qoç Koroğlunun :
«İgidlik on imiş, doqquzu qaçmaq».
Bizim kimliyimiz bu imiş ancaq?

Özünü kiçiltmək hardandı bizdə?
Nədir özümüzə bu şər, bu böhtan?
Bizim aşağılıq düşüncəmizdə
«Öküz olmaz imiş ev danasından».

«O qızıl aparıb ölkədən» – deyə
Böhtan da atmışıq Rəsulzadəyə.
Axı, bir uyarı olar yalanın.
Dünəni bu günə satma sən bu gün.
Özü başdan-başa qızıl olanın
Nəyinə gərəkmiş qızıl, bir düşün.

Sən Allah, daş atma sən büllur suya,
Vaxt gələr vicdanın qınayar səni.
Amandır, qoymayaq qarşı-qarşıya
Gəlin, Nərimanla Rəsulzadəni.

«Babək soyköküylə bizdən deyilmiş»,
Xətai islamı ikiyə bölmüş.
Fətəli allahsız, Vaqif «baz» olmuş,
Filankəs bir qədər yerlibaz olmuş.
Gecəli-gündüzlü Hadi dəm idi,
O, əyyaş, bu, fərsiz, o, biqəm idi.

Biri qərəzkardı, biri xəsisdi
Bu, ondan yaxşıydı, o, bundan pisdi.
Böyüklər önündə o, bir köləydi,
Natəvan beləydi, Həcər beləydi».

Rəhmət oxumuruq amma bir kərə
Tarix qoyub gedən rəhmətliklərə.
Bir soruşan yoxdur, axı, sən nəsən?
Bəs sən bu millətə nə gətirmisən?
Güdaza verdiyin bu böyüklərin
Yüzdə biri qədər nə iş görmüsən?

«Divan şairləri yaramır bizə,
Yoxdur uyarlığı zəmanəmizə.

Fikrətin* oğlu da əl çəkdi dindən,
Getdi öz yurdundan, öz vətənindən.
Hamid** pyesləri Batı təqlidi,
Akif*** də, Fazil**** də bir dindar idi.

Doğudan Batıya at çapıb tez-tez,
Atalar nə qədər cəbhə yardılar.
Batının önündə fatehlərimiz
Bu gün yeni nəsli utandırdılar.»

Özünü kiçildən ey türk, bir düşün,
Varaqla tarixi bir də dərindən.
Niyə batılılar utanmır bu gün*****
Dünənki o xaçlı yürüşlərindən?

Özgənin önündə kəkələməklə,
Dədəni, nənəni ləkələməklə
Ulu keçmişini niyə danırsan?
Ulu şöhrətinə nə qısqanırsan?
Bir heç olduğunu qanırsan özün,
Ulu şöhrətini götürmür gözün.

Sözün doğrusa da, demə, sən Allah,
Birinə turançı, birinə məddah.

---

*Türk şairi Tofik Fikrət nəzərdə tutuluyr.
**Türk şairi Əbdülhəd Hamid.
***Məhmət Akif..
****Nəcib Fazil.
*****Xristianların müsəlman dövlətlərinə hücumları. Bu, Səlib yürüşləri də adlanır.

Elə düşünsən də, demə, a qardaş,
Birinə qəsbkar, birinə əyyaş.

O vaxtdan bu vaxta sular durulmuş,
Haqqı indi bildik, bu ki, sirr deyil.
Fərqli düşüncələr həmişə olmuş,
Sabah da olacaq, zaman bir deyil.
Zirvədən dərəni görməyinlə sən
Öyünmə, bu deyil uzaqgörənlik.
Dərədən zirvəni gör, deyim əhsən,
Bax, buna deyərlər ərlik, ərənlik.
Bu günün gözüylə dünənə baxsan,
Keçmişə qiymətdə yanılacaqsan.

Əvvəl özümüzü görək, anlayaq.
Bizə ağıl verib o ulu tanrı.
Görə bilmişdikmi biz on il qabaq
Bu gün gördüyümüz bu oyunları?

Çox şey ummuruqmu biz atalardan?
Bugünkü dərdlərə biz yadıq məgər?
Bizdən əvvəlkinə qulp qoymaq asan,
O qulpdan özümüz azadıq məgər?

Nəriman kim idi? Vaxtının oğlu
Düşünə bilməzdi o, bizim kimi.
Sor öz vicdanından: məgər bu yurdu
O, səndən, ya məndən az sevirdimi?

«Müsavat», «İstiqlal», «Cəbhə», başqası,
Yolları cürbəcür, məqsəd, məram bir.

Deyə bilərsənmi bunlardan hansı
Bu xalqı, milləti daha çox sevir?

Gəlin, ataları ata sayaq biz,
Ulu məzarlara daş atmayaq biz.
Gəlin, boş-boşuna küyə getməyək,
Onların ruhunu biz incitməyək.

Zaman hökm elədi, dünya dəyişdi,
Bizdən arxadakı qabağa keçdi.
Dünya gözgörəsi şər atır bizə,
Biz də şər atırıq öz dədəmizə.
Harda ayrılsaq da, burda biz birik,
Ulu dədəmizə yol göstəririk.

Haqqı tapdayanıq biz haqq adına,
Dil uzun, əl qısa, fikir dərbədər.
Görən, bu dünyada öz əcdadına
Çirkab atan varmı özümüz qədər?

*İyul 2000*

## GÖZ YAŞLARI

Harda qəm var, göz yaşı var, orda varam,
Amma özüm ağlamağı bacarmıram.
Məni yordu taleyimlə savaşlarım,
Ürəyimdə düyümlənib göz yaşlarım.
Ah çəkirəm, dərd ürəkdən çıxa bilmir,
Yaşa dönüb, gözlərimdən axa bilmir.

Tək qalmışam, köçüb getdi həmyaşlarım,
Ürəyimə damcılayır göz yaşlarım.
Göz yaşları üzə düşsə, gəlib keçər,
Göz yaşları qəlbə düşsə, dəlib keçər.

*İyul 2000*

## YOX – YOX

Haqqı, həqiqəti indi görməyə
«İnsanam» deyənin dözümü yox-yox.
Mən çox aynalara baxdım «haqq» deyə,
Üzümü görürəm, özümü yox-yox.

On ildir düşmüşük bir yanar oda,
Varmı bu atəşin yozumu? – Yox-yox.
Əqidəm – qəlb aynaṃ Mən bu aynada
Üzümü görürəm, özümü yox-yox.

*Avqust 2000*

## ŞÜKÜR ALLAHA

*Oğlum Azərin Kəbə*
*ziyarəti münasibətilə*

Kəbəyə gedirsən, həccin mübarək
Aşırsan arzunun bu gün həddini.
Bu yolda mənim də borcumdur demək:
–Allah qəbul etsin ziyarətini.

Vaxt insan oğlunu dayadı küncə,
Arzular, diləklər könüldə dustaq.
Sənin ulu baban ömrü boyunca
Kəbə arzusuyla yaşadı ancaq.

Yığdı quruş-quruş, pulu çatmadı,
Kəbə ziyarəti qaldı gözündə.
Sənin soyadındır babanın adı,
Onun da arzusu göyərdi səndə.

Yolun açıq olar, ay oğlum, sənin.
Onun qanı axır sənin qanında.
O ulu kişinin, ulu cəddinin
Adı pasportunda, ruhu yanında.

Bu gün əllərimi açıram göyə,
Deyirəm: – Ey baba, rahat ol daha.
Nəvənlə bərabər getdi Kəbəyə
Sənin də diləyin, şükür Allaha.

*Mart 2000*

## XOŞBƏXTLİK – BƏDBƏXTLİK

Şər ilə xeyirin arasındasan,
Birinin ilkidir, birinin sonu.
Bədbəxtlik içində anlayır insan,
Kim idi, indisə kim olduğunu.

Xoşbəxtlik içində yaman günləri
Yada salmaqdan da çəkinirik biz.
Bugünkü fərəhi danan günləri
Qovur hafizədən ürəklərimiz.

Zaman dəyişərmiş zaman içində,
Dünən rədd etdiyin bu gün doğrulur.
Xoşbəxtlik özü də bir an içində
Dönüb, xoşbəxt üçün bədbəxtlik olur.

Xoşbəxt günlərimdə elə bilirdim
Bu dünya mənimçün yaranıb elə.
Hərdən öz içimdə qürrələnirdim:
«Bundan artığına layiqəm, hələ».

Xoşbəxtin qəlbindən qaçaqdır ələm,
Heç nəyin hesabı, haqqı sorulmaz.
Deyərdim, indi ki belə qadirəm,
Yaman gün bir daha qismətim olmaz.

Bədbəxt günlərimdə gördüm, heç demə
Vaxtın dolağında mən heç nəyəmmiş.

Anladım, başımı qoyub çiynimə,
Qadir yox, ən aciz bir bəndəyəmmiş.
Bükdü belimi də bədbəxtlik daşı,
Təklik – bədbəxtliyin əkiz qardaşı.

*Noyabr 2000*

## VƏTƏN NAMUSU?

Sənin bircə yolun var:
Çapıb-talamaq yolu.
Başın qarnından yekə,
Cibin başından dolu.

Kəf gəlmək ustalığı
Kələkdir, bilik deyil.
Var-dövlətlə öyünmək
Hələ kişilik deyil.

Özgənin qoltuğunda
Bizə hürdün, ay yazıq.
Olmayan mənliyinə
Sən tüpürdün, ay yazıq.

Tərəzidə çəkirsən
Milyon-milyon dolları.
Əlacsız bir qaçqına
Qıymadın on dolları.

Özgənin kölgəsinə
Sığınıb daldalandın.
Kişilər cərgəsində
Özünü kişi sandın.

Topladığın sərvəti
Hamı bilir, günbəgün

Kölgəsinə girdiyin
Əclaf ilə bölüşdün.

Evindəki bicinlə
Danışdın özgə dildə.
Sən hardan anlayasan
Millət nədir, Vətən nə?

Nədir Vətən namusu?
Nə dərk edər, nə anlar –
Bu zavallı millətin
Dərisini soyanlar.
Sən nə biləndən oldun,
Nə də ki, dinləyəndən.
Mən sənə «eşşək» dedim,
Eşşək incidi məndən.

*Avqust 2000*

## AHƏNG

Torpağın nəfəsi, yarpağın səsi,
Suyun şırıltısı, quşun nəğməsi,
Qürub şəfəqləri, dan şəfəqləri
İlkimiz – Adəmdən, Həvvadan bəri
Allahın dilidir...
            O dili bilmək,
O dildən axırı, əvvəli bilmək,
Həm eşidə bilmək, həm duya bilmək,
Göydəki rəngləri oxuya bilmək,
Bizə Allah payı – bir inam gərək.

Allahdan o payı ənam istərəm,
Şübhədən sıyrılan inam istərəm.
Ey qadir Allahım, inam ver mənə,
Rəngdəki hikməti dərk etdir mənə,
Səsdəki mənanı eşitdir mənə.
Adəmə dediyin o ilk söz nədir?
O ilk söz o ilk kəlmə hansı dildədir?
Özün yaratdığın o söz var ikən,
Səslərin diliylə danışdın nədən?
Rənglərin diliylə danışdın nədən?
Haqqın şərbətini biz damla-damla
İçib, qovuşarıq sənə inamla.

Əgər inam varsa, demək mən varam,
Atəşdə yanmaram, suda batmaram.
Allah, hikmətini əta et mənə,

O sirli dilini sən öyrət mənə.
Bilim, quş nə deyir, bulaq nə deyir,
Külək nə, ağac nə, yarpaq nə deyir.
Hikməti nə imiş göylərin, yerin,
Üfüqdə qızaran əlvan rənglərin?
Göz qırpıb ulduzlar birbəbir bizə,
Göylərin sirrindən nə deyir bizə?
Aləmdə hər şeyin bir sonu varsa,
Axan dayanırsa, yanan sönürsə,
Sənin sığındığın sonsuzluq nədir?
Allahım, özün de, var nə, yox nədir?

Başımın üstündə bir quş uçurdu...
Verdiyim suallar üzümə durdu.
Seyr etdim göyləri, seyr etdim yeri.
Mənə hay verirdi sanki dağ-dərə.
İnamla dinlədim mən o səsləri,
Könül gözü ilə baxdım rənglərə.
Nə səsi anladım, nə rəngi duydum,
Yalnız onlardakı ahəngi duydum.
İlahi, bəlkə də, sənin varlığın
Elə bu ahəngin, bu uyarlığın
İçində gizlənib... Axı, biz nəyik?
O sirri bilməyə aciz bəndəyik.
Allah, hikmətini bəyan et mənə,
O sirli dilini sən öyrət mənə.

*İyul 2000*

## MƏNİM ANA DİLİM

Mənim ana dilim – mənim kimliyim,
Pasportum, özümə öz hakimliyim.
Mənim mənliyimin füsunkarlığı,
Danışan kamalı, ağlıdır dilim.
Millətin varlığı, yurdun varlığı
Sənin varlığına bağlıdır, dilim.

Məni həm babamla, həm də nəvəmlə
Bağlayıb, uzanan tarix bağımsan.
Dünənim, sabahım, üstəlik hələ
Mənim söz hünərim, səs bayrağımsan.

Sənsiz adım – haram, vətənim haram,
Ana südü kimi halalım dilim.
Harda sən varsansa, orda mən varam,
Ey mənim ulduzum, hilalım dilim.

Daşlardan süzüldün sən zaman-zaman.
Suyu saflaşdırır daşdan keçməsi.
Yarandı dumduru damcılarından
Bayatı çeşməsi, dastan çeşməsi.

Sözü öz yerinə qoymaq təhrini
Ustadlar öyrətdi bizə birbəbir.
Sənin qüdrətini, sənin sehrini
Göstərdi dünyaya Füzuli, Sabir.

Mənim ana dilim, möcüzəm, sehrim
Çəpərlər dağıdar, qapılar qırar.

Bəzən bircə kəlmən ən dərin fikrin
Üstünə nur salıb cilalandırar.

Fərqini bilməyib ağdan qaranın,
Adam var, bu dili yad sayar bu gün.
Dədəsi bu dildə cəbhə yaranın
Özü özgə dildə banlayar bu gün.

Hansını söyləyim? Mismi, dəmirmi?
Yalnız öz səsilə cingildəmirmi?
Mis səsi bənzəməz dəmir səsinə,
Onların dilidir onların səsi.
Bənzəməz bülbülün təranəsinə
Qarğa qarıltısı, hop-hop nəğməsi.

Nə yarpaq, nə külək, nə metal, nə quş
Səslənmir, oxumur özgə dilində.
Bəs sənə nə düşüb, ay dili yanmış,
Yad dildə ötürsən öz mənzilində?

Namusdan bixəbər, vicdandan uzaq,
Vəzifə kürsüsü məramdır sənə.
Vətənin dilini sevməyən alçaq,
Vətənin çörəyi haramdır sənə.

Mənim mənliyimin füsunkarlığı,
Danışan kamalı, ağlıdır dilim.
Vətənin varlığı, xalqın varlığı
Sənin varlığına bağlıdır, dilim.

*Avqust 2000*

## TANIT MƏNİ MƏNƏ

İlahi, yaradıb heç nədən bizi,
Can verdin, ruh verdin, xilqətə qatdın.
Sonra özün yazıb taleyimizi,
Bizi özümüzə sən sirr yaratdın.

Mən kiməm? Nəçiyəm? Məqsədim nədir?
Bildim ilk həddimi, son həddim nədir?
Nə idim, görəsən, cövhərdən əvvəl?
Burdayam, hardaydım bu yerdən əvvəl?

Min eşqin, min fikrin quluna döndüm,
Min-min də diləyin yoluna döndüm.
Arzular yolunda kotan çəkənəm,
Demək, bir deyiləm, demək, mən minəm.
Bəs, niyə sən məni bir yaratmısan?
Sən məni özümə sirr yaratmısan.

Göz verdin, bu gözəl dünyanı gördüm,
Yüz çərək, min çərək o yanı gördüm.
Bəs, bu nə sirdi ki, ancaq bircə dəm
Özümü necə var, görə bilmirəm?

Mənə qulaq verdin, çox uzaqları
Eşidə bilirəm, hər səs bir aləm.
Uçulur içimdə dərd qalaqları,
Onların səsini eşidəmmirəm.

Tanıyır özünü, zənn edir hamı,
Əslində, özünü tanımır insan.
Bir saat sonrakı hal-əhvalımı
Niyə qulağıma pıçıldamırsan?

Qəfil bir zərbədən qorunum o gün,
Axı, bu dünyada qədərimizçün
Xeyirlə bərabər, şər yaratmısan,
Bizi özümüzə sirr yaratmısan.

Dünənki səhvimdən öz ibrətimə
Bəs niyə mən bu gün dərs götürmürəm?
Uyub öz arzuma, öz niyyətimə,
Şeytanın felini niyə görmürəm?

Yarəb, ümidim də, pənahım da sən
Sənə açılıdır hər gecə əllər.
Bəs, axı, sən bizə ağıl vermisən,
Şeytandan acizmi ağlımız məgər?

Ağıl mədədə yox, ağıl başdadır.
Bəlkə, mən başqayam, ağıl başqadır?
Axı, sən ki, bizi hürr yaratmısan
Hürriyyət içində neçin insanı
Sən özü-özünə sirr yaratmısan?

Mənə duyğu verdin... şükür, xudaya
Şükürlər verdiyin bu qadir paya.
Qəfil eşitdiyim səsdən, nəğmədən
Duyğular saz tutur könlümdə birdən.

Elə ki içimdə dəyir sim-simə,
Dönür duyğularım şerlərimə.

Elə ki, soruram kiməm, nəyəm mən?
Usanıb baxıram yoxdan varıma.
Anlayıb, eşidib, gördüklərimdən
Min pay çox borcluyam duyduqlarıma.

Amma duyğular da aldadır məni,
Bilirəm, yanında çoxdur günahım.
Ayıra bilmirəm dostdan düşməni,
Tanıt məni mənə, tanıt, Allahım.
Dedim ki, özümə sirrəm, tilsiməm
Aç mənə sirrimi, görüm, mən kiməm?

*Dekabr 2000*

## ƏZAN BORCU

*«O Ağdama mənim bir*
*əzan borcum var»*
**Hacı Arif Babayev**

Ay Arif, dilini öpüm, yaxın gəl,
Mən sənin o böyük borcuna qurban.
De, varmı dünyada bir savab əməl
Allah qarşısında borc ödəməkdən?

Ödədin şərəflə... görürük bunu
Kəbə səfərində, həcc imanında.
Ödəyə biləsən bütün borcunu,
Borclu qalmayasan Allah yanında.

Çatdıraq, borcumuz unudulmasın,
Allah nidasını göylərə yerdən.
«Allah Əkbərimiz» əskik olmasın
Bizim göy kaşılı minarələrdən.

İndi necə dözək, qardaş, bu dərdə?
O halal torpaqlar ayrıldı bizdən.
Ağdamda, Şuşada, ya Kəlbəcərdə
Bayquşlar ulaşır minarəmizdən.

Biz ayrı düşmüşük ulu tanrıdan,
Gəlin, cəza kimi anlayaq bunu.
Vədin öz yerində... Ancaq heç zaman
İnsan unutmasın Allah borcunu.

Sən əzan verəndə... Allah adıyla,
Təzədən güləcək üzə o torpaq.
Tanrıya xitabın nur qanadıyla
Bütün Qarabağı qucaqlayacaq.
Bizi sarsıtsa da bu dərin yara,
Gecənin sonu var, gələcək o son.
İndi yetim qalan o torpaqlara
Bir əzan borcun var, bir nəğmə borcun.

*Dekabr 2000*

## TƏMƏNNA

İtirilmiş diyarın naləsi qəlbimdə ikən,
Yaşadım yetmişi, yetmiş beşi bilməm necə mən?
Necə dözdüm Qarabağ cənnətimin tapdağına,
Necə dözdüm yaşayırkən bu könül, göz dağına?
Necə dözdüm dizəcən batdığımız zığlığa mən,
Necə dözdüm bu qədər zülmə və haqsızlığa mən?
Necə dözdüm dilənən körpələrin ah səsinə,
O halal torpağa həsrət qocanın naləsinə?
Ulu tanrım, dözürəm, amma dözəmmir bu Vətən.
Açıram əllərimi hər gecə dərgahına mən:
– Ulu tanrım, ya bu zillətləri biryanlıq elə,
Ya da bayramlıq üçün şairi qurbanlıq elə.

*Dekabr 2000*

## ONUN GÜCÜ XALQDA, KƏSƏRİ HAQDA

*Ə.Elçibəyin xatirəsinə*

Bizimlə bərabər bir böyük yaşar,
Nöqsan axtararıq ancaq biz onda.
Elə ki, itirdik, haqq aşıb-daşar,
Dönər böyüklüyə nöqsan, bir anda.
O, öz işığını dürtməz hər gözə,
Yalnız o dünyadan göndərər bizə.

O, öz ürəyini millətə verdi,
Köksündə bu xalqın qəlbi döyündü.
Onun millət dərdi, məmləkət dərdi
Göyərib cismində xərçəngə döndü.

Hələ bu dərdə də «qismətim» deyə
Allah payı kimi o, şükran oldu.
Şükranlıq önündə bu an ölüm də
Bəlkə, gəlişinə peşiman oldu?

Hədəyə, təhqirə dözdü, dinmədi,
Öz namus yükünü daşıdı ancaq.
Heç kəsin bəxtinə qibtələnmədi,
O, öz taleyini yaşadı ancaq.

Hamını düşünən, sevən, duyan kəs
Qıymadı özünə bircə xoş günü.
Bir an özü üçün yaşamayan kəs
Xalqa qurban verdi bütün ömrünü.

Ona bu fərasət hardanmş, görən?
Onun gücü xalqda, kəsəri haqda.
O, xalqın önündə əyildiyindən,
Tabutu önündə əyildi xalq da.

Endi mələk kimi göylərdən yerə,
Dünyadan namusla keçdi Elçibəy.
O, qəbrə köçmədi, sığmazdı qəbrə,
Millətin ömrünə köçdü Elçibəy.

Qəlbi Azərbaycan, gözü Türkiyə,
Yaşadı «türk» deyə, öldü «türk» deyə.
Bağladı turana o, imanını,
Bu iman onunçün həyatdan baha.
Məgər təsadüfmü? O, öz canını
Gedib, Türkiyədə verdi Allaha.
Yandı bizim üçün, duymadıq onu,
Çatmadı işığı gözlərimizə.
O, öz istisini, o, öz nurunu
O biri dünyadan göndərdi bizə.

*24 avqust 2000*

## NƏFS – İMAN

Günəşdən hərarət, sudan od aldıq,
Sürətin gücünə göyə ucaldıq.
Ərzin bu ucuna çatdırdıq o an
Ərzin o ucundan gələn səsini,
İşıq sürətini alıb işıqdan,
Yumruğa döndərdik Yer kürəsini.
Köhnə mizanları dağıdıb qırdıq,
Dağların belindən yollar aşırdıq.
Dünyada çox şeyi dəyişdirmişik,
Dünyaya bir təzə biçim vermişik.

Yalnız özümüzü dəyişmək çətin,
Acizik önündə zatın, fitrətin.
Böldük bu dünyanı biz qitələrə,
Bildik gecəmizi, gündüzümüzü.
Dünyanı tanıdıq: bu dağ, bu dərə,
Amma tanımadıq öz-özümüzü.

Mən hardan gəlmişəm, bilə bilmədim,
Yönüm hayanadır, hələ bilmədim.
Bizdənmi törəyir əməllərimiz?
Bu sual önündə baxırıq göyə.
Gəldiyimiz yerə gedəcəyik biz,
Yoxsa, başqa yerə, yaxud heçliyə?

Bilmədim, dünyada məramım nədir,
Bilmədim, halalım, haramım nədir.

Bəzənsə seçmirik biri-birindən
Yanlış addımları, düz addımları.
Nöqsanı düzəltmək istərik, nədən
Dəyişə bilmirik biz addımları?

O şeytan şərinin nəqd ləzzəti
Bizə unutdurur nisyə cənnəti.
Şirin nəqdi umur ürəklərimiz,
Tapmır umduğunu mübhəm nisyədə.

Görünən dünyaya aldanırıq biz,
Fərəh nəqddədir, dərd-qəm nisyədə.
Yox, dəyişə bilmir özünü insan,
Nəfsimiz güclüdür imanımızdan.

*Sentyabr 2000*

## AĞ BAYRAQ

İtirdim nə qədər yarı, yoldaşı,
Özüm də bilmirəm indi mən kiməm?
Ağ bayraq qaldırdım həyata qarşı,
–Təsliməm, təslimən,– dedim, – təslimən.

Elə bil dünyaya marağım ölmüş,
Mənimiçün nə fərqi qaradan ağın.
Hissim, həyəcanım çoxdan gömülmüş,
Qaldım ümidinə soyuq bir ağlın...

Gün axşam olunca sürür il qədər
Verilən bir ömrün bircə günlüyü.
Həvəs yox, istək yox, fikir dərbədər,
Nə yaman olurmuş ruh düşkünlüyü.

Təslimən deməkdir, axı, ağ bayraq.
Mən onu səslərəm: – Gəl, ey əcəl, gəl.
Bayraq ağ, qəsdim ağ, içim-çölüm ağ,
Ruhum kəfənlənib cismimdən əvvəl.

*Avqust 2000, Şəki*

## GÜNAHIN VARMIDIR?

– Günahın varmıdır?
Dedim: – Dünyanın
Əyrisi bir yana, düzü günahdır.
Mayası palçıqsa əgər insanın,
Dünyaya gəlməyin özü günahdır.

*2000*

## HƏRƏNİN ÖZ PAYI

Düşüb yoxuş boyu yolun ağına,
Çıxdıq dostlar ilə «Xan yaylağı»na*.
Hava seyrəlirmiş, heç demə, dağda,
Bir tərəf dərədi, bir tərəf yaldı.
Zirvənin ucunda, bu ucalıqda
Nəfəsim təngidi, gözüm qaraldı.
Çəmənlik içində çiçək qomları,
Yalın zirvəsində qar şırımları.
Dəyələr ağarır dağ döşlərində,
Qoyunlar, quzular örüşlərində...

Papağa bənzəyir dağda binələr,
Kölgəli qayalar gün sorağında.
Nağıllar qoşubdur bizim nənələr
Qışın aranında, yayın dağında.
Başımız üstündə bir qartal süzür,
Bulud dənizində elə bil üzür.

Gərir sinəsini əsən yellərə,
İti gözlərini zilləyib yerə
Qartal ov axtarır qalxdığı dağdan.
Heyrətdir, heç demə, o ucalıqdan
Yerdə böcəyi də görə bilirmiş,
Allah qartala da bu haqqı vermiş.

---

*"Xan yaylağı" Şəkidə 1700 metr ucalıqda olan dağın adıdır. Bu il Tehran adlı bir iş adamı vaxtilə yalnız at və qatırla çıxıla bilən o dağa öz vəsaiti hesabına maşın yolu çəkmişdir.

Hərənin öz payı, ey insan, düşün.
O ulu yaradan yaşamaq üçün
Qartala iti göz, pələngə pəncə,
Şirə qüvvət verib, bizə düşüncə.

*Avqust 2000*

## QIRIN BİR-BİRİNİZİ

Parçalandı ana Vətən.
Necə dözdün bu dərdə sən?
Meydan açdı,
Qələmindən alov saçdı
O dəhşətli gündən bəri
Həm o tayın, həm bu tayın şairləri.
Üsyan edib yerə, göyə,
Dözəmmədik iki yerə bölünməyə.

Bu gün isə bölünmüşük min bir yerə:
Firqələrə, bölgələrə, məhlələrə.
Bu bölümdə
Bizim vahid sandığımız millət hanı?
Bakı xanı, Şəki xanı,
Gəncə xanı, Quba xanı...
Qırın biri-birinizi,
Dönüm sizin gözünüzə.
Vətən nədir, millət nədir?
Gün ağlayın özünüzə.
Bölündükcə xırdalandıq,
«Məni» sevdik, «bizi» dandıq.
Öz bağımsız dövlətimiz qurulalı
Didişirik – «sən oralı, mən buralı» –
Deyə-deyə.
Bir ölkəyə
Hərəmiz bir ad qoyuruq.
Himnimizi

Hərəmiz bir ayrı səslə oxuyuruq.
Bir ahəngə uyuşmayır
Zil səsləri, bəm səsləri,
Qəm səsləri, dəm səsləri.
Gözün aydın, ana Vətən,
Qayıtmışıq xanlıqlara biz yenidən.
Başın mənim, qolun özgə,
Qıçın mənim, əlin özgə.
Bir yandan da rus dillilər
Xalqa deyir, adın mənim, dilin özgə.
Sən bir bütöv ola-ola,
Biz bölmüşük bu bütövü qıça, qola.
Qıçın qoldan xəbəri yox,
Sağın soldan xəbəri yox.

Yazıq Vətən xəstə düşdü
Bu bölgülər azarına dözə-dözə.
Vətən nədir, millət nədir?
Qırın biri-birinizi,
Dönüm sizin gözünüzə.
Bu dünyanın iki qütbü, iki üzü,
Bir gecəsi, bir gündüzü.
Çeçen qırır düşmənini,
Biz də qıraq özümüzü.

*Avqust 2000*

## MƏSLƏHƏT

Tərəddüd ürəyi parçalayanda,
Seçimdə özünü gücsüz sayanda
Fikir haçalanır, yol haçalanır,
Biri təsdiq edir, o biri danır:

Beləmi yaxşıdır, eləmi yaxşı?
Kəsiri yaxşıdır, ya cəmi yaxşı?
Gecə yola çıxım, yoxsa, gündüzmü?
Hansı yolla gedim, kəsəmi, düzmü?
İçimi gəmirən fikirlərimi
Deyimmi, susummu, yoxsa, lal kimi?

Şübhə könlümüzü dəlib oyunca,
Düşür yadımıza dostlar, yaxınlar.
Hamının kimdənsə ömrü boyunca
Məsləhət almağa ehtiyacı var.

Tapıb ən düz yolu ona göstərmək
Sənin böyüklüyün, fəzilətindir.
Amma gerçək budur: məsləhət vermək
Məsləhət almaqdan min pay çətindir.

«Seçdiyim o yolu ona deyimmi?
Sonuc düz çıxmasa, onda neyləyim?»
Durur göz önümdə uca dağ kimi
Onun müşkülünə cavabdehliyim.

Suallar çox çətin, cavab dərində,
Oğulsan, seç görüm qaradan ağı.
Mən özüm olsaydım onun yerində,
Tək necə aşardım bu müşkül dağı?

Qəlbində fikirlər verir səs-səsə,
İkisi yanlışsa, birisi haqlıdır.
Qorxma, de fikrini, qəlbin düz isə,
Göstərdiyin o yol da düz olacaqdır.

Varmı elə qapı ola büsbütün
Döyənin üzünə həmişə bağlı?
Özündən daha çox başqalarıyçün
Daha düz işləyir düzlərin ağlı.

*Avqust 2000*

## BARI, DÜŞMƏN OLMA

Mən dedim, o dedi...
    Birdən qızışdı,
Qaydanı, nizamı, sərhəddi aşdı.
Gördüm, ən adicə bir həqiqəti
O, gözgörəsinə bəyənmir, danır.
Pisliklə yoğrulub onun xisləti,
Açıq-açığına haqqa qısqanır.

Geriyə çəkilib, mən burda susdum
Elə düşündü ki, artıq uduzdum.

Bu haqq düşməninə tutub üzümü,
Dedim gülə-gülə axır sözümü:
– Bilmədin, anlatdım, bilmədin yenə,
Barı, düşmən olma bilmədiyinə.

*Aprel 2000*

## DİL – VƏTƏN

Demirəm ki, mən dağı
Dağ üstünə qoymuşam.
Deyirəm ki, həmişə
Xalqı önə qoymuşam.

Demirəm ki, bu xalqın
Hər dərdinə yanmışam.
Deyirəm ki, bu yolda
Bol düşmən qazanmışam.

Demirəm ki, Sabirəm,
Cəliləm, ya Hadiyəm.
Deyirəm ki, onların
Eşqinə dəstək verən
Cılız səsli bir neyəm.

Demirəm bu ölkədə
Mənim haqqı-sayım var.
Deyirəm ki, dünənki
İstiqlal savaşında
Mənim də öz payım var.

Demirəm alim olub,
Öz peşəmə vuruldum.
Amma bizim gəncliyə
Ög xalqını sevdirən
Yaxşı müəllim oldum.

Demirəm bu millətin
Mən də öz haqq səsiyəm.
Amma mən öz yurdumun,
Bir də ana dilimin
Dəli-divanəsiyəm.
Vətən dildir, dil vətən.
Ayırmaq mümkünmüdür
Onları bir-birindən?
Deyirəm ən adicə
Bir vətənpərvərəm mən.
Dilimin namusunu
Qoruyan əsgərəm mən.
Vətənimin, dilimin
Gələcəyi ən böyük
Dərdi-sərimdir mənim.
Xalqımın düşmənləri
Düşmənlərimdir mənim.

*Sentyabr 2000*

## SALAM – RÜŞVƏT

Salam verdi, almadılar
Füzulinin salamını.
Nəvələri əzbər dedi
Sayılmazın kəlamını.

Axı, Allah salamının
Bu dünyada qiyməti yox.
O verdi Allah salamı,
Bəndə verən rüşvəti yox...

*Noyabr 2000*

## BURDA DAYAN,
## BURDA DUR

*«Ya Məhəmməd, səndən ruh haqqında sorsalar, de ki, Ruh rəbbimin əmrindədir. Bu barədə mənə heç nə deməmişdir».*

Allahım, sən bu sirri açmadın peyğəmbərə,
Hərə yozdu bir yerə.
Allahım, öz elçinə demədinsə sən bunu,
Bəs, biz kimdən öyrənək ruhun nə olduğuun?
Deyirəm, yəqin, sənin
Yaratdığın bəndənin
Bu sirri bilməsinə ehtiyac yox, lüzum yox?
Əgər bu belədirsə, mənim başqa sözüm yox.
Amma bir gerçək də var:
Dilini bilmədiyim quşları dinləyəndə,
Gözlərə görünməyən küləklər inləyəndə,
Yuxumda öz inancım məni məndən soranda,
Hissim, fəhmim, gümanım mənə başqa dünyadan
Bir şeir yazdıranda,
Qəlbim gizildəyəndə bir yanıqlı nəğmədən
Gözə görünməyəni görür, qulaqlarımla
Eşidilməz olanı eşidirəm mən, nədən?
Əsl gerçək budur ki, burda dayan, burda dur!
İnsan insanlığında
Cisminə yox, ağlına və ruhuna borcludur.

*Oktyabr 2000*

## TAMAH

Dədələr deyərdi, səbr et, şükr elə,
Yemək mümkün deyil qismətdən artıq.
İndi şeytan ilə verib əl-ələ
Qismətə deyirlər, bitdi zamanın,
Bu təzə meydandan çəkil sən artıq.

Allahın verdiyi payı, qisməti
İndi Allah deyil, bəndələr bölür.
Talayıb sökürlər bu məmləkəti
Bəzən xeyir bölmür, bəzən şər bölür.
İnsanlıq necə də unudularmış,
İnsanda nə boyda tamah olarmış.

Tamahın hökmüylə çalıb mürvəti,
Nəfsə haqq paltarı geyindirirlər.
Taleyin əlindən alıb qisməti,
Taleyin özünə tale verirlər.

Qızıb həris gözlər, bozarıb üzlər,
Buynuz-buynuzadır indi öküzlər.
Cani cani ilə öpüşür indi,
Oğrudan-oğruya pay düşür indi.
Alır öz payını qapan-qapandan,
İt də qoyun umur indi çobandan.

Rəngini, yönünü dəyişdi aləm,
Deyirlər, qoy yeyən yeyənin olsun.

Demirlər, yüzünü mən götürmüşəm,
Nə olar, biri də, qoy, sənin olsun.

Girib öz qınına hamı qul təki,
Açılan əllər də haqdan kəsilmiş.
Tamah bıçağıyla içimizdəki
Qeyrət damarımız çoxdan kəsilmiş.

Tükənmir, əksinə, arzularımız
Çoxalır günbəgün, artır ilbəil.
Zülm etmək günahdır, dünyada yalnız
Tamaha zülm etmək günahdan deyil.
Həqiqət ölüdür, yalan dipdiri.
Əyrilik işləyib qana, iliyə.
Çox işdə qalsaq da hamıdan geri,
Rüşvətdə çıxmışıq birinciliyə.

Mən belə görürəm, iş-işdən keçib,
Ürək piylənibdir, baş piylənibdir.
Tamahn qılıncı atəşdən keçib,
Zülmün daşı ilə bülöylənibdir.

*Noyabr 2000*

## HƏSRƏTİMİZLƏ YAŞID OĞLAN

Çadırda böyüyən on yaşlı körpə,
Həmişə gözləri o yaşlı körpə
Muğan düzlərinə çiləyir bu gün
Yetim «Qarabağın şikəstəsini».
Muğam naləsinə bələyir bu gün
Doğma Şuşasının fəryad səsini.

Gərdişin yönünü dəyişməsində
Silkinib dağlarmı arana köçdü?
Sənin könül yaxan cəh-cəh səsində
Muğamlı Qarabağ Muğana köçdü.

Hələ görməmisən doğma yurdunu,
Sənin taleyindən çaldılar onu.
İsa bulağının zümzüməsini,
Daşaltı çayının şaqraq səsini
Eşidib, suyunu hələ içmədən
O səsi qaynatdın boğazında sən.

Çadırda çəkdiyn zülmün, zillətin,
O doğma yerlərə sonsuz həsrətin
Qarabağ ruhundan ruh vermiş sənə,
Baba ocağını göstərmiş sənə.

Abi-havasıdır Cıdır düzünün
Qəlbindən süzülən o iniltilər.

Şuşanı yaşadan cəh-cəhin bu gün
Alışan Muğana sərinlik çilər.

Torpaq əsir oldu o vaxtdan bəri,
Anlaya bilmirik, lalıq, karıq biz.
Qaytara bilməyib doğma yerləri,
Sənin qabağında günahkarıq biz.

Səbrimiz ümidə güvənmir daha
Sənin yaşın qədər göz yaşımız var.
Bir az nazilsə də, şükür Allaha,
Hələlik itməyib, yaddaşımız var.

Bizə hər tərəfdən tələ qurulmuş,
Oyun oynayırıq biz hələ sözlə.
İndi sənin yaşın lap yaşıd olmuş
Halal yurdumuza həsrətimizlə.

Daşaltı çayının şaqraq səsini,
İsa bulağının zümzüməsini
Eşidib, suyunu hələ içmədən,
De, necə qaynatdın boğazında sən?

Torpaq nisgililə sinədağlısan,
Sən ki, o yerlərə belə bağlısan,
O buz bulaqları, uca dağları
Sən, ey ürəyində yaşadan oğlan,
Bizim verdiyimiz o torpaqları
Deyəsən, düşməndən sən alacaqsan.

*Oktyabr 2000*

* * *

Nə deyir qışqıran zəngin səsləri?
Səslərin rəngi var, rəngin səsləri.
Nədən, gah göy olur, gah da qırmızı,
Mənim içimdəki cəngin səsləri?

*İyun 2000*

## BİGANƏLİK – KORLUĞUMUZ

Daş atılır.
Sən tutursan öz başını,
Mən tuturam öz başımı,
Unuduram qardaşımı.
Biganəyik həm sən mənə, həm mən sənə.
İkimiz də bu nöqtədə
Biganəyik bu millətə, bu Vətənə.
Xidmətinin qayəsini dana-dana,
Zülm edəndə
Aydan arı, sudan duru bir insana,
Biz dinmirik.
Hələ biri-birimizə
Şər atmaqdan çəkinmirik.
Haqq tapdanır, biz susuruq,
Haramzada haqqı danır, biz susuruq.
Mən susuram,
sən susursan,
o da susur.
Əyri gülür, düz qan qusur.
Dünən məni incitdilər
Haqsız yerə,
"Sən görmədin" görə-görə.
Bu gün sənə zülm etdilər,
Mən görmədim görə-görə.
Sonu nədir bu korluğun –
Bu mənəvi nankorluğun?
Vətən oğlu mənliyini unudursa,

Mən koramsa, sən korsansa, o da korsa,
Demək, bizim bu məmləkət
Qaranlıqdır başdan-başa.
Başımız da hədəf olur yağan daşa.
Bu ölkədə bir görən yox,
Kor əkirik, kor doğuruq.
Daşa dəyir atdığımız hər oxumuz.
Biganəlik – korluğumuz.
Qardaş, sevgi torpağından gül göyərər,

Biganəlik torpağından kol göyərər.
Biganəlik – ən dəhşətli
Mərəzidir bu millətin.
Bu da başqa bir üzüdür cəhalətin.

*Avqust 2001*

## MİLLƏTƏ XİDMƏT

Bir milləti yüz topluma, yüz tayfaya böldük.
Böldükcə kiçildik və kiçildikcə üzüldük.
Birdirsə əgər millətimiz, birsə bu torpaq,
Bir olmalıdır ölkədə amalımız ancaq.

Daim dolanır bir oxun ətrafına pərgar
Yurddan savayı heç kəsə yox məndə itaət.
Bir məqsədimiz, bir yolumuz, bir sözümüz var,
Bir firqəyə, bir şəxsə deyil, millətə xidmət!

*Yanvar 2001*

## DİLƏKLƏRİN RİCASI

Məktublar yığın-yığın, məktublar qalaq-qalaq.
Kimi məndən iş umur, kimi mənzil, kimi haqq.
Bir millətin haqqını yeyən haqsız «haqlılar«,
Haqqından çox götürən bu əli çomaqlılar
Yarışır bir-birilə, son həddədir bu yarış.
Əzab dolu, dərd dolu bu məktublar yalvarış!
Diləklərin ricası, ürəklərin naləsi,
Məndən kömək istəyən aman səsi, ah səsi,
Əlləri qapılardan üzülən biçarələr
Məndən ümid gözləyib dərdinə dərman dilər.
Təmənnalar, ricalar məni içdən sarsıdır,
Od-alova bürünmüş yalvarışlar, nalələr
Üz-gözümü qarsıdır,
Bilirəm, onlar üçün mən son ümid yeriyəm,
Onların nəzərində həqiqət əsgəriyəm.
Amma onlar nə bilsin, nə bilsin çoxdan bəri,
Mənim haqqım, gerçəyim zədalət qapısından
Keçə bilmir içəri.
Onlar bilmir, mənim də əlim çatmır hər yerə,
Mən də yol tapammıram ürəkləri daşlaşan
Ruhsuz bimürvətlərə.
Əlimdə haqq qılıncı kəsə bilmir yalanı –
Yeddi başlı ilanı.
Ölkədə haqq qılıncı yaman düşüb kəsərdən.
Qorusun Allah bizi bundan da beşbetərdən.
Ey məni qadir sayıb məndən imdad istəyən,
Ən adicə haqqını qulluq sahiblərindən

Bir mükafat istəyən,
Güvəndiyin mənəmsə, o, məndən qorxan deyil.
Sən onun qabağında boynubükük bir zəlil,
Mən də sənin önündə elə sənin kimiyəm
Nə qüdrət sahibiyəm, nə sərvət sahibiyəm.

Mənim dərdi-sərimi,
Mənim çəkdiklərimi
Çəkə bilsəydin əgər, dərdinə dərd deməzdin,
Əl açıb öz haqqını sən məndən istəməzdin.

*Mart 2001*

## NİYƏ?

Qorxaqdan cəsarəti,
Kobuddan nəzakəti,
Xaindən dəyanəti
Öyrənmişəm həmişə.
Amma lap çoxdan bəri
Məəttələm bir işə:

Niyə minnətdar kimi
Bildirmədim hissimi
Mən ömrümdə bir kərə
Məni öyrədənlərə?

*Mart 2001*

## BİZƏ ATALIQ EDƏN ARZU

*Alman dostum*
**H.P.Əhməd Şmideyə**
*«Arzu fikrə atalıq*
*etməməlidir»*
*Alman atalar sözü*

– Tarixdən qocadır bizim əslimiz,
Dünyanın ən qədim millətiyik biz.
Sənin bu arzuna atalıq edən
Fikrinə, qəsdinə qurban kəsim mən.
Amma atalığın yaxşı, pisi var,
Əyrisi, doğrusu, şübhəlisi var.
Düzü, uydurmadan gələsi xeyri
Ziyanlı gerçəyə dəyişmərəm mən.
Düzü düz görərsən, əyrini əyri,
Çıxsaq fikrimizə atalıq edən
O şirin arzunun himayəsindən.

*Avqust 2001*

## GETDİYİMİZ YOL

İtirmişik kökdən gələn
Əslimizi, mayamızı.
Saqqız kimi çeynəyirik
Abrımızı, həyamızı.

Niyə unutduq dünəndən
Yaxşını götürməyi biz –
Geriyə baxdığın qədər
İrəlini görməyi biz?

Ölü dədə-babamızdan
Biz dirilər küsən olduq.
Nəfsimizin bıçağıyla
Əslimizi kəsən olduq.

Dur, qardaşım, dayan, bacım,
Bir düşünək qəsdimizi.
Bilək, hara aparacaq
Getdiyimiz bu yol bizi.

*Avqust 2001*

## ŞEYTANA PAPIŞ TİKƏN

Yaxşı tanıyıram o namussuzu –
Bir qara quruşa dəyməz gövdəsi.

İlbisə, Şeytana papış tikənə
Demək mümkünmüdür Allah bəndəsi?

Bilməz Vətən nədir, millət nə, dil nə,
Başından yuxarı durar mədəsi.

Dilini yad dilə dəyişdiyindən,
Nə bir amalı var, nə əqidəsi.

Bir dəfə getməyib doğma kəndinə,
Gələr Nyu-Yorkdan, Londondan səsi.

Qayınatasıyla yaşar villada,
Qocalar evində ağlar dədəsi.

*Avqust 2001*

## TƏCAVÜZ

Bülbül cəh-cəhinə bənzər dilimiz
Sökülüb dağılır... Yuxudayıq biz.
Min hava çalırıq bir qoşa simdə,
Pozulur ahəngi səsin, bölgünün.
Həm sözün mənası dəyişir, həm də
Özgə sözlər gəlir bu dilə hər gün.

Mənim öz balamı verin özümə,
Özgə balasını istəmirik biz.
Başıma qapazı endirib, demə
Mənim ətəyimə qoz tökürsünüz.

Talana –«fərasət», çapqına – «fürsət»,
Pay-püşə –«nəzakət». rüşvətə –«hörmət»,
Nəfsini güdənə – «fərsiz», «kor» dedik,
Peşəkar oğruya – «zakon vor» dedik.

Zövq də, əməl də dəyişir bu gün,
Təzə zəkamızın tələblərilə.
Yeni zəmanəylə səsləşmək üçün
Çirkli sözlər dolur bu gözəl dilə.

Sözlərin çirkini görüb qanmadan
Nə qədər istəsən təzə söz dedik:
Qanbir qardaşlara heç utanmadan
Gah «gəlmə», gah «qaçqın»,
                    gah «yeraz» dedik.
Qədimdən var idi at oğurluğu,

Bağça oğurluğu, yurd oğurluğu.
İndi təzə çıxıb, zamana uyğun,
Gözlə gördüyünü danmaq korluğu.

Seçki qutusunda azaldıb çoxu,
Düzlüyə tüpürən səs oğurluğu.
Namus çiynimizə bəlkə yük olmuş,
Həqiqət bizimçün təbərrük olmuş.
Birinin, üçünün, beşinin əli
Bu boyda millətin çıxmır cibindən.
Hamının hamıdan gözü kölgəli,
Oğrular dərs alır «şər məktəbi»ndən.
Qoruğa möhtacdır qoruqsuz dilim,
Onun hər kəlməsi bir zərrin kaşı...
Möhtəşəm saraydır mənim öz dilim,
Görürəm, sökülür hər gün bir daşı.
Naşılar əlində söz oğurlanır,
Kəlmələr zorlanır, nizam korlanır.

Bütöv bir varlıqdır dil də can kimi,
Mənadır hər yumşaq, hər qalın səsi.
Ana dilimizdən bir söz itdimi,
İtir ruhumuzun bir ləl zərrəsi.

Mənəvi sərvətdir hər kəlmə, hər söz.
Namusla xəyanət durub üz-üzə.
Xalqın yaratdığı dilə təcavüz
Ən pis təcavüzdür qeyrətimizə.

*İyul 2001, Şəki*

## BƏS NƏ ZAMAN?

Ayrılıqlar qövr eləyir
Ürəyimin yarasında.
Bu ölkənin Quzeyiylə Güneyinin,
Doğusuyla Batısının arasında
Zaman fərqi yoxsa əgər,
Bu «doğmalar», bu «ögeylər»,
Aradakı didişmələr, çəkişmələr
Bəs, nə demək?
Bu doğmalar, bu ögeylər
Bəs, nə zaman yumruq kimi birləşəcək?

*Avqust 2001*

## BƏSİMDİR MƏNİM

Villalar, saraylar ucalır göyə,
Qapının üstündə «mənimdir» deyə
Ad, soyad yazılır, qoy sənin olsun.
Birin doxsan olsun, yüzün min olsun.

Yarəb, verdiyinə şükr edirəm mən
Şükranlıq – əqidəm, baxışım, dinim.
Bir həzin nəğmədən, bir qızıl güldən
Aldığım zövq də bəsimdir mənim.

*Avqust 2001*

* * *

Niyə zəngin olur əliaçıqlar?
Səxavət bircəni döndərir minə.
Pul böyük nemətdir, bircə şərti var:
Pulu cibinə qoy, qoyma qəlbinə

*May 2001*

* * *

Körpə beşiyində qəsdsiz, qərəzsiz,
Kindən, küdurətdən uzaq, tər-təmiz.
Ana üçün belə anlaşılmayan,
Yalnız mələklərə gizli qalmayan
Bir dillə qığıldar...De, nədir bu dil?
Bəlkə, mələklərin dilidir bu dil?

*May 2001*

## VƏHŞİ MƏDƏNİYYƏT

– Salam.
– Salam.
– Necəsən?
Əslində, bu sualdan yox ürəyin xəbəri.
İndi hər şey ürəksiz, indi hər şey ötəri.
Soran var, içdən gələn tələblə sorduran yox,
Başqasının qəlbinə ürəklə baş vuran yox.
Çox şey eyni boyada, görünən ağ ağ deyil,
İndi kimsə kimsənin dərdinə ortaq deyil.
Boyalar, ağ boyalar qaraları boyalar,
Ürəklərlə dillərin arsında çuxur var.
Adlayanı görmədim çuxurlardan o yana,
Özgələşib, yadlaşıb indi insan insana.
Sən də yalan deyirsən, mən də yalan deyirəm,
Yalanla doldururuq o çuxuru, çalanı.
Sən də pərdələyirsən, mən də pərdələyirəm
Sözün ağ boyasıyla dediyimiz yalanı.
Gözümüzü yaşardır yalanların tüstüsü,
Yalanın zülmətindən görə bilmir göz-gözü.
Yaxşılığı tapdayıb çox şey gedir pisliyə,
Gözəldən çirkinliyə, bütövdən naqisliyə,
İşıqdpn qaranlığa,
Abaddan viranlığa.
Yaşamırıq ürəklə, dolanırıq biz belə,
Üstəlik, əl çalırıq, bu əllərin səsilə
Batırırıq gerçəyin, haqqın, düzün səsini –

Qanımızda qışqıran könlümüzün səsini.
Sabir qəhqəhələrlə ağladı cəhalətə,
Mənsə göz yaşlarımla qəhqəhələr çəkirəm
Vəhşi mədəniyyətə.

*İyul 2001, Şəki*

## GÖZÜMLƏ GÖRMƏDİKLƏRİM

Bu gündən bezəndə dünəni andım,
Qəlbimiz möhtacdır təsəllilərə.
Dünyadan o qədər bıqdım, usandım,
Həsrətlə baxıram ötən illərə,

İnam çeşməyiylə baxırkən birim
On olur, çoxalır xeyrim şərimdən.
Allahım, gözümlə görmədiklərim
Gerçəkdir gözümlə gördüklərimdən.

*Mart 2001*

## TABUTLAR GƏLİR

*Əsgərliyə gedəndən 10 gün sonra*
*tabutu evə göndərilən* ***Tural Bilal***
***oğlunun*** *faciəsinə həsr olunur*

Bir dəri, bir sümük mənim əsgərim,
Özü özünə yük mənim əsgərim
On gündür ayrılıb doğma elindən.
Onun taqətini alıb əlindən
Ehtiyac, ehtiyac, qara ehtiyac.
Evdə ac, çöldə ac, əsgərlikdə ac.
Yeməklər bekara... o doya bilmir,
Əsgər çantasını daşıya bilmir.
O, elə taqətsiz, elə zəif ki,
Adicə yerimək zülmdür ona.
O tablaşa bilmir, o dözə bilmir
Hərbi təlimlərin ağırlığına.

Əsgəri and içdi bayraq önündə.
«Bu el, bu məmləkət mənimdir», – deyə.
Amma neyləyəsən, o, bircə gün də
Yurdun keşiyində dura bilmədi.
Xəyallar, diləklər, arzular röya,
Həqiqət əyilir, əyri düzəlir.
Rüşvətin gücünə bu gün orduya
Arxasız, adamsız, xəstələr gəlir.

Gecələr dərdini o deyir aya,
Gündüzlər zabitə... Məhəl qoyan yox.

Nəhayət, o düşür xəstəxanaya,
Heç demə, əsgəri adam sayan yox.
Milləti qoruyan əsgərimizin
Haqqını bəs niyə bir qoruyan yox?
Axı, bizimkidir bu el, bu Vətən,
Əlhəzər, əlhəzər biganəlikdən.
Budurmu ölkənin səfərbərliyi?
Vətəndaş dözməyir «Vətən zülmünə».

Onun əcgərliyi, onun ərliyi
Dəmir çarpayıda bitdi on günə.
Atəşkəs dövründə yenə ah-aman!
Əsgər evlərindən fəryad yüksəlir.
Düşmənə tək bircə güllə atmayan
Ordudan ölkəyə tabutlar gəlir.

*İyul 2001*

## BİR CANIN İÇİNDƏ...

Gör, məni Allahım necə yaratmış –
Sağım sakit hava, solum boran, qar.
Zülmətdə oyağam, işıqda yatmış,
Bir canın içində neçə halım var.

Bəllidir, görünməz içim hər gözə,
Çölüm xəbərsizdir çəkdiklərimdən.
Ruhumda, duyğumda hər gün bir təzə
Qitəni kəşf edən bir səyyaham mən.

Tapdığım qitədə yer zolaq-zolaq,
Çayırlar, çəmənlər, dərələr, dağlar.
Torpağın üstünü görürəm, ancaq
Torpağın altından nə xəbərim var?
Gör, məni Allahım necə yaratmış –
Zülmətdə oyağam, işıqda yatmış.

*Mart 2001*

## SÜKÜT, XƏYAL, MƏHƏBBƏT

Mən süküta köçmüşəm, sükut – mənim oylağım.
Mən xəyala köçmüşəm,
Xəyal – arzularımı həqiqətə aparan
Əlimdəki bayrağım.

Xəyal – göydə qanadım,
Yerdə çapan Qıratım,
Dənizdəsə yelkənim.
Sükut – məbədim mənim!
Bezmişəm bu dünyanın haylı-küylü səsindən,
Sanıram, qurtarmışam yerin cazibəsindən.
Dünya ilə dünəndən öz əhdimi qırmışam,
Mən özümü sükutla xəyala tapşırmışam.
Yerdə hər şey ölçülür, hər şeyin bir həddi var,
Yerdə dəryaların da öz cəzri var, məddi var.
Yerin qanunlarına baş əyməyən xəyalım
Mənim sonsuz eşqimi hədsizliyə daşıyır,
Sükutumla qol-qola orda rahat yaşayır.
Bu həyatın şərti yox,
Varla yoxun dünyada mənim üçün fərqi yox.

Qovuşduğum sükutu amma eşidirəm mən.
Eşitdiyim bu sükut daha güclü səslənir
Dünyanın səs-küyündən.
Bəlkə, mənim içimdə toqquşan duyğuların
Zil səsidir bu sükut,

Arzumun qarşımdakı əngəllərə vurduğu
Zərbəsidir bu sükut.
Xəyal, sükut, məhəbbət – şərəf yolum, şan yolum,
Bir çərçivə içində hansısa bir həddədir.
Sükutun fəryadını eşidənlər, duyanlar
Sonsuz ibadətdədir.

*Aprel 2001*

## ƏN AĞIR DAŞ

Gözümdə göllləndi, güllləndi yaşlar,
Dağıldı başımdan dostlar, tanışlar.
Bədbəxtlik – ürəyə çarpaz dağ çəkən
Təkliyin zamanda əkiz qardaşı.
Təklik – könül sıxan, təklik – bel bükən,
Dünyanın ən böyük, ən ağır daşı.

*Fevral 2001*

## AXTARIRAM

Mənim zəhləm gedir günəşli gündən,
Duman axtarıram, çən axtarıram.
Həmahəng olmaqçın öz içimlə mən
Yerdə də, göydə də «mən» axtarıram.

*İyul 2001*

## BİZİM SABAHIMIZ – KÖRPƏLƏR

Yollarda dilənən körpə balalar
Bizim bu millətin, bu Vətənindir.
Ölkənin sərvəti, bu dövlət, bu var
Dilənən körpənin, həm də sənindir.
O sənə əl açır, ona baxsana.
Sən isə üzünü tutursan yana.
O sənə ərk edib səndən pay umar,
Ürək əvəzinə daşmı sinəndə?
Yığdığın sərvətdə, axı, haqqı var
Səndən pay istəyən o körpənin də.

Bizdə vəzifə də alverə dönmüş,
Belə bir ticarət harda görünmüş?
Xeyrinə işləyir hələlik zaman,
Gözündə nəşədən ildırım çaxır.
Millət dərədədir, kürsüyə qalxan
Elə bil millətə zirvədən baxır.
Hərraca qoyulan bu yazıq ölkə
Sizin dədənizin mülküdü, bəlkə?

Bu məsum körpələr bezib canından,
Dünyanın yükünü çiyninə almış.
Bir parça çörəkçün yanıb qınında,
Hələ uşaq ikən sınmış, qocalmış.

Görmürəm qarşıda bir ümid, işıq.
Biz də qaraltmışıq üz ağlığını.

Həqiqət budursa, oğurlamışıq
Biz bu körpələrin uşaqlığını.

Onların mənliyi tapdandı erkən,
Analar ağlasın indi bu dərdə.
Onlar dərslərini öyrənməliykən,
Dilənmək öyrənir bu küçələrdə.

Bizim sabahımız bu körpələrin
Sabahı indidən yağmalanıbdır.
Onların gözündə göyün, həm yerin
Bütün əzabları topalanıbdır.
Sən bunu nə görür, nə də duyursan,
Günlük qazancını hesablayırsan.
Sən azdın yolunu, itirdin yönü,
Nəfsinin ağzına verdin könlünü.
Dilənçi körpənin gözünə baxsan,
Azdığın yolunu sən tapacaqsan.

*May 2001*

## BİLMƏMƏK

Meşədə azmışam... dərdi-qəmimlə
Gəzib arayıram əvvəli sondan.
Bilirəm, atdığım hər qədəmimlə
Daha çox azıram haqqın yolundan.

Baxınca ömrümün döngələrinə,
İçimdə qəribə gilü-qal doğur.
Cavab axtarıram, cavab yerinə
Bircə sualımdan min sual doğır.
Cavab axtarıram, sualsa min-min,
Mən cavab eşqində, sonudur ömrün.
Bircə sualıma cavab verənin
Əlini öpməyə hazıram bu gün.

Bilmək istəyirəm, axı, mən nəyi?
Bilirik, biz yalnız bircə gerçəyi:
Sonu ölüm olan bu həyat – röya,
İndidən mənimçün yoxdur bu dünya.
Bildiyim bu gerçək gəlmir karıma,
Cavab tapa bilmir suallarıma.
Neçə xoşbəxt idim bilməməyimdən,
Nəyimə gərəkmiş bilmək, bilmirəm.
Bilib, bir mətləbi dərk elədim mən:
Bilmək dərd calayır dərdimə hər dəm.
Bilənlər dünyada bir şeyi bilmiş:
Bilməmək bilməkdən daha gözəlmiş.

*Aprel 2001*

## İSTƏYİM BUDUR

Oturub rəqiblə bir gün üzbəüz,
Mən deyim, o desin meydan qurulsun.
Rəbbim, düşmənimi nə məndən gücsüz,
Nə güclü istərəm, mənə tən olsun.

Düşünsün ağıllar, danışsın dillər,
Olmasın arada nə kin, nə qürur.
Bu haqdır, gücümüz olsa bərabər,
Gerçək zəfər çalar, istəyim budur.

*May 2001*

## GÖZÜMÜ YUMSAM DA...

Hələ uşaq ikən könlümü verdim
Qanadlı xəyala, sadəliyimdən.
Gözümü yumanda elə bilirdim
Heç kəs məni görmür, görmürəmsə mən.
Gör, hara çatdırdı bizi bu dövran
Qarışıb zülm ilə haqqın hədləri.
Görmək istəmirəm indisə bir an
Gözümlə gördüyüm müsibətləri.

İtib hədd-hüdudu dərdi-sərimin,
Könlümdə yas tutur min dərd, min fikir.
Axı, mən neyləyim, gördüklərimin
Göynək ağrısını ürəyim çəkir.

Necə də puç oldu şirin xəyallar,
Dünya qan ağlayır, zaman hönkürür.
Gözümü yummağın nə mənası var,
Gözümü yumsam da, ürəyim görür.

Yarəb, ürəyimə necə deyim mən:
Səni sən eləyən xalqa nankor ol.
Axı, nə gələcək sənin əlindən,
Ürəyim, eşitmə, ürəyim, kor ol.

İtirdim sadədil uşaqlığımı
Durub göz önündə çılpaq həqiqət.

Gözümü yumsam da görəcək, axı,
Məni də, çəkdiyi zülmü də millət.

*May 2001*

## YEGANƏ TƏSƏLLİM

Görmədim kimsəni dərdsiz, cəfasız
Nə ümid yeri var, nə bir təsəlli.
Üzürəm dənizdə qiblənümasız
Nə qibləm bəllidir, nə yönüm bəlli.
Yol çəkmiş, yol çəkir daim gözlərim,
Nəyi gözləyirəm? Yol bağlanıbdır.
Yeganə təsəllim olsa da şerim,
O da iztiraba qundaqlanıbdır.

*Aprel 2001*

## HÜRRİYYƏTİM

Tamahdan ucadır eşqim, fitrətim
Zingənəm, köksümdə sinə dağım var.
Mənim nə keçmişdən bir şikayətim,
Nə də gələcəkdən umacağım var.

Mənim öz kimliyim bəraətimdir
Qaram öz qaramdır, ağım öz ağım.
Mənim ən möhtəşəm hürriyyətimdir
Vicdan pərisinə əsir olmağım.

*Aprel 2001*

## ALLAH, MƏNİ BELƏ AĞLAT

*(Avqustun 24-də*
*«Türk ulduzları»nın Bakı*
*səmasında uçuşu münasibətilə)*

Öz halal «Türk ulduzlarım»
Uçdu mənim öz göyümdə.
Aslan gücü, pələng əzmi
Duydum o gün biləyimdə.
Mənə barmaq göstərənə
Öz yerini bəllətdilər.
Onlar Bakı səmasına
Ürək şəkli rəsm etdilər.

Dedilər ki, sizinlədir
Daim bizim ürəyimiz –
Hər eşqimiz, diləyimiz.

Sən ey mənə güc göstərib,
Hərdən məni hədələyən!
Onlar sənə göstərdi ki,
Tək deyiləm dünyada mən.
O gün baxıb göydə süzən ulduzlara,
Mən özümü arxalı bir dağ sayırdım,
Sevincimdən ağlayırdım.
Biz bir daha dərk elədik
Nədir inam, nədir inad.
Mən ağladım sevincimdən,
Allah, məni ağladanda, belə ağlat.

*26 avqust 2001*

## TANRI TÜRKÜ QORUSUN

*(Bizim bu duamıza*
*qarşı çıxanlara)*

Türk oğlu tarix boyu
Xeyirdən, şərdən keçib.
Zaman türkü qoruyub,
Türk min illərdən keçib.

Türk deyib ta qədimdən
Tarixə öz sözünü.
Savaş meydanlarında
O yaradıb özünü.

Tarixlə bir yaşdadır
Bizim tarix yaşımız.
Nədən səni qorxudur
«Tanrı türkü qorusun» –
Duamız, alqışımız?

Mən anlaya bilmirəm,
Türk oğlusansa özün,
Türkün qorunmasından
Niyə hürküyə düşdün?

«Tanrı türkü qorusun»
Atılan daşmı sənə?

Bizim bu alqışımız
Söylə, qarğışmı sənə?

*Sentyabr 2001*

## MƏNİ GÖZÜYAŞLI QOYMA, ALLAHIM!

İlahi, balamın dərdi, bəlası,
Davası – dərmanı bəllidir sənə.
Sənin əlindədir onun xilası,
Möhtacıq rəhminə, kəramətinə.

Nə həkim, nə dava, nə dərman, Allah,
Bizim hamımızın gümanı sənsən.
Üzmə əllərimi dərgahdan, Allah,
Dərdi verən zaman, dərmanı sənsən.

Uçurma, Allahım, ümid qalamı,
Arzumu ovcumda sən qum eyləmə.
Gümanım, imanım sənsən... Balamı
Dünya işığından məhrum eyləmə.

Özün bilirsən ki, nə çəkirəm mən,
Ərşə dirək olub amanım, ahım.
Rəhmini günahkar bəndələrindən
Əsirgəmə, bizi əfv et, Allahım!

Artır istəklərim, artır ilbəil,
Övlad sərvəridir təmənnalarım.
Bu istək adicə bir istək deyil,
Görən gözləridir təmənnaların.

Heyrət bu məqamda onun səbrinə,
O, dözür çəkdiyi dərdin cəbrinə.
O mənə təsəlli verir durmadan,
Mən ona təsəlli vermək yerinə.

Arzusu gülən vaxt tuş oldu dərdə,
Onu gəncliyinə qıyma, Allahım!
Balamla sevinib-güləsi yerdə,
Məni gözüyaşlı qoyma, Allahım!

*Noyabr 2001*

## YAĞ, EY YAĞIŞ

Yağ, ey yağış, yağ, ey yağış,
Usandırdı həyat məni.
Təmizlənmək istəyirəm,
İslat məni, islat məni.

Əs, ey rüzgar, əs, ey rüzgar.
Gəl, sığal çək yanağıma.
Həm xeyrimi, həm şərimi
Sən pıçılda qulağıma.

Dolan bulud, boşal görüm,
Dağlar çəkdi həsrət mənə.
Yağışa dön, üstümə yağ,
Boşalmağı öyrət mənə.

Aç, ey çiçək, aç, ey çiçək,
Sənə baxıb, könül dinsin.
Arzularım sənin kimi
Çiçəklənsin, təzələnsin.

*Noyabr 2000*

## QƏM ÖZÜ TAPIR MƏNİ

Dünya qəmlə yoğrulub,
Qəm – dünyanın yaşdaşı.
Qəm mənim sirdaşımdır.
Ya mən qəmin sirdaşı?

Harda bir dərdli görsən,
Sən o yerdən sor məni.
Mən qəmi axtarmıram,
Qəm özü tapır məni.

Qəmim – sevinc qaynağım,
Dərdim – könül sirdaşım.
Axır damarlarımdan
Qan yerinə göz yaşım.

Dərd məni tək qoyanda
Qonşudan dilənmişəm.
Qundağa bələnmədim,
Dərdimə bələnmişəm.

*Sentyabr 2000*

## MƏNİM DUAM

Ulu tanrım, hifz elə
Hər bəladan sən bizi.
Bir müqəddəs eşq ilə
İşıqlat qəlbimizi.

Ulu tanrım, hifz elə
Bizi düşmən şərindən.
Qara bulud dağılsın
Vətənin göylərindən.

Batsın mahnı səsindən
Güllə səsi, top səsi.
Bir körpənin üzünə
Düşməsin qəm kölgəsi.

Mahnılar pıçıldasın
Əsən rüzgar, axan su.
Bu torpaqdan gəlməsin
Bir də barıt qoxusu.

Sular axsın, durulsun,
Yurdumuz cənnət olsun.
Millətimiz dünyada
Bəxtəvər millət olsun.

*Oktyabr 2001*

## MƏNİ YALQIZ QOYMAYIN

Məni yalqız qoymayın,
Adamlar, ay adamlar.
Sizinlə dərdləşməyə
Necə ehtiyacım var.

Mən təklikdən qorxuram,
Tək bir dərdim min olur.
Yamanlaşır yaxşılıq,
Mələk dönüb cin olur.

Bir dərddən qurtarmadan,
O biri ağlar gəlir.
Öz-özümdən qaçıram,
Dünya mənə dar gəlir,
O da mənə ar gəlir.

Tək qalıram gecələr,
Məndən qaçır yuxu da.
Bəs, eləysə, kiminlə
Mən dərdləşim, ey xuda?

Ey mənimtək yuxusu
Ərşə çəkilən oyaq!
Sən oyaqdan de, necə
Xəbər tutum mən oyaq?

*İyun 2001*

## QAFİLƏMMİŞ, HEÇ DEMƏ

Haçalanmaq qoymadı
Yolu inamla gedəm.
«Dayan!» – dedi insafım,
«Yürü!» – dedi əqidəm.

Onlar durdu üz-üzə
Düşmən kimi, yad kimi.
Bir vaxt gördüm insafım
Yıxdı öz əqidəmi.

Zaman keçdi, anladım,
Qafiləmmiş mən, demə.
Məzluma zülm elədim,
Rəhm edirkən zalimə.

Demə, insaf, mərhəmət
Haqq yoluna sədd imiş.
Rəhm – yarı ədalət,
Yarı cinayət imiş.

*May 2001*

# AĞ ATLI OĞLAN

At – muraddır deyərlər,
Öz adıma çatmadım*.
Yuxuda at görərdim,
Muradıma çatmadım.

Atı bir çəngə otla
Mən tovlaya bilmədim.
Qaçdı, onu bir dəfə
Cilovlaya bilmədim.

At qaçdı, gücüm hanı
Bəxtimizi oyada?
Çoxdan bəri bu millət
Piyadadır, piyada.

Nağıllardan sevdiyim
Ağ atlı oğlan hanı?
Gəlib, sahmana salsın
Bu nizamsız dünyanı.

*Sentyabr 2001*

---

*Adım Bəxtiyardır, amma bəxtiyar olmadım.

## İNAMDAN İMANA

İnamım – o gözə görünməzlərə
Əvvəlcə atamdan, anamdan gəlir.
Əl açdım göylərə, baş vurdum yerə
İmanın özü də inamdan gəlir.

İnamım olsa da, duydum fəhmdən
Könül başqa səmtə səsləyir məni.
Gördüm ki, özümlə savaşdayam mən
İçimdə nəfs adlı qurd yeyir məni.

O şeytan qurduna qələbə çalmaq
Anladım, mənimçün mərama dönmüş.
Savaş uzun çəkdi, gördüm ki, ancaq
Günüm, güzəranım harama dönmüş.

Qərəzkar olmasaq heç kimə qarşı,
Çevirə bilərik dosta düşməni.
Anladım: inamım nəfsimə qarşı
Ən böyük cihada* çağırır məni.

Getdim bu çağrışın arxasınca mən
Yolum sirr, itkim sirr, qazancım da sirr.
Amansız həmlələr...Bu çək-çevirdən
Necə çıxdığımı bir Allah bilir.

*Peyğəmbər müşriqlərə qarşı cihaddan zəfərlə qayıdandan sonra əshadələrinə "kiçik cihaddan qurtardıq. Bundan sonra nəfsimizə qarşı ən böyük cihada başlamalıyıq." - demişdir.

Duz yeyib yatanlar nə dağ, nə dərə,
Röyada su görər, təşnədir suya.
Allah sevgisiylə yanan kəslərə
Allahı göstərir gördüyü röya.

Yollar ayrıcında durub çox zaman
Hansıyla getməyim suala dönür.
Atdığım o yalnış addımlarımdan
Həyat mənim üçün zavala dönür.
Savaşan kimlərdi?..Bildim çox gözəl
Dərk edən ağılla duyan ürəkdir.
Məzar gömrüyündə bizdən ən əvvəl
İman vəsiqəsi istənəcəkdir.

Çoxdur günahlarım, bilirəm bunu
Tövbədə bitməli günahın sonu.
O zaman əlllrim açılır göyə
– Allah, vəsiqəmi qəbul et – deyə.

*Noyabr 2002*

## DÜNYA QÜRBƏT DİYARI

Həyat başdan-ayağa bir ömrün macərası
Dünyaya gəlişimlə gedişimin arası.
Fərəhlə aldadılmış, qəm-qüssəylə ödənmiş,
Bizim gəldiyimiz yer, demə, əsl vətənmiş.
Dünya qürbət diyarı, mənsə Vətən sanmışam,
Dünyanı Vətən sanıb, dünyada aldanmışam.

*İyul 2002*

## ÖZÜMÜ YAZMIŞAM

Bu günlə üzbəüz oturanda da
Sabaha dikmişəm gözümü ancaq
Başqa könüllərə baş vuranda da
Özümü yazmışam, özümü ancaq

*Aprel 2002*

## HƏYAT BİR OYUNSA...

«Həyat bir oyundur» – dedin... o zaman
Dünyada xeyirdən çox, şərimiz var.
Oyun zamanında müdam dalaşan
Cığal uşaqlara bənzərimiz var.

Uduzmaq istəməz oyunda heç kəs
Udmaq arzusunda aldatmaq da var.
Bizi qızışdırır ehtiras, həvəs
Çox vaxt unuduruq, axı, haqq da var.

Qayədir, amaldır ən çox dilək də
Qayənin başında tacdırsa Vətən.
İlahi bir məqsəd yoxsa ürəkdə
Dünya əyləncədir, bizsə əylənən.

*May 2002*

## İKİ MƏCHUL
## BİR MƏLUMU

Ömrün yoxuş yollarını çıxa-çıxa
Gəlib çatdım körpəlikdən qocalığa.
Nə qazandım nə itirdim
Nəyi aldım, nəyi verdim?
Təkcə bunu anladım ki,
Həyat özü yoxdan yoxa bir yol imiş,
Əvvəli də məchul imiş,
Axırı da məchul imiş.
Tutub getdim qədər verən öz yolumu.
Bunu  bildim: Aça bilməz
İki məchul bir məlumu.

*2001*

## GÜL VERƏN ƏL

Onda qəzəb vardı, səndə xoş qılıq
O, pislik elədi, sənsə yaxşılıq
Pisliyin əvəzi yaxşılıq oldu
Qəzəb unuduldu, kin unuduldu.

Mən bu barışığı gözümlə gördüm
Yaxşılıq dərsindən ibrət götürdüm.
Sən də bir insansan, o da bir insan
Nə sən ondan əskik, nə də o səndən.
Yaxşılıq gətirər yaxşı əməl də,
Gül qoxusu qalar gül verən əldə.

*Avqust 2001*

## PEŞİMAN OLMAYAQ

Sağlam can vermişdin, Allah, sən mənə,
Bu canı mən indi viran görürəm.
İti göz vermişdin sən öz bəndənə,
İndi bu dünyanı toran görürəm.

Otun pıçıltısı, mehin əsməsi,
Bir zaman çatardı qulaqlarıma.
İndisə havada kəsir səs səsi,
Səsi eşidirəm, sözü yox amma.

Var ikən canımda gücüm, qüdrətim,
Ağlım işləməzdi dərinliklərə.
İndi nə gücüm var, nə fərasətim,
Amma əl uzadır ağlım hər yerə.

Axtarar gecədə gündüzü insan,
Çox zaman qədəri qədərdə görmür.
Bu da tarazlığın bir üzü, insan
İki xoşbəxtliyi bir yerdə görmür.

Allah, yaratdığın bu hikmətləri
Necə dərk eləyib heyran olmayaq?
Verdiyin hər şeyi alırsan geri,
Dünyadan köçməyə peşman olmayaq...

*Noyabr 2002*

* * *

Zora nöqtə qoyub ayrı sifətli,
Ayrı qiyafəli bir zora düşdük.
Bunun hər ikisi min bir qələtli
Yağışdan qurtarıb, yağmura düşdük.

Gün doğdu, doğmadı üfüqdən səhər
Qatı qaranlıqdır yenə dörd yanım.
Azadlıq, istiqlal bu imiş məgər,
Ay başı bəlalı Azərbaycanım?

Bu təzə dövrana baxıram gendən
Aldadan aldadıb bizi yamanca.
Simləri sapdanmış, pərdəsi göndən
Çalıram, çalınmır amma kamança.

Qan sormaq! Bu da bir başqa xəstəlik
Nə namus bilirlər, nə ar, nə vicdan.
Xalqın dərisini soyub, üstəlik
Təşəkkür umurlar hələ bu xalqdan.

*Noyabr 2001*

## DİLİM DOLAŞMASIN

*Oğlum Hacı Azərə*

İlahi, əllərim açılıb sənə
Hər gecə üzümü tutub qiblənə
Yalvarçın olmuşam... Əfv et sən məni,
Götürmə üstümdən bir an kölgəni.
Özümü bilincə sənə yönəldim,
Günahdan sıyrılıb tövbənə gəldim.

Gözüm sataşanda aynaya hərdən
Qoyma ki, utanım özüm özümdən.
Aynaya baxanda əgər ütansam,
Ömrümdən hansısa bir günü ansam,
Demək, anlamışam öz günahımı,
Xəcalət təri bil mənim ahımı.

İndi bu halımla mən ahu-vayam
Günahla tövbənin arasındayam.
Hesab istəyirəm indi özümdən
O kəsin halına acıyaram mən –
Nə suçunu bilir, nə tövbəsini,
Bilmir haqq yolunda mərtəbəsini.

Ən böyük günahım: Hələ gənc ikən
Ötəri dünyanın dəbdəbəsindən
Gözüm xumarlandı, ondan kam aldım
Dedim, bu, haqqımdır, mən də insanam

O biri dünyanı unutdum tamam.
Mən adi insanam, xeyrim-şərim var,
Yaxşı da, yaman da, əməllərim var.
Rəhm et, əsirgəmə rəhmini məndən
Sən bilən, sən görən, sən eşidənsən.
Məni haqq yolundan döndərmə, Allah!
Məni çamurluğa endirmə, Allah!

Rəhm et, əsirgəmə rəhmini məndən,
Sənin himayənə möhtacdı bəndən.
Bir an ayrı salma özündən məni,
Daim ucalığa qaldır sən məni.
Uçur mələklərin qanadlarında
Sənin qatındadır şərəf də, şan da.
Səni dərk etməsəm, şərəfim də yox
Fəhmi də, dərki də sənə borcluyuq.

Sən özün gözlərə görünməz ikən
Hər yerdə var olub, bizi görənsən.
Təmizlənmək üçün cilalanmamaq,
İşlənən günahı günah sanmamaq
Soyuq könüllərdə fitnə – fəsaddır,
Qanmayıb yaşamaq necə rahatdır.
Belə rahatlığı istəmirəm mən,
Xilas et könlümü bu cəhalətdən.
Mən səni görürəm ürəyimdəki
İnsafım, mürvətim, vicdanım təki.
Harda başlayırsa amanım, ahım
Demək, yanımdadır mənim Allahım.
Özüm də qorxuram öz qəlb ahımdan

Ya Rəbbim, adilsən, keç günahımdan.
Sənin dərgahına uçaraq gəlim,
O biri dünyaya üzü ağ gəlim.
Durum əli bağlı sənin önündə
Dilim dolaşmasın hesab günündə.

*Noyabr 2002*

## DƏRDİM – USTADIM OLDU

İztirab istəmişdim sahibimdən bir zaman*
Mən yenidən doğuldum çəkdiyim iztirabdan.
O gündən ey dərdlərim, mənim sirdaşımsınız
Məni bir insan kimi min bir sınağa çəkən
Siz məhək daşımsınız.
Dərdim məni böyütdü.
Yarışdıq,
gah mən onu,
gah da o məni ötdü.
İztiraba dözümü mən kimdən öyrənmişəm?
Bildiyim hər nə varsa, dərdimdən öyrənmişəm.
Mən təpədən dırnağa cism deyil, duyğuyam,
İtirib qazandığım dərdlərimə borcluyam.
Gündüzlər gecələrdən, bahar da qışdan doğur,
Həqiqətlər yalandan, düz də yanlışdan doğur.
Çırpıldıqca daşlara lilli sular duruldu.
Alın yazım, qədərim,
Qəmim, dərdim, kədərim,
mənim ustadım oldu.
Dərdlərimdir yazdıran mənə şerlərimi
Kağızlara tökməsəm mən öz dərdi-sərimi,
Əgər daşa söyləsəm, daş əriyər mum kimi.
Mən dərdimdən qaçanda hər an məni qəm izlər
Göz yaşlarım ömrümü günahlardan təmizlər.
Qol-qola yol gedirik gizli qorxularımla,

*"Mənə iztirab ver" şeirimə işarədir.

Sirli təlaşlarımla.
Mən çölləşən ruhumu suvarıram, Allahım,
İndi göz yaşlarımla.
Dərdim öz adım oldu
Dərdim ustadım oldu.

*Oktyabr 2002*

## NƏDƏN?

*Xeyirxah və dəyanətli insan,*
*ləyaqətli dost K. Rəhimliyə*

Dünyanı sığdırıb sən körpü çatdın
İki nöqtə boyda göz qarasında.
Bu sirli nizamı neçə yaratdın
Ya Rəbbim, ərş ilə fərş arasında?

Sənin haqq yolunu azdım, az qala,
Dara çəkilirəm şübhələrimdən.
Özüm də bildiyim günahlarımla
Sənin dərgahına necə gəlim mən?

Ulduzlar fırlanır, Günəş dövr edir
Onları hərlədən hansı qüvvədir?
Hərənin öz yolu, öz dövranı var
Sənin iradənlə hərləndiyindən,
Azmır öz yolunu bu fırlananlar.
Amma biz insanlar azırıq, nədən
Sənin düz yolunu, haqqı görmədən?

Axı, səmadakı ulduzlar kimi,
Allahım, bizi də sən yaratmısan.
Sənin iradənə təslim deyilmi
Sənin yaratdığın bu kamil insan?

*Yanvar 2002*

## İLAHİ NUR

Əvvəlini bildiyim uzun bir səfərdəyəm,
Özüm özüm üçün də gizlicə bir pərdəyəm.
Yolun başlanğıcından yolun sonu görünmür.
Allahım, qullarına bəxs etdiyin bir ömür
İki dünya arası gedən dolama yoldur.
Yarəb, ilahi nurla mənim qəlbimi doldur,
Yoxsa, gündüzlərim də qaranlığa bürünər,
Bu dünya başdan-başa mənə zülmət görünər.
İlahi nur, sən çilən, ürəyimi işıqlat
Axirətə yol olsun –
Allahın bəndəsinə bəxş etdiyi bu həyat.

Dua etdim Allaha, könlüm işıqla doldu,
Dünyam bir cənnət oldu.
Zənn etdim ki, bu işıq məni axirətimə
Aparacaq o yoldu...

*Yanvar 2003*

## GÖZLƏ GÖRƏ BİLMƏDİYİNƏ İNANMAYAN DOSTA CAVAB

Ey dost, birdən-birə keçib zil simə
Dedin: – İnanmıram görmədiyimə.
Dedim: – sən arifsən, mənsə bir avam,
Gözlə gördüyümə mən inanmıram.
Bilmirəm, gözümə görünən dünya
Əslində, gerçəkdir, ya sirli röya?

Enişli-yoxuşlu bir ömür sürüb
Bildim, sağ-solumdur xeyirim, şərim.
Ən böyük gerçəkdir ağlımla görüb,
Amma gözlərimlə görmədiklərim.
Göz bizi aldadır, ağla borcluyuq
Ağlın gözləri var, gözün ağlı yox.

*2003*

# OYAQLIQ

Dolan mən, boşalan mən,
Boşalan mən, dolan mən.
Ən şirin arzuları
Röyalarda bulan mən.
Qat-qarışıq dünyada
Nə tapmışam, bilmirəm.
Uçuram, yüksəlmirəm.
Ey şirin röyalarım,
Siz bu dağdan o dağa
Qanadlanan nursunuz
Məəttələm bir şeyə:
Niyə çin olmursunuz?
Nəhayətdə anladım:
Həqiqət haqdan keçir.
Röyaları gerçəyə
Çevirməyin tək yolu
Oyaq qalmaqdan keçir.

*Fevral 2003*

## ÇUXUR

O vaxt ki, özümlə özüm görüşdüm,
İçimdə açılan çuxura düşdüm.
Çuxurdan çıxmağa can atınca mən,
Daha dərinliyə getdim və batdım.
Yatan duyğuları oyadınca mən
Bilmədən, özümü özümə satdım.

Bir düşmən kəsilib indi mən mənə
Özümdən özümə nədir bu qınaq?
Ey məni tanımaq istəyən, mənə
Tən gözüylə deyil, can gözüylə bax.

Can gözün yox isə kimdir günahkar?
Batdığım çuxurdan nə xəbərin var,
Nə də dünyamızın istəklərindən.
Sən hardan biləsən nə çəkirəm mən.

Can gözün var isə, uyma dövrana,
Uysan, zamana da «dur» deyəcəksən.
Can gözün yox isə, mən də bir yana
Sən heç özünü də görməyəcəksən.

*Fevral 2003*

## MÜXALİFİMƏ CAVAB

Yazıram gördüyümü... Gerçəyi görməkmi qüsur?
Belə qorxursan həqiqətdən əgər, sən yana dur.
Sən vətənpərvər imişsən, mənim heç xəbərim yox.
Mən vətən düşməni, Yarəb, bu imiş son dəyərim?

Günəşin rənginə artıq qara göylər boyanır
Çıxacaq ağ günə gec tez, belə qalmaz, vətənim.
Mənim üsyanımı mən tək düşünən doğru sanır.
Zülmə üsyan eləmək tanrıya səcdəmdi mənim.

*Mart 2003*

## ӘZAN SӘSİNӘ SӘCDӘ

Evim sükut içində, saat vurur taqqataq.
Hamı yatır mışhamış, təkcə mənəm, mən oyaq.
Gecələr – sirdaşımdır, gecələr – həmsöhbətim –
Gecələr, gecələrdə qazandığım sərvətim –
Şerlərim, sözlərim, sonsuz xəyalım mənim,
Gecələr dünya ilə min həsbi-halım mənim.
Mənimçün həm sevincdir, həm ələmdir gecələr
Öz könlümə açılan pəncərəmdir gecələr.
Yalqızlığın içində özümlə baş başayam,
Bölünürəm ikiyə, gah bu tay, gah o tayam.
Mənim ən xoş əhvalım-özümlə söhbətimdir
Bəzən də lap özümdən özümə qeybətimdir.
Qulağımda səslənir sükutun min çaları
Gecələrin hərfsiz, sözsüz pıçıltıları...
Uçur fikrim-xəyalım, uçur qolum-qanadım
Gecələrlə başlanır mənim əsl həyatım.
Neylim? Yuxu haramdır, mənə haram, gecələr
Mən bir insan ömrünü yaşayıram gecələr.

Gecə sükut içində... Yer göy yuxuda... Birdən
Açılan ələ bənzər uca minarələrdən
Gəlir qulaqlarıma «Allahu-Əkbər» səsi
Bu, göylərin səsidir, ola bilməz yer səsi.
Bu səsdə zaman-məkan bir-birinə qarışır
Bu səsin tilsimiylə ölümlə də barışır,
Ölümün caynağını ana qoynu sanırsan.
Elə bil yuxudaydın, qəflətən oyanırsan.

Tüklərin biz-biz olur, sən lərzəyə gəlirsən,
Bu dünyadan ilahi dünyaya yüksəlirsən.
Bilmirsən həyat nədir, ölüm nədir, əzab nə?
Ürəyin təslim olur o səsin tilsiminə.
Sən bu əzan səsində çimib təmizlənirsən,
İçindən baxa-baxa içində gizlənirsən.
Duyduqca o səsdəki sehirli ülviyyəti
Cilvələnir gözündə zaman-məkan vəhdəti.
Bu anlarda elə bil sən vəcdəyə gəlirsən
Özün də heç bilmədən qəlbinin hökmü ilə
Sən səcdəyə gəlirsən.
Atıb cismin yükünü sən ruha çevrilirsən
Gördüyün pöyanı da sən həqiqət bilirsən.
Silkələnib gecə də yuxusundan oyanır,
Yaşıllaşan dünyanın yaz rənginə boyanır.

Mən bu səsdə görürəm gözə görünməzləri
İlahinin yolunda yolundan dönməzləri.
Bu xoş dəqiqələrdə «Allaha vardım» – deyə
Mən təpədən dırnağa çevrilirəm səcdəyə.

*Mart 2003*

## XƏYAL QIRIQLIĞI

Savaşdıq qələmlə, savaşdıq sözlə,
Savaşdıq eşqimiz, əqidəmizlə.

Sözün cidalında axıb durulduq
Qırdı zəncirini, nəhayət, Vətən.
Dedik, azad olduq, biz azad olduq,
Gəlmə fikirlərin əsarətindən.

Dediyim yalanmı, yoxsa, doğrumu?
Azadlıq talanmı, bir qarətmidir?
Xalqın gözlədiyi azadlıq bumu?
Azadlıq başqa cür əsarətmidir?

Hansı azadlıqdan dəm vururuq biz
Azadmı dilənən körpələrimiz?
Azadmı çadırda can çürüdənlər –
Torpaq həsrətilə qəbrə gedənlər?

Azadmı Vətəndə işsiz qalınca
Külfətin xətrinə çörək dalınca
İsti yuvasını tərk eləyənlər?
Azadmı bu zülmə boyun əyənlər?

Bu gün özümüzə qənim kəsilmiş
Yeraltı, yerüstü qaynaqlarımız.
Azadmı düşmənə təslim edilmiş
Bizim dədə baba torpaqlarımız?

Azadmı Tanrıdan haqqı soranlar,
Sinəsi dağlılar, qəlbi viranlar?
Azadmı gündüzlər qul bazarında
Bir loxma çörəyə iş axtaranlar?

Dubayda hərraca qoyulur bu gün
Bizim namusumuz, bizim arımız.
Azadmı evini satmamaq üçün
Bədənini satan qadınlarımız?

Vaxtın dolayında, keşməkeşində
Oğru məmurlar da qorxu içində.
Zaman hədələyir indi onları
Azadmı yığdığı yüz milyonları
Qorumaq istəyən rəzil oğrular?

Daim marıqdadır, məqam gözləyər
Əlindən buraxmaz bir ovu yaltaq.
Təpəyə dağ deyər, gülə kol deyər
Tutduğu məqamın girovu yaltaq.

Azadmı dediyi hər sözü yalan
Düzü yalanıyla əyən yalaqlar?
Azadmı haqsıza tərif yağdıran
Amalı yamaqlar, fikri calaqlar?

Biz əsl azadlıq bilirik nədir
Yaşamır yaşayan can güdə-güdə.
Vallah, azad deyil, əsarətdədir
Doğru da, oğru da, əyri-üyrü də.
Öz doğma yurdunda soyulduğunu

Nə qədər istəsən danış, nə fayda?
Hansı şikayətin, gileyin sonu
Xoşbəxtlik gətirib sənə dünyada?

Nə imiş indiki hal-əhvalımız
Bizə nə gətirdi istiqlalımız?
Alçaq təbiətli küt gədaların
Uca sarayları, dövləti, varı
Uca təbiətli binəvaların
Geniş ürəkləri, dar çadırları!

Bir yanda göz deşən yırtıq çadırlar,
Bir yanda villalar göz vurur bizə.
Şeytan azadlığı, bilmirəm, məgər
Bununcün gətirdik vətənimizə?

Dünən istiqlala səs verməyənlər
Bu gün milyonlara sahib oldular.
«Canım azadlığa fəda» – deyənlər
Zindanlar küncündə unuduldular.

Azadlıq ölkəni talayan, sökən
Əli uzunlara gərəkmiş demək.
Qorxusuz, hürküsüz saraylar tikən
Boynu yoğunlara gərəkmiş demək.
Azadlıq amala, eşqə rəng çəkən
Ruhsuz odunlara gərəkmiş demək.
Rüşvət boynumuza keçən bir halqa!
Rüşvət azadlığı! Azadlığa bax!

Heç demə, bu bədbəxt, zavallı xalqa
Biz bu azadlığı gətirdik ancaq!

Biz əsl azadlıq bilirik nədir
Yaşamır, yaşayan can güdə-güdə.
Vallah, azad deyil, əsarətdədir
Doğru da, oğru da, əyri-üyrü də.

*May 2003*

## ÇARPAYIM - DƏRD OYLAĞIM

Gündüzün bir qayğıası
Gecə dönüb on olur.
Gecələrin hamısı
Mənimçün uzun olur.

Əynimə dərd, qəm biçir
Gecələrim sübhədək.
Xəyallar qanad-qanad,
Fikirlər ələk-vələk.

Gündüz hər şey yerində
Gecələrsə baş-ayaq.
Gecələr məndən oyaq,
Mən gecələrdən oyaq.

Gündüz axşama qədər
Gecəyə müntəzirəm.
Gecələr çarpayımda
Dünyaları gəzirəm.

Fikirlər qəm yumağım,
Çarpayım – dərd oylağım.
Özümlə görüş yerim
Çarpayım – dərd ortağım.

Gündüzün bir qayğıası
Gecə dönüb on olur.
Gecələrin hamısı
Mənimçün uzun olur.

*Avqust 2003, Şəki*

## «BİR ŞEYİ–ƏCİBİZ...»

*Bir şeyi-əcibiz, nə bilim, bir tühəfiz biz,*
*Öz qövmümüzün başına əngəl kələfiz biz.*
**Sabir**

Məşqdə hədəfə düzgün vuranın
Döyüşdən əvvəl də zəfəri bəlli.
Dostuyla düşməni qarışdıranın
Nə xeyri bəllidir, nə şəri bəlli.

Zamandan aşağı endiyimizdən
Yadı qardaş bildik, qardaşı düşmən.
Bilmədik, yelin də dəyişir yönü
Dostun əvəzinə, yada qol açdıq.
Teymur Toxtamışın kəsdi önünü
Düşmənə quzeydən hamar yol açdıq.

Hara sürükləyir bizi bu gərdiş?
Bəlamı yazılıb qismətimizə?
Millət öz-özünə düşmən kəsilmiş
Kənardan bir düşmən nə gərək bizə?

Sabir kəlamına varmı bir sözün?
«Bir şeyi-əcibiz, bilməm, nəyik biz»
Ta qədimdən bəri bir-birimizin
Qanına, canına yerikliyik biz.

Gözümüz götürmür doğma qardaşı
Bizdə başqasına bir həsəd də yox.

Vurur çay quşunu çayın öz daşı
Biz öz-özümüzə qısqanc olmuşuq.
Zamandan aşağı endiyimizdən
Yadı qardaş bildik, qardaşı düşmən.

*Avqust 2003*

## QİBLƏSİZLİK

Yrəkdə başqa söz, dildə başqa söz
Danışan natiqin nitqinə, gəl, döz.
Bizim gözümüzə dürtə bildiyi
Ağappaq riyanı o, hardan tapır?
Yalanın üzünə sürtə bildiyi
O qədər boyanı o, hardan tapır?
Üyüdür sözləri o şirin-şirin
Astarı üz edir, bilmərrə çaşmır
Xofundan diksinib, dili dolaşmır?

Bu da bu günlərin «Ölü canları»
İstiqlal dövrünün qəhrəmanları.
Bu, gödən güdənlər, bu, qibləsizlər
Bizdən utanmayan bu, üzsüz üzlər
Məgər utanmırmı öz özlərindən?
Bax, buna, bax, buna məəttələm mən.
Yanıldım,
özündən utanmayan kəs
Başqa birisindən utana bilməz.

*Avqust 2003*

## MƏHLƏNİN «ALİMİ»

Qonşumuz, ixtiyar Alməmməd baba
Yaman həris idi dəftər, kitaba.
Onun bir qəribə adəti vardı:
Harda kitab görsə, oğurlayırdı.

Gendən baxıb onun dağ vüqarına
«Məhlənin alimi» deyərdik ona.
Biz sonra bildik ki, o, kitabların
Tənbəki bükürmüş varaqlarına.

*Aprel 2003*

## MƏTANƏT

Başqasını duymaq məharətinə
Heyranam birinci görüşümüzdən.
Sənin özün boyda mətanətinə,
Kişi xislətinə minnətdaram mən.

Sən seçə bilmisən dostdan düşməni
A mənim el qızım, tanıdım səni.
Öz ürək dostuna sədaqətinlə
Adını doğrultdun mətanətinlə.

Mənim xeyir–duam sənə üzərlik
Gecədən sübh doğur, enişdən–yoxuş.
Zəriflik–möhkəmlik, qadınlıq–ərlik
Sənin xislətində əl–ələ tutmuş.

*Avqust 2004*

* * *

Özümü aramaq, özümü bulmaq
Mənim ilk ayətim, son ayətimdir.
Mənim şeirlərim hər şeydən qabaq
Özümdən özümə şikayətimdir.

*Sentyabr 2004*

* * *

Sualı gözləmə, susduğun yetər
Qəlbinə gələni məndən öncə de.
Pis sözü hər kəsin üzünə qənşər,
Xoş sözü insanın arxasınca de.

*2004*

## KOTO

*Yapon dilində «koto» kəlməsi həm söz, həm də əməl mənasında işlənir.*

Sözlə işin bir kəlmədə ifadəsi!
Düzgünlüyün, həqiqətin, haqqın səsi!
Ürək dillə birləşəndə
Xarabalıq cənnət olur.
Söz əməllə birləşəndə
Tayfa dönüb millət olur.

Bu məqamda dələ bilməz
Həqiqətin sinəsini ağ yalanlar.
Bu məqamda ola bilməz
İş yerinə söz satanlar, söz alanlar.

And içsə də yerə-göyə
«İnanmıram, sözdür»-deyə
Dilimizdə açıq-aşkar,
Sözün yalan rəngi də var.

Elə həmən bu məqamda
Söz də qopdu öz yerindən.
Sözün yalan çalarıyla
Söz düşdü öz dəyərindən*.

*Dilimizdə sözün yalan mənasını Füzuli:

*Can-sözdür əgər bilirsə insan*
*Sözdür ki, deyirlər özgədir can.*

Beytində işlətmişdir.

Bəlkə elə burdan gəlir
Əməllə söz ayrılığı.
Bizim üçün seçilməsi müşkül olan
Əyriylə düz ayrılığı.

Bəlkə elə burdan gəlir
Haqqın zorla barışması.
Yalan ilə həqiqətin
Bir-birinə qarışması.
Lənət olsun əyriylə düz birliyinə,
Qurban olum əməllə söz birliyinə!

Bəxtəvərdir həm xeyrini,
Həm şərini bilən millət-
Sözlə əməl arasında
Sərhədləri silən millət.

Sözlə əməl birləşəndə, bir on oldu
Yapon elə buna görə yapon oldu.

*05 yanvar 2000*




İNSAN
və
ZAMAN

*Məlik Məmməd hələ yatır, div oyaqdır,*
*İndi hər şey baş-ayaqdır.*
*Yalan doğru cilidində,*
*Həqiqətsə gopa dönən bir zamanda,*
*Aqillərin qafaları*
*Ayaqlarda topa dönən bir zamanda*
*Cahillərin hökm verən başına bax,*
*Sən dünyanın işinə bax.*



## EY, DÜNƏNKİ KÖRPƏLƏR

Dünən əlindən tutub dərsə yola saldığım,
Qoruyub hər bəladan, qayğısına qaldığım,
A mənim körpələrim, mən nə deyim illərə,
Xəzan düşdü, elə bil, bağçadakı güllərə.

Saçlarınız ağardı,
Ömrün payız fəslinə düşdünüz birdən-birə.

Öz saçım ağaranda «saçlarıma dən düşür,
Hər baxanda anamın ürəyinə qan düşür*»
Deyib, hələ içimdə öyünmüşdüm gizlicə
Kamala dolduğuma...
Kişilərin içində bir kişi olduğuma...

İndi övladlarımın ağ saçını görəndə
Bildim, anam nə çəkmiş.
Ancaq yerlər dəyişmiş, ürək həmin ürəkmiş.
Anamı duymamışdım.
Məni onun yerinə indi qoyan vaxt nədir?
Saçınızın ağlığı
Bəs, niyə indi məni göyüm-göyüm göynədir?
İndi bu nə duyğudur məni oda qalayan?
Niyə xəbər tutmadım mən sizi çulğalayan,
Qəlbinizi qaraldıb, saçınızı ağardan
O çovğundan, o qardan?

*"Ağ saçlar, qara saçlar" şeirinə işarədir.

Əzabları, dərdləri harda, nə vaxt yediniz?
Mənim çəkdiklərimi, axı, siz çəkmədiniz.
Qayğılarım, dərdlərim öz içimdə laylanıb,
Gözlərimin işığı, ürəyimin taqəti
Pay-pay sizə paylanıb.
Öz cismimdə vahidəm, ruhən dilimlənmişəm,
Sizin yetişmənizdə bir olub cəmlənmişəm.
Taleyimdən inciyib qəmlərə batanda da,
Bizim xatalı dünya,
Qanlı-qadalı dünya
Məni ağladanda da
Çalışmışam susmasın heç vaxt gülüşləriniz,
Çalışmışam olmasın sizin dərdi-səriniz.
Sizi çinarlandırıb mən özüm kollaşmışam,
Həyatın hər üzüylə dil tapıb yollaşmışam.
Mən zəhər yemişəm ki, siz şəkər yeyəsiniz,
Mən əzab çəkmişəm ki, siz «oxqay» deyəsiniz.
Sizi yaşatmaq üçün özümü yandırmışam,
Ürəyimi coşduran,
Məni nağıllaşdıran
Şirin duyğularımla öz əhdimi qırmışam.
Bu, mənim ömür yolum! Bu, sizə töhmət deyil,
Boynunuza qoyduğum yük deyil, minnət deyil.
Bu, atalıq borcudur, fədakarlıq deyil bu
Mən, sadəcə, olmadım vicdanımın oğrusu.
İstədim ki, nəbziniz millətlə bir döyünsün,
İstədim, məndən də çox sizin ilə öyünsün
Mənim başı bəlalı, bu əzabkeş Vətənim.
Haqqımdan uca oldu atalıq borcum mənim.
İndi, şükür Allaha,

Bu Vətənin önündə siz də üzüağsınız.
Ancaq bir gerçək də var:
Saçınız ağarsa da, mənimçün uşaqsınız.
Əgər uşaqsınızsa, bəs bu ağ saçlar nədir?
Saçınızın çallığı niyə məni göynədir?
Bu sualın önündə cavabın da üstünə
Qara bir xətt çəkilər,
Onu bir könlüm bilər, bir də yaradan bilər.
Sizsə biləcəksiniz mənim nəvələrimin
Saçları ağaranda, ey, dünənki körpələr.

*Sentyabr 2000*

## YUXU

Bu torpaqdan göyərmişik,
Bu torpaqla biz biriksə,
Əgər ömrün nə ilkini,
Nə sonunu bilmiriksə,
Yazılmasın başdaşına
Doğum-ölüm tarixləri.
Sərhəddəyik,

Nə irəli yol bəllidir,
nə də geri.
O zaman ki, bu dünyanı tərk edirik,
Bu dünyanın yalnız yuxu olduğunu
O dünyada dərk edirik.

*İyul 2000*

## SƏN DÜNYANIN İŞİNƏ BAX

Çox aldanıb
«Haqq məndədir» deyənlərin səs-küyünə,
İnanmadım gözlərimin gördüyünə.
Dövranın gərdişinə bax,
Sən dünyanın işinə bax,
Göydə uçan ilanına,
Yerdə gəzən quşuna bax.

Göz görsə də, qulaqlar kar, dilsə laldır.
Bəlkə zaman yetişməyib, hələ kaldır?
Könüllərsə həm danışır, həm eşidir.
Gördüyünə öz içində üsyan edir.
Sanki heç nə dəyişməyib,
Köhnə dövrün haqqı yeyən dişinə bax,
Sən dünyanın işinə bax.

Məlik Məmməd hələ yatır, div oyaqdır,
İndi hər şey baş-ayaqdır.
Yalan doğru cilidində,
Həqiqətsə gopa dönən bir zamanda,
Aqillərin qafaları
Ayaqlarda topa dönən bir zamanda
Cahillərin hökm verən başına bax,
Sən dünyanın işinə bax.

Keçəl Həmzə iş başında,
Qoç Koroğlu mehtər olub.

Namus-qeyrət kişilərin fərsizliyi,
Talançılıq hünər olub.
Könüllərdə yuvalanan qəzəbləri,
kinləri gör,
Qeyrətini yeyəmməyən minləri gör,
Qeyrətini satıb yeyən beşinə bax,
Sən dünyanın işinə bax.

Kölə görüb ulumuzu,
Bəy elədik qulumuzu.
Yedilər dopdolumuzu,
Bizə qalan boşuna bax.
Baharın oğlan çağında
Bu zamanın qışına bax,
Sən dünyanın işinə bax.

Yuvasından zorla köçən,
Yrəyindən nələr keçən,
Arzuları mələr keçən
Qaçqınların, köçkünlərin
Həsrətilə o günlərin
Gözdən axan yaşına bax,
Sən dünyanın işinə bax.

Dədəsini dananların,
Özgəyə aldananların
Taleyinə biz bələdik.
Bir gerçəyi dərk elədik:
Mənliyini dəyişdikcə
Siçan qovan pişik oldu
Dünənki pələngin adı.

Nərildərdi bir zamanlar,
İndi dönüb miyoldadı.
Ayaqdəyməz meşələrdən
Ev küncünə düşənə bax,
Sən dünyanın işinə bax.

Ağlamaqdır gülüşümüz,
Dəmir imiş gümüşümüz.
Düşmən doğru, bizsə yalan,
Əsli, nəsli dəmir olan
Özgənin «gümüşünə» bax,
Sən dünyanın işinə bax.

Günahkarıq, əlimizlə
Qəbrimizi qazan olduq,
Özümüzə «təzə tale» yazan olduq.
İndi həmən o təzənin.
O boşboğaz gəvəzənin
Başımıza yağdırdığı daşına bax,
Sən dünyanın işinə bax.

*Avqust 2000*

## GECİKMƏ

Mən həmişə bu gündən sabaha göz dikmişəm,
Amma özüm özümlə görüşə gecikmişəm.
Qalaq-qalaq işlərim,
Diklərim, enişlərim,
Qələmlə dostluğumdan göyərən vərdişlərim
Məni vurdu gah yerə, gah da uçurdu göyə,
Gecikdim ömrüm boyu özümlə görüşməyə.
İztirablar içində yox olsam da varımdan,
Geçikmişəm yaz boyu isti cöz yaşlarımdan.
Su verib becərdiyim bəhərimə, barıma,
Geçikmişəm, içimdən doğan arzularıma.
Geçikmişəm həyatı, həyatımdan ummağa,
Geçikmişəm ən uca, ən müqəddəs hissimin
Başına dolanmağa.
Gecikmişəm, çoxunu əzabıyla bezdirən,
Mənəsə qanad verən
Hər qəmə yox, Allahın sevdiyi bəndəsinə
Pay kimi göndəyrdiyi o möhtəşəm qəmə də.
Gecikmişəm uzaqda mələyən eşqimə də.
Macal da tapmamışam özümlə tək qalmağa,
Özümdən küsdürdüyüm sınıq, qırıq qəlbimi
Bir gün ələ almağa.
Vallah, özüm özümə çata bilmirəm daha.
Qaç-tutdu oynayırıq, yol uzun, öz-özümü
Tuta bilmirəm daha.
O zaman ki, yorulub çəkilirəm təkliyə,
Taleyimlə barışıb, endirirəm başımı

Amansız gerçəkliyə.
Çəkirəm gündüzümün hesabını hər gecə
Öz-özümlə gizlicə...
Yanlış addımlarımı dərk edincə sonradan
Min bir əzab çəkmişəm.
Dünyaya gəlməkdə də, deyəsən, gecikmişəm.

*İyul 2000*

## YALAN – GERÇƏK

Zamanmı, dövranmı, insanmı azğın?
Gerçək – məzlum olub, yalan – zülmkar.
Adı da uydurma olan bu xalqın
Doğrusu məğmundur, əyrisi qəddar.

Həqiqət qalıbdır qapı dalında,
Mənim həqiqətə yazığım gəlir.
Yalan düz donunda, düz paltarında
Gerçəyin belinə minib yüksəlir.

Yalan boyalıdır, gerçək boyasız,
Yalanın yalanı rənglə doğrulur.
Yalan qışqırıqçı, yalan həyasız,
Gerçəksə həmişə utancaq olur.

Yalan çəkinmədən öz böhtanını
Deyər həqiqətin üzünə qənşər.
Gerçəksə dişinə tutub çanını,
Yalanın yerinə xəcalət çəkər.

Kol basıb nitqdə söz çələngini,
Bilmirik, gül hansı, tikan hansıdır.
Elə dəyişdirib sözlər rəngini,
Tap görək, düz hansı, yalan hansıdır.

Nəymiş azadlığın ziddi – əsarət?
Eyni olduğuna heyrətdəyəm mən.

Torpaq azad oldu, amma bu millət
Bir gün bezəcəkmi "əsarətindən".

*Oktyabr 2000*

## ŞAHMAR İTKİSİ

Uçdun dünyamızdan, uçdun quş kimi
Soyutmur bu dərdi axan göz yaşım.
Özümə deməyə çəkindiyimi
Mən sənə deyərdim, sənə, qardaşım.

Xudunun ardınca itirdik səni.
İtirə bilmirik qəmi, qüssəni.
Şükürlər olsun ki, Nurəddinim var,
Yoxsa, dünya mənə cəhənnəm olar.

Hardansa, nədənsə incidiləndə,
Baxıb dörd dövrəmə səni gəzərdim.
Eşidib dərdimi bizə gələndə,
Səni görən kimi gedərdi dərdim.

Sənsiz dünyamızda yetimik bu gün,
Mənim güvənc yerim, mənim qahmarım.
Təzə bir şerimi oxumaq üçün
Səni axtarardım, səni, Şahmarım.

Zaman tərpədəmməz bircə qəlpəni
Qurdun qəlbimizdə elə bir binə.
Həmişə axtarır gözlərim səni,
Öyrəşə bilmirəm sənsizliyinə.

Ağrılı günləri sənlə keçirmək,
Öz güman yerimdin, son əlacımdın.

Sən mənim həmişə üzünü görmək,
Səsini eşitmək ehtiyacımdın.

Kim isə arxamca bir söz deyəndə,
Ona tərs-tərs baxan səndin, Şahmarım.
Məni qısqanclarım iynələyəndə,
Mənə qahmar çıxan səndin, Şahmarım.

Heç kəsi tük qədər sən incitmədin,
Dərdini içində çəkdin hər zaman.
Dünyadan getmədin, yox, sən getmədin,
Dünyanı tərk etdin əslinə baxsan.

Hər şey öz yoluyla gedəcək yenə,
Yalnız yetmiyəcək əlimiz sənə.
Bilirik, bu dünya yalan, ağ yalan!
Sonu gözləməklə keçir rüzgarım.
Çatır hər şeyimiz, yeri boş qalan,
Təkcə çatışmayan sənsən, Şahmarım!

*Aprel 2000*

## PARADOKS

«Müstəmləkə olub qalaq» deyənlər,
Müstəqil olmağa səs verməyənlər,
Müstəqil dövlətdə bir məmur kimi
Məqam sahibidir, hökm sahibi.

Bu gün qüsurunu bilirmi görən
Dünən əsarətə könül verənlər –
Dünən azadlığı qəbul etməyən,
Bu gün azadlıqda dövran sürənlər?

Bəs o inkar hara, bu təsdiq hara?
Mərdlik nə gərəkdir riyakarlara.
Dünənki qəsdini bu gün dananlar,
Zamanın rənginə tez boyananlar
Nə bilir millət nə, onun xeyri nə?
Hər zaman çalışmış o, öz xeyrinə.

Ölkənin bugünkü istiqlalından
İstiqlal istəyən bəhrələnmədi.
İstiqlalı danan dünənki nadan
Bu gün də ölkəni talayıb yedi.

Özünü düşünən, xeyrini güdən
Bütün zamanlara uyuşa bilmiş.
Milləti düşünən, bilmirəm, nədən,
Qalıb ayaq altda, daim əzilmiş.

Anlaya bilmirəm, görəsən, niyə,
Dünən azadlığa, müstəqilliyə
Səs verən, bu günsə ya məhbəsdədir,
Ya qapı dalında, ya can üstədir.

*Oktyabr 2000*

## AVROPA BİRLİYİ

*Avropa hər il Türkiyənin qarşısına*
*yeni-yeni şərtlər qoyur, onu öz birliyinə*
*qəbul etmir.*
*«Dünyanın bizə hörmət göstərməsini*
*istiyorsaq, əvvəla, bizim kəndi*
*bənliyimizə və milliyyətimizə bu hörməti*
*hissən, fikrən, felən... göstərəlim.*
*Biləyim ki, milli bənliyini bulmayan*
*millətlər başqa millətlərin şikarıdır».*
**Atatürk**

*«Ən kiçik qəbilələrinə qədər xristianlaşmadıqca türklər*
*avropalılarla təmas etməməlidirlər».*
**Papa İnnokenti**

Avropa birliyi! Səadətmi bu?
Sən bu «səadətin» eşqinə yandın.
Atan Avropanı diz çökdürürdü,
Sənsə Avropanı cənnətmi sandın?

Batı birliyinə ümid bağladın,
Ümidin puç oldu, pərt olmadınmı?
Türkiyə, neçə yol tapdandı haqqın,
Cavabsız sevgindən yorulmadınmı?

Xeyir kimi baxdın sən öz şərinə,
Gəl, bu niyyətindən sən daha vaz keç.
Fatehin, Səlimin nəvələrinə
Bu qədər yalvarış yaraşarmı heç?

Nə vadar elədi Batını bu gün
Türkün tarixini eşib tökməyə:
«Filan vaxt, filan türk filan millətin
Gilas ağacına daş atıb» – deyə.

Türkün dədəsini bir müttəhim tək
Divana çəkirlər bu gün, divana.
Əgər vacibdirsə köhnəni eşmək,
Sənin də dədəni çəkək meydana.

"Mədəni Avropa" – gilyotinləri
O dəmir dişləri yaratmadınmı?
Üz-üzə gətirib məlum dinləri,
Səlib yürüşləri yaratmadınmı?

Yurdundan qovulan yəhudilərə*
Yurdumda yer verib havadar oldum.
Qarışıbmı, yoxsa, göy yerə?
Avropa mədəni, mən barbar oldum?

İndi barbar deyir, görün, kim kimə?
Sığmaz əyninizə böyüklük donu.
Mən xələt verəndə dahilərimə
Atəşdə yandırdın sən Cordanonu**.

Humanist oldunuz nə vaxtdan bəri?
Faşizm də sizin öz adınızdır.
Ölüm və rəzalət düşərgələri
Bizim deyil, sizin icadınızdır.

---

*XVI əsrdə İspan krallığı yəhudiləri ölkədən qovanda Türk Sultanlığı yəhudilərə öz ölkəsində yer verdi, onlara havadar çıxdı.
**Cardano Bruno.

Afrika, Asiya köləniz ikən,
Bəs harda qalmışdı insan haqları?
Bizlərə gəldiniz gerçək biz ikən
O köhnə, bu təzə badalaqları.

Özünü aldatma, türk oğlu, ayıl,
Papaslar kilsədə «intiqam» deyir.
İstanbul qisası düz altı yüz il
Onların qəlbində məqam gözləyir.

«Erməni əzabkeş xalqdır» demək də
Bu gün əlinizdə bir bəhanədir.
Köhnə palan içi eşələməkdə
Əsl məqsədiniz bilirik, nədir.

Batı keçmişini bir az düşünsün,
Sonra kül üfürsün gözlərimizə.
Atomu yaradan ölkələr bu gün
İnsan haqlarından dərs verir bizə.

Olub soyqırımı... Ancaq kim-kimi?
Türk qəsbkarlarla vuruşan zaman,
Erməni xəncəri bir namərd kimi
Türkün kürəyinə vurub arxadan.

Halala qatmayın siz haramları.
Uydurma «erməni soyqırımları»
Hardan yadınıza düşdü bu vaxtda?
Bir az da düşünün indimiz haqda.

Erməni qəsb etdi Türkün yurdunu,
Qəsb saymadınız amma siz bunu.

Günahkar biz olduq... Sizsə o zaman
Dinbir qardaş ilə üz açmadınız.
Dəhşətli Xocalı soyqırımından
Bəs niyə bu yerdə söz açmadınız?

İnsan şərəfini yerə endirən,
Minləri bir anda külə döndərən
«Villi mətbəxini» siz yaratdınız,
İnsan cəsədindən tonqal çatdınız.

Ey Batı, çatarmı haqqınız bu gün
İnsan haqlarından çənə döyməyə?
Ədalət, həqiqət, vicdan, haqq üçün
Bizim qarşımızda sinə döyməyə?

Dirijor çubuğu sizdədir deyə
Gərək bütün dünya çəkinə sizdən?
Çirkab yaxmaqdansa bu gün özgəyə,
Utanın dünənki tarixinizdən.

Sən indi oturub haqqın yerində,
Bizim haqqımızı haqsız sayırsan.
Sən tiri görməyib öz gözlərində,
Mənim gözlərimdə qıl arayırsan.

Fürerlər, Duçelər* haqqın səsini
Boğub, ölkələri zəbt edən zaman,
Atatürk qorudu öz ölkəsini
Dünyanın beş-altı qəsbkarından.

Ey qoca Türk eli, qalx, ayağa qalx!
Sən daim böyüksən, kiçilmək nədir?

*İtaliya faşist hökümətinin başçısı Mussoliniyə "Duçe", yəni rəhbər deyirdilər.

Böyüklük – kiməsə bənzəməkdə yox,
Böyüklük – mənəvi böyüklükdədir.

Batı birliyinə baxıb uzaqdan
Yaxına gəlmədi uzaq yaponlar.
Aldı öz gücünü ana torpaqdan,
İndi Avropadan gerimi onlar?

Ey qoca Türkiyə, Batıdan əl çək,
Sən onun önündə əyilmə bunca.
O, səni özünə dost bilməyəcək
Sən öz mənliyindən ayrılmayınca.

Batı birliyində basıldın küncə,
Dözmə bu təhqirə, yenidən doğul.
Batı kölgəsində kölgələnincə,
Doğunun önündə sən bayraqdar ol.

Deyiblər, yenə də «yox-yox» deyəcək,
Səni öz əlinlə yox etməyincə.
Səni Birliyinə götürməyəcək,
Sənin mənliyini kiçiltməyincə.

Özünə dar gələn Qərbin mənliyi
Dibi görünməyən tamahındadır.
Batının Doğudan tək üstünlüyü
Gücündə, zorunda, silahındadır.

Mənəvi silahım – mərhəmət, vicdan,
Nəzakət, nəcabət yaşar qanıda.
Sənin qana həris silahlarından
Ruhum qüdrətlidir Allah yanında.

Bəxtə naşükürlük olmadı məndə,
Qədərə, qismətə, dedim, qaneyəm.
Mizan tərəzidə haqq ölçüləndə,
Avropa cismani, mən ruhaniyəm.

Gücə arxalanıb, zora tapınmaq!
Tarix qəbul etməz heç zaman bunu.
Yalana üz tutub vicdanı danmaq!
Nə İncil götürər, nə Quran bunu.

*Dekabr 2000*

## ELƏ YALQIZAM Kİ...

Köçdükcə dünyadan dostlar birbəbir,
Mənim yaşıdlarım hər il seyrəlir.
Gizli bir əzaba dönür mənimçün
Bir tanışın yası, bir dostun yası.
Baxıram məclisə, görürəm bu gün
Yoxdur dörd dövrəmdə məndən yaşlısı.

Hər kəsin bir neçə can sirdaşıyla
Dünya gözəlləşir, dünya dolurmuş.
Alır qiymətini üzük qaşıyla,
İnsan da insanla insan olurmuş.

Yamanca boşalıb solum, sağım da,
Amma bir zamanlar nağıldı dünyam.
İnsana bağlıymış insanlığım da,
Yaşıdlar köçdülər, dağıldı dünyam.

Dünən düşünərdim: hələ ömür var,
Hələ qış deyiləm, hələ payızam.
Elə ki, göylərdən endi xəyallar,
Gördüm qış da gəlib, artıq yalqızam.

Rəngi də bozarıb elə bil göyün,
Boşalıb mənimçün o dolu dünya.
Elə ululları itirdim, bu gün
Düşüb ululuqdan o ulu dünya.

Necə qovub keçir indi il, ili,
Yoxdur umacağım vaxtdan bir gilə.
Dəyişib elə bil dünyanın dili,
Dil tapa bilmirəm mən dünya ilə.

İndi dəyişilən xislətə heyrət!
At-heyvan yerinə adam hürküşür.
İndi ac qarına bütün məmləkət
İrişə-irişə atdanıb-düşür.
Sanıram iblisin fitnələrindən
Uçuldu, təzədən quruldu dünya.

Bu təzə dünyanı tanımıram mən,
Mənmi dəyişmişəm, yoxsa, bu dünya?
Elə yalqızam ki, elə bil dünən
Qürbətə köçmüşəm öz vətənimdən...

*Noyabr 2000*

## BU DÜNƏNİM,
## BU DA MƏN

Tənhalığım, təkliyim,
Ürəyi kövrəkliyim –
Bu yaşımda, heç demə,
Bu imiş gerçəkliyim.
Yaşıdlarım birbəbir
Bu dünyanı tərk edir,
İlbəil təklənirəm
Köçdükcə yaxınlarım,
Mən də ələklənirəm...
Uzun gecələrimdə
  İçimdə sübhə qədər
Çöllərdə tənha bitən
  Qamışın dərdi inlər...
Yaşın bu zirvəsinə
  Çata biləcəyimi
  Düşünməzdim, düzü, mən.
İndi dünyam boşalmış,
  həmsöhbətim özüməm...
Sualı da verən mən,
  cavabı da verən mən.
Haçansa büdrədiyim
  Döngənin fəsadını
  özümə göstərən mən.
Mənə haqqı göstərən
Bu ağıl, bu düşüncə
  Bəs hardaydı o zaman?

Bu sualı verincə
Birdəfəlik sıyrılıb
  cismin hüdudlarından
Ruhumun səmasına
  süzülmək istəyirəm.
Hər gün özüm özümçün
  çözülmək istəyirəm:
Bax, bu, mənim bu günüm,
  Bu, dünənim,
  Bu da mən.
Fərqlidir bir-birindən
Ay Allahım, gör, necə?
Dünən sonsuz ehtiras,
  Bu gün ağıl, düşüncə...
Omu yaxşı, ya bumu –
Düşüncəmi, duyğumu?
Düzü budur: Mən bu gün
İstəmirəm açıla,
Özümə də faş ola
Könlümdəki o laylar,
Layların hər birindən
  qopub gələn haraylar.
Keçdiyim yollardakı
  əyri-üyrü dolaylar,
Hissimdəki düyünlər,
İçimdəki o «mən»lər...

*İyul 2000*

## YAŞINDAN
## GERİ QALAN

Utanmadın nəvən yaşda
O gözələ göz vuranda?
Qızarmadın, öz nəvənlə
Sən, üzbəüz oturanda?

Nə deyəsən, gözgörəsi
Qocaldıqca alçalana,
Nə deyəsən, yetişməyib
Qış fəslində kal qalana?

Dağda maral, bağda quzu,
Düzdə cüyür, suda balıq.
Özün söylə, yaraşarmı
Bu yaşında bu yorğalıq?

Uzun illər yaşasan da,
Amma yenə bala qaldın.
Çoxu ötdü öz yaşını,
Sən yaşından dala qaldın.

*Sentyabr 2000*

## ÖNDƏ SABAH VAR

Bu günə güvənmə, öndə sabah var,
Yamanca dönükdür zamanın üzü.
Tarixin küncünə süpürüb atar
Ayaq izlərini vaxtın öz sözü.

*Aprel 2000*

## DÜNƏNİNİ - SABAHINI

Bəxtin yeyin, yolun açıq,
Uğurların gəlhagəlsə,
Başqasının niyyətinə
Sənin arzun bir əngəlsə,
Düşün quduz tamahını.

Şöhrət sənin mənliyini
Məqsədinə satanadək,
Bir arzuya, bir niyyətə
Addımını atanadək
Düşün, düşün Allahını.

Qəzəbləndin, səbrini bas,
Öz içində say onadək.
Qisas hissin bülövlənib
Səni səndən alanadək
Düşün sən öz günahını.

Keçirə bil dolaylardan
Əyilmədən öz «mən»ini.
Günahını anlamaqçın
Yadına sal dünənini.
Ləyaqətlə yaşamaqçın
Düşün yalnız sabahını.

*Sentyabr 2000*

## SUAL İŞARƏSİ

Suallar verərdik biz böyüklərə,
Elə ki, dil açdıq süzüb dörd yanı:
– Su nədir?
Ot nədir,
ulduz nə,
göy nə?
Bilmək istəyirdik biz bu dünyanı...

– Quş uçur, biz niyə uça bilmirik?
– Onun qanadı var.
– Mənə qanad ver.
Vurub ayağını yerə körpəcik
Göyə uçmaq üçün qanad istəyir.
Nə imiş bu sözü dedirdən ona?
Uşaq sabahından bəlkə halıydı?
Allah ki, o ağlı vermiş insana,
Axı, geci, tezi o uçmalıydı...
Uçmaq necə olur, o hələ bilmir,
Amma inadından geri çəkilmir.
Bilmir, nədir doğru, ya nədir xata.
Hələ yetişməyib, o, kaldır hələ.
Gördüyü nə varsa bu gen dünyada,
Onunçün sualdır, sualdır hələ.
Uşaq böyüdükcə hər il günbəgün
Dönür suallara dünya onunçün.

Uşaq suallarla aşdımı həddən?
Sualdır hər günün, hər anın özü.

Yalnız bizimçünmü?
Əzəl – əbəddən
Sualla başlanıb dünyanın özü.
Sualla başlanıb dünya, bu haqdır,
Amma nöqtə ilə qurtaracaqdır.

Bir, iki, altı, dörd?
Qaydasız sayla,
Qaydasız dünyada pozur qaydanı.
Bəzən də gülməli suallarıyla
Tanımaq istəyir uşaq dünyanı.
Qaçır quş dalınca belədən-ğelə,
Sanır ki, uçanı o tutacaqdır.
Dünyanın özü də onunçün hələ
Onun özü kimi sadə uşaqdır.

Quş uçur... o bilmir quş niyə uçdu?
Quş uçdu, onun da dünyası uçdu.
Yanıq da verirdi elə bil ona,
Dikəlib havaya quş lap uzaqdan.
O sonra biləcək öz arzusuna
Heç vaxt öz vaxtında yetişmir insan.

Bilmir tale nədir, ya qismət nədir?
Yerdə gül, göydə ay göz qırpır ona.
Nələr keçirmişdi, bir Allah bilir
O, ilk arzusunun puç olduğuna.

Elə ki, yetişdi ömrün yay çağı,
Bu dünya onunçün bir cənnət bağı.
Ömrün yay çağında o, cürətlidir,
Özünü hər işdə ancaq tək sanır.

Min-min arzulara o, niyyətlidir,
Umdüğü nə varsa, gələcək sanır.

Ömrün yay çağında qorxu-hürküsüz
Baş vurur dəryaya, əl atır oda.
Sanır ki, getdiyi yollar dübbədüz,
Tükənir dünyaya sualları da.

Ömrün yay çağında sanır, bildiyi
Həyatı bilməyə yetərincədir.
Bilir yeri, göyü, bilir hər şeyi,
Nə qorxu? Zamanla pəncə-pəncədir,
Nəyat onun üçün bir əyləncədir.

Ömrün yay çağında öz qüdrətini
Bilib o, özünü ölümsüz sayır.
Göstərib gücünü, şücaətini,
Bəzən ölüm ilə oyun oynayır.

O, hələ anlamır ayırmaq nədir
Uzağı yaxından, uzunu endən.
Hər işdə nidadır, zəhləsi gedir
Sualın əyri bel işarəsindən.

Qüvvəti, qüdrəti gedir günbəgün,
İtirir gücünü...
Elə ki, ömrün
Gedir payız fəsli, gəlir qış fəsli,
Əyilir bədəni, bükülür beli.

Yerimir, elə bil, yerdə sürünür,
Vücudu bənzəyir əyri suala.

Ona xəndək kimi dərin görünür
Yolda rast gəldiyi hər çuxur-çala.

Eşitmir, boylanır hər uzaq səsə,
Gah sağa çevrilir, gah sola dönür.
Sual işarəsi! Harda görürsə,
Başını bulayıb, o, gülümsünür.

Bir ömür yaşayıb çox bilən qoca,
Özü bir suala çevrilən qoca.
İndi heç kəsə yox, özünə verir
Uşaqkən verdiyi min bir sualı,
Uşağa bənzəyir onun bu halı.

Quşu uçurmuşdu...
uduzmuş kimi
Əlacsız baxmışdı o zaman göyə.
Özü hazırlaşır indi quş kimi
O biri dünyaya uçub getməyə.

Uşağın verdiyi min-min suallar
Bu diri dünyanı bilmək üçündü.
Qocanın verdiyi dərin suallar
O biri dünyanı bilmək üçündü.

Öyrənmək istərik zaman boyunca
Hamımız fırlanan çərxi-dövranı.
Uşaqlar – bu məlum, köhnə, qos-qoca,
Qocalar – o məchul, təzə dünyanı.
Umur sualına cavab Tanrıdan,
O dünya haqdırsa, nədir bu dünya?

O, bilmək istəyir, hansıdır yalan,
Hansıdır insana doğruçu dünya?

O, göydən soruşur: – İndi mən kiməm?
O, yerdən soruşur: – İndi mən kiməm?
Qəzavü-qədərə deyib, təsliməm
Qədərdən soruşur: – İndi mən kiməm?

Gedəni dünyaya quş baxışıydı,
Quş baxışı kimi tez ötüb keçən
O andan soruşur: – İndi mən kiməm?
Olanı yaşanıb ötmüş yaşıydı,
Qalandan soruşur: – İndi mən kiməm?

Alıb taqətini onu xar edən,
Zəif vücudunu tarimar edən
Zamandan soruşur: – İndi mən nəyəm?
Gümandan soruşur: – İndi mən nəyəm?
Mən ki, yaşamışdım, var olan itməz.
Var olan o keçmiş hara getdi bəs?
İlbəil dəyişib artır sualı
Sualmış hər kəsin tərcümeyi-halı.

*Avqust 2000*

## HƏR GÜN - BİR ADDIM

Əvvəli, axırı bilə bilmədik,
Həyata, ölümə böldük dünyanı.
Ölümdən o yana biz yoxluq dedik,
Ölümdən bu yana bəs varlıq hanı?
İndi aldanaqmı quru bir ada?
Yoxdur var olan da bu boş dünyada.
Hər gün bir addımdır...
Bu uzun yolun
Əvvəli məchuldur, bəs sonu nəymiş?
Kim bilir haradır yönü son yolun
Qədərin qurduğu bu oyun nəymiş?

Tükənmək bilməyir ah-amanım da,
Nə qədər çəkirəm, dərdim gödəlmir.
Nəyi gözləmirəm, bitir yanımda,
Amma gözlədiyim gəlmir ki, gəlmir.
Birdən ayıldım ki, içim sis, duman,
Özümü çəkirəm öz yedəyimdə.
Dünya elə boşdur, əslinə baxsan,
Mənə bəlli deyil istədiyim də.

*Avqust 2000*

## VİCDAN ŞAHİDLİYİ

Hərdən əzab satar, qəm alar məni
Mənim bu dünyada çox xatam olub.
Səhvlər, qüsurlar, xatalar məni
Yenidən yaradan öz atam olub.
Xatalar üstündə boy atmışam mən,
Özümü yenidən yaratmışam mən.

Səhvimə, xatama hamıdan qabaq
Şahid də, hakim də vicdandır ancaq.
Belə bir məqamda vəkil lal olur,
Haqq kəsir, yalansa payimal olur.
Şahidim, vəkilim, hakimim də mən,
Qaçmaq mümkünmüdür bu məhkəmədən?

Vicdan şahidliyi! Könüllü dustaq!
Özündən könüllü intiqam almaq!
Vicdan şahidliyi! Bir hökmdar tək
Bağrıma çəkilən öz sinə dağım.
Vicdan şahidliyi! Özünü görmək,
Özümün özümə təslim olmağım.

Özünü görməyən görməz özgəni,
Sözünü anlamaz, özünü bilməz.
Özünü bilməyən, bilməz kimsəni,
Əyriyə əyilər, düzə əyilməz.

Şahidin, vəkilin, hakimin də sən
Qaçmaq mümkünmüdür bu məhkəmədən?

*İyul 2000*

## QURAN BELƏ QURUB

Yenə bahar gedir, yenə qış gəlir,
Payızdan qış doğur, qışdan yay doğur.
Torpaq gah oyanır, gah da dincəlir,
Yenə günəş batır, yenə ay doğur.
Beləcə, dolanır bu çərxi-dövran,
Dünya o dünyadır, insan o insan.

Gah gündüz, gah gecə müdam dövr edir
Gah göyün istisi, gah da yağmuru.
Göy həmən o göydür, yer həmən o yer,
Sular gah lil axır, gah da dumduru.
Öz köhnə yoluyla dövr edir zaman,
Dünya o dünyadır, insan o insan.

Dağları, daşları sellər titrədir,
Dəli zəlzələlər, dərin uçqunlar.
Yenə qasırğalar baş alıb gedir,
Tufan o tufandır, rüzgar o rüzgar.
Quran belə qurub başdan, binadan,
Dünya o dünyadır, insan o insan.

Savaşlar, qırğınlar, müharibələr...
Qisas duyğuları dönür silaha.
Yanır od içində dilsiz körpələr,
Əlimiz açılır yenə Allaha.
Dönür xarabaya kəndlər, şəhərlər,
Yenə Günəş doğur, gülür səhərlər.

Utanan varmıdır bu qırhaqırdan?
Dünya o dünyadır, insan o insan.

Böyük inqilablar, dövran dövranı
Bəyənmir. Könüllər qana təşnədir.
Dəyişmək qəsdilə insan dünyanı,
Aşırır köhnəni... dəyişən nədir?
Yenə həmən zülüm, həmən ölüm, qan.
Dünya o dünyadır, insan o insan.
Zalımdan, zülmdən, fitnə-fəsaddan
Ədalət istəyir, tıncıxıb insan.
Min bir möcüzü var qadir Allahın
Bildikmi biz nəyin bəs olduğunu?
Xeyr, biz bilmirik gələn sabahın
Bu gündən daha da pis olduğunu.
Haqsızlıq təbindən çıxarır səni,
Vaxtı yetişməmiş bir kal meyvəni
Ayırmaq doğrumu öz budağından?
Dünya o dünyadır, insan o insan.

Yerin öz fəsadı sığışmır yerə,
Yəqin, Allah baxıb bu istəklərə
Gülüb öz içində, deyir insana:
– Özün öz felindən düşmüsən qana.
Cisminə qanadlı ruh göndərmişəm,
Ağılla bərabər, axı, mən sənə
Mərhəmət vermişəm, vicdan vermişəm.
Ağlının felinə meydan verən sən
Bəs niyə rəhmindən üz döndərmisən?
Silahın zülm isə, bil ki, zülm ilə
Qaytara bilməzsən haqqı bir gilə.

Faydası yox imiş bu savaşların –
Gah enən, gah qalxan iğtişaşların.
Bir ibrət götürən yox imiş, yəqin
Təkrar dərslərindən qoca tarixin.
Zaman dönməyəcək öz axarından,
Dünya o dünyadır, insan o insan.

Öldürən yenə var, ölən yenə var,
Bu göyün altında dəyişən nə var?
Quran belə qurub başdan, binadan,
Dünya o dünyadır, insan o insan.

Qısqanıb, qısqanır insan insanı
Nəfsimiz həmişə qana təşnədir.
Habilin tökdüyü o qardaş qanı
Yenə də tökülür... Dəyişən nədir?
Bizə ağıl verdi, ruh verdi Allah,
Müqəddəs kitablar göndərdi Allah
Bizi haqq yoluna gətirsin deyə.
Gəldikmi o yola? Gəlmədik, niyə?

Niyəni axtardım, tapmadım, nədən?
Yüz-yüz niyə doğdu bircə niyədən.
Yenə asılmışam suallarımdan
Dünya o dünyadır, insan o insan.

*Dekabr 2000*

## QAYTAR MƏNİ

Kim idim, nə idim mən yüz il əvvəl?
Bilmirəm.
Bilməmək bilməkdən gözəl!
Onu bilirəm ki, o zaman mənim
Nə dostum var idi, nə də düşmənim,
Nə qorxum var idi, nə ağrım, acım,
Yox idi heç nəyə bir ehtiyacım.
Xoşbəxtlik – yoxluqda anladım ki, mən,
Azad olmaq imiş özün özündən.
Özümdən qurtarıb, dedim, bir kərə,
Allah, qaytar məni gəldiyim yerə.

*Yanvar 2001*

## RUHUMUZU KOL BASIB

*«Təzadlar» qəzetinin yazarı*
*Xanım Məhyəddin qızına ithaf*

Ürəyindən keçirib muğamı dinləyən yox,
Bu naləyə səs verib içdən inildəyən yox.
Keçmişimizdən gələn o yolları sel basıb,
O miras ruhumuzu alaq basıb, kol basıb.
İndi bizim nəğmədən nəğmə didərgin düşüb,
Səslərin axarından nizam, ahəng gen düşüb.
Füsunkar nəğməmizdən düşüncəni qovublar,
Bir sözlə, səndən səni, məndən məni qovublar.
Nə Bethoven, nə Şopen, nə Üzeyir, nə Qara?
İndi qar yox, daş yağıb onlar açan yollara.
Fikrət getsin işinə, Səid getsin işinə,
Onlar artıq uyuşmur zamanın gərdişinə.
Rəqs ilə mahnının uçuldu sərhədləri,
Kaman keçdi arxaya, dümbək keçdi irəli.

İndi bizim nəğməmiz hoppanıb-düşmək olmuş,
Qalxdığımız zirvədən yerə sürüşmək olmuş.
Hoppan, gözünə dönüm, tullan, gözünə dönüm,
Elə hoppan ki, qoyma bir an duyum, düşünüm.
Hoppanıb-düşmək sənin öz eşqin, həvəsindir,
Baş yerinə ayağın işləyərsə, bəsindir.

Tullan, səndən feyz alıb
qoy sevinsin millətin,
Hamıya qismət olmur sənin
bu «fərasətin».
Bəlkə, mən qocalmışam, dünya ki, qocalmayıb,

İnsandan insanlığı Allah geri almayıb.
Bəzəndiyi bəs deyil zəncinin bəzəyilə?
Məgər bizəmi qalıb özgənin təzəyilə,
Doğma təndirimizdə bu gün ocaq qalamaq?
Səndən min il gerini tullanıb yamsılamaq?
Məgər öz fitrətimiz, məgər öz ağlımız yox?
Nə atdanıb-düşürük, nədir bu meymunçuluq?
Özünü insan sayan, özünə hörmət qoyan,
Rəva bilməz özünə bu eybəcər oyunu.
Lüt-üryan oynamaqla paltarını yox, bala,
Soyunmusan soyunu.
Susuruq, özümüzə, demək, etinasızıq!
Susuruqsa xəstəyik, biz mənəvi nasazıq.
Mən sənə etinasız, sən mənə etinasız,
İkimiz də oluruq düşmənə etinasız.
Sən bu hoppanmağınla quş deyil, bir böcəksən.
Tullan, görək, sən hansı girdaba düşəcəksən.
Tullan, gözünə dönüm, nə utanmaq, nə ayıb?
Torpaq əldən getməyib, Vətən parçalanmayıb.
Nədən ötrü bəs sənin ürəyin parçalansın?
Dəmdən özgə nə var ki, dəminə qəm canalsın?

Dözürüksə bunlara, demək, biz, biz deyilik,
Öz ulu cəddimizə sadiq, əvəz deyilik.
Dünənimizdən gələn o yolları sel basıb,
Çiçəkli ruhumuzu alaq basıb, kol basıb.
Zamanın çirkabıyla lilləşən ruhumuzun,
Səhralara çevrilib çölləşən ruhumuzun
Yaşıllaşan gününü Allah göstərsin bizə,
Su çiləsin bürküdən saralan eşqimizə.

*May 2001*

## BİZ NƏLƏRİ İTİRDİK

*Sabiq tələbəm, yazıçı* ***Aqil Abbasa***

Qarabağı itirdik.
Biz o cənnət torpağı cəhənnəmə bənzəyən
çadırlara gətirdik.
Qara hara, ağ hara?
«Qarabağlı» deməyək, gəlin, «çadırlı» deyək
orda yaşayanlara.

Qarabağın yolunda sinəmizi gərmədik,
Biz yalnız yaylaqları, dağları itirmədik,
O yurddan qəlbimizə əsən ruhu itirdik,
Ruhumuzu itirib, cismimizi gətirdik.
Çadırlarda göz açan,
Küçələrdə üz açan,
Məşəqqətə dayanan,
Hər gün qınında yanan
Körpələrin əzmini, boyunu itirmişik,
Qarabağdan süzülən o mənəvi arxların
Suyunu itirmişik.
Axı, bizi biz edən nəğmə bulaqlarının
Şırıltısı kəsildi.
Burda boy atanlara indi necə deyək biz,
Bu da həmən nəsildi?
Qarabağda köklənən tarın pərdəsindəki
O xalları itirdik.
Bizi qanadlandıran,
Sabaha atlandıran
Xəyalları itirdik.

Yox, yox, itirməmişik biz yalnız o yerləri,
İtirmişik gələcək
Nəğməkar Bülbülləri, loğman Üzeyirləri.
Qarabağlı dahilər ölməmişdi öləndə,
Öldülər Qarabağın öldüyünü biləndə.
Budur məni yandıran,
Cecə-gündüz özümü özümdən utandıran.
Torpaq – çölmü, çəmənmi, torpaq –qayamı, daşmı
Torpaq – kolmu, çayırmı, ağacmı, kandalaşmı?
Torpaq–cəddim, tarixim, torpaq–yurdum məkanım
Torpaq–mənim namusum, torpaq–mənim ünvanım.
O torpaqda qeyb olan şöhrətimin, şanımın,
öz adımın məzarı.

Necə dözdük bu dərdə, ay ellər, biz daşmıyıq?
Düşmənə verdiyimiz o halal torpaqlara
halal vətəndaşmıyıq?
Biz Vətəni itirib Vətən torpaqlarında
Cansız, ruhsuz daş olduq.
Vətənip itirirkən, necə vətəndaş olduq?
Yalanlara aldanıb doğrumuzu itirdik,
Düzümüzü itirdik.
Kişi mənliyimizi salıb ayaq altına,
Özümüzü itirdik.

*May 2001*

## QIRĞI

İnsan quşa baxıb uçaq düzəltdi,
Elə düşündü ki, irəli getdi.
Quşlar toxunduqca propellərə,
Bölünüb səpilir göydə yüz yerə.
Cansızı yaratmaq ehtirasından,
Canlını ilbəil məhv edir insan.

İndi qorxuruq ki, bir zaman gələ
Dünyada quşların nəsli kəsilə,
Dünya nalə çəkə insan əlindən.
İnsan peşman olub öz əməlindən,
Tapa gözəlliyi yenə əzəldə.
Baxıb təyyarəyə qırğı düzəldə.
Allah lənətləyib, qarğıya bizi,
Qırğıya tapşıra taleyimizi.

*May 2001*

## GƏRƏKSİZ

Od almazdı bir zaman bu dərdimdən o dərdim.
«Mən çıxmağa təpə yox, uca dağ istəyirdim*».
Bircə diki çıxmağa indi fərasətim yox,
Ayaq üstə durmağa bir ləhzə taqətim yox.
Qüvvətimi itirib, öz-özümü danmışam,
Ömrü-günü xərcləyib, ad-ünvan qazanmışam.
İndi bu ad-sanımdan gileyliyəm, yoxsa, mən?
Məgər bu deyildimi gecələri əridən,
Gündüzləri üyüdən zəhmətimin məramı?
Məgər qazanmadımmı bu adın hesabına
Bugünkü ehtiramı?
Mən içəri girəndə ayağa dursalar da,
Məclislərin başında məni oturtsalar da,
Hər şey mənim gözümdə indi başqa rəng alıb,
Tanıdığım bu dünya mənim kimi qocalıb.
İndiysə öz içimdə batıb unudulmuşam,
Artıq özüm üçün də mən gərəksiz olmuşam.

*Mart 2001*

*60-cı illərdə yazdığım "Dağda şəlalə kimi" şeirimdən misra.

## KİLİD

Hər yan kilid,
Zaman kilid,
Dövran kilid.
Evlər kilid, bağlar kilid.
Ürəkdəki sirləri də bağlar kilid,
saxlar kilid.
Ağılda, könüldə
kilid,
Dildə kilid.
Qanun kilid, qayda kilid,
Yer də kilid, göy də kilid.
Adamların kilidlərdən qaçarı yox,
Kilidlərin bu dünyada açarı yox.
O dünyada varmı görən?
Rahat olaq, barı, gorda.
Bir səs gəldi qulağıma:
Kilid burda, açar orda.

*İyul 2001*

## HƏQİQƏTDƏN YALANA

Düzəldərdim mən özüm
Xizəyimi, atımı,
Qamış ipdən hörərdim
Cilov kimi çatımı.

Ağac atla «çapardım»
Dərələri, dağları.
Görməmişdim dükanda
Satlıq oyuncaqları.

İçməmişdim şüşəyə
Doldurulan suyu mən,
İçərdim baş endirib
Çeşmələrin gözündən.

Hər bir dərdin dərmanı
Torpaq – anamdı mənim.
Otlu-ələfli dağlar
Əczaxanamdı mənim.

Nə gözəldi quşların
Uçuşu dəstə-dəstə.
Heç zaman görməmişdim
Quşları dar qəfəsdə.
Ətirli gül-çiçəklər

Bağçalarda var ikən,
Hardan çıxdı, bilmirəm,
Kağız güllər, matam mən.

Torpağın övladıydım,
Həm göy, həm də yer mənim.
Göydə ulduzlar mənim,
Yerdə çiçəklər mənim.

Ulduzlar işığıyla
Salam göndərir yerə.
Bəlkə, əcdad ruhudur,
Səpələnib göylərə?

Ağac budaqlarından
Sallanıb yellənərdik,
Zirvələrə dırmaşıb,
Dərələrə enərdik.

Bu oyunlar uşaqlıq
Ehtiyacından idi.
İdman dərsi deyildi,
Gerçəkcə idman idi.

Bu oyunlar könüldə
Həvəs idi, eşq idi.
Uşaqları həyata
Hazırlayan məşq idi.

Hanı çilingağaclar?
Hanı dirədöymələr?

Su qabında üz-üzə
Gəlib duran iynələr?

Qulağımdan gedərmi
Tütək səsi, saz səsi –
Qanları qızışdıran
Zurna tərəkəməsi.

Hər şey yalan, uyduruq,
Hər şey saxta oyuncaq.
Ürəkdəki bir fikir
Dildə olur baş-ayaq.

Gör, indi biz hardayıq,
Harda qalıb zatımız.
Zaman ilə əl-ələ
Dəyişdi ovqatımız.

İndi önə yox, geri
İməkləyir körpələr.
Ana südü tükənib,
«Malış» yeyir körpələr.

Dəyişdirib dünyanı,
Yaman keçdi sənələr.
Hara getdi, bilmirəm,
Bizim nağıl nənələr?

Yun toxuyan, ip hörən
O nənələr yox indi.

Uzun tuman dəb deyil,
Qısa yubka geyindi.

Xəyal qanadlandıran
Şirin nağıl yerinə,
Lətifələr danışır
Nənə nəvələrinə.

Torpaq üstdə oynadım,
Oylağım çəmən, çayır.
Bu gün mənim nəvəmsə
Parket üstdə oynayır.

Dəyişdi fitrətimiz,
Dəyişdi xislətimiz.
Bizi hara aparır
Təyyarə sürətimiz?

Bu gediş, bu qaçışla
Dirənmişik dalana.
Yollar gedir büsbütün
Həqiqətdən yalana.

*Avqust 2001*

## ŞÜKÜR
*(Gündəliyimdən)*

Qandığımı deyən zaman
Başımda turp əkirlər.
Haqq adına mən yazığı
Ora-bura çəkirlər.
Neyləyim ki, qoymur məni
Yaşamağa fikirlər.
Eyb eləməz, inandığım
Sabahıma şükürlər.

*Mart 1980*

## ÖMÜR – BİR DAĞ YOXUŞU

Üfüqlərə yaslanan
Dağların yorğunluğu –
Bir nəğmənin əvvəli,
Bir nağılın sonluğu.

Dırmaşınca o dağa
Hər cəfaya dayandıq.
Ömrüm son pilləsində
Biz qəflətdən oyandıq.

Ömür – bir dağ yoxuşu
Yoracaq qalxmaq səni.
Özün istəməsən də,
Əyəcək o dağ səni.

Qismət olmur hər kəsə
Şərəfli bir qocalıq.
Ucalığın önündə
Əyilmək də ucalıq.

*Aprel 2001*

## SABAH

Əzab-əziyyətə qatlaşıb bu gün,
Burdan yol salırıq gələcək üçün.
Həqiqət həmişə doğar xəyaldan,
Əməl göründümü – ölər yalanlar.
Bəlkə, çəkdiyimiz bu hamar yoldan
Bir yol keçməyəcək yolu salanlar.
Bu yolda qasırğa, boran, qar, çisək.
Nədir umduğumuz Allahımızdan?
Biz əgər sabahı bu gün əkməsək,
Zülmət boylanacaq sabahımızdan.

*Noyabr 2001*

## DƏRS

Yazıram, pozuram elə bir ucdan,
Amma ürəyimcə olmur hər biri.
Bu gözəl, bu orta, bu pis, bu yaman
Mənim qəlbimdədir pisin ağrısı,
Xalqın qəlbindədir yaxşının yeri.

Yaxşı da, yaman da mənimdir, amma
Hər qəlbin töhfəsi bir ola bilmir.
Bəs niyə hamısı dönüb duyğuma
Başqa könüllərə yol bula bilmir?
Biri doğulanda ölür an kimi,
Biri də doğulur hər gün dan kimi.

Qəlbimin qanından mayalanmayan
Şeirimin dərsini verəcək zaman.

*İyul 2001, Şəki*

## ÖLÜM – ƏBƏDİYYƏT

Müdam eşidirik, öldü filankəs.
O öldü, ölənə varmı bir əvəz?
Məzarlar qazılır cərgəbəcərgə.
Bu qədər ölən var, ölənlə birgə
Bəs niyə ölümün özü heç ölmür?
Bu sual verilir, səbəb çözülmür.
Amma bıçaq kimi batır qəlbimə
Əbədiyyət imiş ölüm, sən demə.

*Fevral 2001*

## NƏ İMİŞ GERÇƏK?

Nədir bu ölümlər, nədir olumlar?
Nə gəliş, nə gediş sorulmur bizdən.
Axı, nə gəlişdən xəbərimiz var,
Nə də bu dünyadan gedişimizdən.

Bəlkə də, bu həyat bir yuxu, röya?
Nədir ilk, nədir son, nədir gələcək?
Bəlkə, bizdən əvvəl gəlir dünyaya
Bizim taleyimiz... budurmu gercək?

Getməyə gəlirik... Buna haqq dedik.
O dünya, bu dünya nə imiş, görən?
Dünyaya gec gəlib ilki bilmədik,
Tez də gedəcəyik sonu bilmədən...

*May 2001*

## GƏLMƏYİM NEÇİNMİŞ?
## GETMƏYİM NEÇİN?

*Filosof qardaşım **Fərman İsmayıllıya***

Yetmiş beş an imiş bu yetmiş beş il,
Yaşıma çevrilən o illər hanı?
Tanıya bilmədim mən dili-qafil,
Nə özüm özümü, nə də dünyanı.

Axtardım bu sirri ömrüm boyu mən,
Anlamaq mümkünmü? Çətin, çox çətin!
Yaşadığım dünya nə imiş, görən?
Gəlməyim neçinmiş? Getməyim neçin?

Dünya ləzzətini, dünya cövrünü
Bəlkə, məqsəd imiş daddırmaq bizə?
Yaşanan xoş günü, ya da bəd günü
Biz ki, qismət bildik taleyimizə.

Adı var, özü yox əbədiyyətin
Ruh nədir? Demədi Peyğəmbər belə.
Düşündük, yoxluğa məhkum xilqətin
Payı yaşamaqdır gümanlar ilə.

Bilməyə çalışdıq biz Kainatın
Sirrini... Ucaldıq yerdən o yana.
Bir şeyi bilmədik, bilik həyatın
Cavab verə bilmir suallarına.

Bir duyğum oynadır məni yerimdən,
Bilmirəm, bildiyim səhvimi, ya gerçək?
Çətindir on ilə bildiklərimdən
Bir anlıq duyğumu dilə gətirmək.

Əbədi gəlişin, əbədi köçün
Məramı sirr olur bizə hər zaman.
Bildim ki, yanmadım gəlişim üçün
Yanıb gedəcəyəm amma dünyadan.

*Fevral 2001*

* * *

Çiynimdə sükutun ağır pəncəsi,
Suyun şırıltısı, yarpağın səsi.
Otun xışıltısı, bu meh, bu rüzgar,
Ötən dəqiqələr, ötən saatlar
Biri digərinə bənzədiyindən
Ötən zamanı da hiss etmirəm mən.

Üzünü gördükmü dövr edən qanın,
İlkindən bu yana ötən zamanın?
Əməli görünər, amma özü yox
Səsi yox, izi yox, görüntüsü yox.

*Oktyabr 2001*

## MƏNİ QAYTAR ÖZÜMƏ

Oxu, dönüm gözünə,
Bu dünya nəğmələnsin.
Səsindəki dalğadan
Aləm nura bələnsin.
Çiçəklənsin yamaclar,
Düyмələnsin ağaclar.

Bilmirəm, bu dünyanın
Əyrisi nə, düzü nə?
Oxu, oxu nəğmənlə
Məni qaytar özümə.
Aləm nura bürünsün,
Dünya cənnətə dönsün.

Elə oxu, dağılsın
Göy üzündən buludlar.
Boylansın bu nəğməyə
Qar altından göy otlar.
Axar sular durulsun,
Səsinə heyran olsun.

Elə oxu, səsindən
Qoy, ərisin yalanlar.
Utansın bu nəğmədən
Niyyəti şər olanlar.
Səsindəki yanğıdan
Bir anlıq dursun zaman.

*2000*

## ÇADIR ŞƏKLİ

Nəvazişsiz, qayğısız,
Ey küçə uşaqları.
Vətənində vətənsiz,
Xalqın sinə dağları.

Quşun da sığınmağa
Var bir yuva məkanı.
Ey körpə quşcığazlar,
Sizin yuvanız hanı?

Gündüzlər məktəbiniz –
Oylağınız küçələr...
Çadırınız varmıdır
Yatmaq üçün gecələr?

Onların arzuları
Bir doyumluq çörəkdi.
–Ev şəkili çək – dedim,
Bir çadır şəkli çəkdi.

*İyul 2001*

## CƏNNƏTDƏN ƏZABA

İlahi şahidsən sən özün... gündə
Neçə yol gah öldüm, gah da dirildim.
Boğula-boğula dərdin içində
Mən necə bu qədər yaşaya bildim?

İztirab çəkməkdə yoxmu həddimiz?
Mənə bəs bu ömür çox olmadımı?
Sonra düşünürəm: ulu ceddimiz
Cənnətdən əzaba qovulmadımı?

Ölümdən qorxmayın, qorxun əzabdan
Qorxanda, çöp gəlib gözə düşürmüş.
Demə, ceddimizin nəfsindən doğan
Günahın cəzası bizə düşürmüş.

Ceddin xətasını dərk eləyincə
Bilirik nə imiş çəkdiklərimiz.
Hələ bu dünyaya gəlməzdən öncə
Heç demə, əzabın məhkumuyuq biz.

*Oktyabr 2001*

## HARDA YANĞI VARSA, İŞIQ ORDADIR

*K.V.Nərimanoğluna*

Soruşma, dahilər, görəsən, neçin
Ögey övladıdır zəmanəsinin.
Xalq üçün yananlar Adəmdən belə
Qarşı-qarşıyadır zəmanəsilə.

Bir eşqin naminə yanan nur çilər
Yanğıdan fışqırar işıq hər zaman.
Ulduzlar yanmasa, görünməzdilər
Görünmür yanmayan, görünür yanan.

Qızıla həsədlə boylanıb dəmir
Cingildər: «Mən ondan əsgiyəm məgər»?
Görünən zirvəni görmək istəmir
Alçaqda dayanıb görünməyənlər.

Dahinin ayağı qopmaz bu gündən
Amma xəyalları ürəklərindən
Süzülən işıqlı sabahlardadır,
Harda yanğı varsa, işıq ordadır.

Dəstəyə çevirir inam, inadı
Gizli bir sirridir bu da Allahın.
Bu günün əzabkeş, ögey övladı
Doğma övladına dönür sabahın.

*Dekabr 2001*

## ARTIQ ZƏNGƏ DÖNÜB ZƏNCİRİN SƏSİ

*Cənubi Azərbaycanda milli istiqlal*
*mücadiləsinin lideri M.Çöhrəqanlının*
*Bakıya gəlməsi münasibətilə*

Vətəndən vətənə gələn yurddaşım,
Evinə gəlişin mübarək olsun.
Sevincdən od olan mənim göz yaşım
Gəldiyin yollarda gül-çiçək olsun.

Bizim aramıza atılan daşa
Alın yazısımı, yoxsa, sirr deyim?
Vətəndən vətənə gələn qardaşa
Necə qonaq deyim, müsafir deyim?

Yaşadıq həsrətlə yüz səksən ili
Bəlkə, tərs dolanır bu çərxi-dövran?
«Yurdum-Azərbaycan, dilim–Türk dili»
Deyən bal qoxulu dilinə qurban.

Heyhat! Əməlimiz arzudan qısa,
Bilirik, əməlsiz arzu yetimdir.
Yurdun bir qanadı istiqlaldısa,
O biri qanadı əsarətimdir.

Millətin istiqlal yollarındakı
Daş təkcə arzuyla yoldan çəkilməz.

Hərəkət etməyən, qollarındakı
Zəncirin səsini eşidə bilməz.

İnamla, imanla, cəsarətinlə
Zülmə, zalimlərə sən dərs vermisən.
Xalıqın qulağına hərəkətinlə
Zəncirin səsini eşitdirmisən.

Artıq zəngə dönüb haray qoparır
Qollara vurulan zəncirin səsi.

Zülmün, əsarətin bağrını yarır
Bu səs-istiqlalın zəfər müjdəsi.

Həyəcan təbili, o zəngin səsi
Yağlı bir şillədir əli qanlıya.
Ən böyük uğurdur, haqqın şilləsi
Çöhrəsi işıqlı Çöhrəqanlıya.

Zəng səsi yatanı oyandıralı
Millət öz haqqını dərk edəcəkdir.
Quzeydə alışan zəfər tonqalı
Güneyin buzunu əridəcəkdir.

*Mart 2001*

## QƏDƏRLƏ SAVAŞ

Duranda qədərlə istək üzbəüz
Qədər bir söz dedi, istək ayrı söz.
Qədər qismətimə gözümü yumdum,
Daha nələr, nələr Allahdan umdum.

Sonra anlayınca ləyaqətimi
Qədərdən çox gördüm öz qismətimi.
Gerçəyi haqq kimi düşünən zaman
Dedim ki, bəlkə də, savablarımdan
Daha böyük imiş günahım, suçum.
Qədərin verdiyi az deyil mənə
Qoyuldu çəkiyə haqqımla borcum
Aldığım nə imiş, bəs, verdiyim nə?

Qismətə güvənib haqqa əyildim
Bunu da anladım, bunu da bildim:
Qədərlə güləşmək hədd aşmaq imiş
Özün özün ilə savaşmaq imiş.

*Noyabr 2002*

## DÜNƏN DƏ, BU GÜN DƏ...

*Əziz dost Ramazan Qafarlıya*

İstiqlal yolunda qələm çalanda
O ki var qınayıb döydülər bizi.
İstiqlal eşqimiz, zəfər çalanda
İstiqlal adına söydülər bizi.

Ağı da qaraya yozdular o vaxt
Saray tulaları bizə hürdülər.
Azadlıq dərdini biz çəkdik, ancaq
Onun faydasını onlar gördülər.
Onda da yamandıq, indi də yaman
Aman, vətənsizlər əlindən, aman!

Qapılar dalında gözü kölgəli
Boynu bükük idi anamın dili.
«Ana dili» – deyib çığıranda mən
«Millətçi» adıyla yaşadım dünən.

O özgə dillilər verib səs-səsə
Dedilər: «Deyilik sənlə şərik biz.
Nədir ana dili? Lazım gələrsə,
Onu da bir gündə dəyişərik biz».

Deyənlər, bu dili, bilmirəm, bu gün
Nə tez öyrəndilər?.. Bir Allah bilər.
Sabah, lazım gəlsə, xeyirləriyçün
İtin də dilini öyrənərdilər.
«Başımız üstündə özgə kölgəsi

Olmasa, məhv edər bizi özgəsi» –
Deyən vətənsizlər dünən heç demə,
Bu xalqın dərdini yayıb aləmə.
Azadlıq odunun pərvanəsiymiş
"Düzlüyün, özlüyün, haqqın səsiymiş".

Heç demə, bizmişik itirib izi
Daim məqsədimiz olmuş qəsd-qərəz.
Onda da, indi də dandılar bizi
Onda millətçiydik, indi türkpərəst.
Yenə onlar haqlı, yenə biz haqsız,
Yenə biz günahkar, onlar günahsız.

İndi onumuz bir, birimiz ondur
Aqil göstərirlər bizə cahili.
Həyasız oğrunun dili uzundur,
Qısadır həyalı doğrunun dili.

Anlamaq çətindir, hansıdır, görən,
Bu üzü qaralıq, o üzü ağlıq?
Bəs hardan cücərdi, anlamıram mən
Dəngə pozğunluğu, bu baş ayaqlıq?
Onda da, indi də nizam pozuldu,
Səadət onların, dərd bizim oldu.

Dünən də, bu gün də haram yeyənlər
İndi kül üfürür gözlərimizə.
Ömründə vətəni düşünməyənlər
Vətən sevgisindən dərs verir bizə.
Görəsən, hardadır bizim bəlamız?
Bəlkə, bic doğulub istiqlalımız?

*Fevral 2001*

## BUGÜNƏM MƏN

Bir vaxt düşünərdim dəli könlümlə bərabər
Mən bir bütünəm, vahidəm aləmdə sərasər.
Rəbbim, bu düşüncəmdə yanıldım, bu da yanlış!
İdrak da yalan, hiss də yalan, duyğu da yanlış!
Qurtar məni sən ruhuma əngəl cəsədimdən,
Keçmişlə bütün bağları qopmuş bugünəm mən.

*May 2001*

## ÖZÜMLƏ SÖHBƏT

Bu yaşda nə qədər qohum-qardaşı
Atamı, anamı, dostu, sirdaşı
Görünməz dünyaya yola salmışam
Görünən dünyada yalqız qalmışam.

Bu iki dünyanın arasında mən
Hesab istəyirəm özüm özümdən.
O haqq divanında sorğu-sual çox,
Yüz cavab ödəmir bircə sorğunu.
Görünməz dünyadan xəbər verən yox,
Görünən dünyada görürəm sonu.

Yaşıdlar tükənib, dostlar seyrəlib
Neynim, tanışlarla bir ülfətim yox.
Təkliyin vəhmindən çox vaxt kövrəlib
İçimdə batıram, həmsöhbətim yox.

Özümdən özümə çoxdur qeybətim
Heç kəsi danlağa dil dönə bilmir.
Onunla, bununla bitib söhbətim,
Özümlə söhbətim tükənə bilmir.

*May 2002*

## BİTDİ GÖZLƏMƏLƏR

*Oğlum İsfəndiyara*

Bitib alışmağım, bitib yanmağım
Yumağa döndərdi məni bu gərdiş.
Həyat – bir arzuya qanadlanmağım,
Həyat – nəyi isə gözləməyimmiş.

Günbəgün çoxalır amanlar, ahlar
İndi dünya özgə, artıq mən özgə.
Ümidsiz açılır indi sabahlar
Heç nə gözləmirəm ölümdən özgə.

Allahın verdiyi bu qismət nəymiş?
Gəldim getmək üçün... Bu qədər ancaq.
Vaxtın sürətiymiş, hərəkətiymiş
Taledən nə isə gözləmək, ummaq.
Bitdi gözləmələr, dayan, ey qatar
Uzun yolçuluğun nə mənası var?

Bir oddan qurtarıb düşdüm min oda,
Mənim gözlədiyim istiqlalım da
Torpaq itirməyin dərdilə gəldi.
Dözüm uzandıqca ömür gödəldi
Azadlıq qazanıb torpaq itirdik,
Birini alınca, birini verdik.

Başqa gözləmələr bundan beş betər!
Arzuya yetincə marağın itər.

Bir şeyi anladım həyatdan, oğul
İtirə-itirə getdiyim bu yol
Vaxtın axarında tək bircə anmış,
Bizə pay verilən ömür yalanmış.
İndi bu ömür də bir anıt oldu
Bir fındıq qazandım, içi fıt oldu.

Gözləmək naminə yelə vermişəm
Ömrümü, günümü yanıb şam kimi.
Bir vaxt ayıldım ki, mən itirmişəm
Yaşamaq eşqimi, həyat eşqimi.
Yorğun ürəyimin indi bir gilə
Bu vecsiz dünyadan təmənnası yox.
Bitib haqq – hesabım bu dünya ilə
Artıq yaşamağın bir mənası yox.

İçimdə boğuram öz fəryadımı
Dəyişib yerini günəşim, ayım.
Allahım, özün de, çox olmadımı
Mənə bəxş etdiyin bu ömür payım?
Bitdi gözləmələr... dayan, ey qatar
Uzun yolçuluğun nə mənası var?

*Oktyabr 2001*

## DƏYİŞMƏLƏR
*(İşlənmiş variant)*

Biri gedər, biri gələr
Bu dönmələr, dəyişmələr...
Təbiətin, cəmiyyətin
Öz yolu var, öz axarı, inadı var.
Çağa, uşaq, cavan, qoca!
Bircə ömrün dörd adı var.
Dəyişirik ölənəcən
Nə sən sənsən, nə də mən mən.

Bu nöqtədə yüzə dönür
Tək bir dərdim, tək bir çiləm.
Mən həm mənəm,
Amma həm də mən deyiləm.
Nə deməkdir
Budaqlarda yaşıl olub
Yavaş-yavaş qızarmalar?
Dəyib, – yəni, dəyişibdir
O dənənki kal almalar.

Qışdan yaza, yazdan qışa
Nə ad verək bu axışa?
Möcüzəli dairəmi?
Fəsil də dörd, bir ömrün dörd adı kimi.
Nədir, kimdir nizamlayan
Fəsillərin,

Nəsillərin get-gəlini?
Necə tapaq, hardan tapaq
Bu sehrli dairənin əvvəlini?

Bulud – yağış, dağ – düz olur,
Gecə dönüb gündüz olur.
Təbiətin iki üzü,
Cəmiyyətin min üzü var.
Bir mətləbin, bir məramın
Min əyrisi, min düzü var.

Bu enmələr, bu düşmələr
Bu dönmələr, dəyişmələr
Canavarı it eylədi.
Ağacları geyindirib
Sonra dönüb lüt eylədi.
Vaxtın hökmü bir alçağı
Birdən-birə büt eylədi.

Birdən-birə
Yalan dönür həqiqətə,
Həqiqətsə yalan olur.
Ölkələri talan edən xanimanlar
Dönüb özü talan olur.

Yalan – zülmün qalxanıdır.
Hər şey kimi
Onun da var öz dövranı.
Qılınc deyil, süngü deyil,
Gercək deşər zülm adlanan o qalxanı.

Yalan–zülmün çotur, bomboz daşlarına
Boyaçəkən hiləsidir
Zamanın gur yağışları
O boyanı siləsidir.

Yalan – zülmün süngüsüdür.
O süngüyə dəstəklənən
«Haqq da mənəm, mən» deyəcək.
Amma süngünün üstündə
O, otura bilməyəcək.
Onun hökmü bitməlidir,
Gələn bir gün getməlidir.

Haldan-hala bu keçmələr,
Bu dönmələr, dəyişmələr
Görən, nədir?
Dəyişməmək –
Zaman ilə döyüşmədir.
Dəyişməyən bir şey varsa, bu dünyada
O da yalnız dəyişmədir.

*Avqust 1999, Şəki*





# HƏSRƏT NƏĞMƏLƏRİ

*Sənin getməyinlə mən elə bildim*
*Gələcək dincliyim, can rahatlığım.*
*Bir idim, çoxaldım, bu mən, bəs o kim?*
*Bir neçə «mən» ilə doldu sol-sağım.*



## YANA-YANA
## BUZ OLMUŞAM

Evinizin kandarında
İtib mənim izim artıq.
Quruca bir «salam» qalıb
Aramızda bizim artıq.
Mən sevgisiz daşa döndüm,
Yoxdur sənə sözüm artıq.

Hər dərdimə dərman idin,
Niyə dönüb zəhər oldun?
Ey sevincim, birdən-birə
Boğazımda qəhər oldun.
Sən getsən də, düşünmə ki,
Ürəyimdən gedər oldun.

Mən boynunda mərcan idim,
Pərən-pərən pozulmuşam.
Uca-uca bir dağ idim,
Ərimişəm, toz olmuşam.
Mən bir yanar vulkan idim,
Yana-yana buz olmuşam.

*1967-1999*

## TƏZƏ BİR RƏNG ALAR

İllər, uzun illər düşdü ömürdən,
Zirvədən aşırıq... Bu sən, bu da mən.
Dizinin altına alıb zamanı
Bizi ayaqladı illər gör necə.
Xəzan küləkləri bağı, bağçanı
Soldurdu, saraldı güllər gör necə.

Hanı hisslərdəki o dəli tufan?
Yağış çisələdi, qasırğa yatdı.
Hava təmizlənib durulduğundan
Könüldə başqa cür hisslər oyatdı.

Hava sakitliyi... yer, göy ağappaq,
Hissi, duyğunu da rahatlandırır.
Yrəyin səması şimşəkdən uzaq
O, açıq, buludsuz göyü andırır.

Ağıl çılğınlığın tutdu yerini
Dəlilik sovuşdu, hisslər darandı.
Bizim aramızda indi lap yeni
Doğmalıq adlanan duyğu yarandı.

Bu yeni ilişgi, bu yeni duyğu
Ağlımdan ucadır, könlümdən dərin.
Mənim öz dünyamda heykəlidir bu,
Tər-təmiz, qərəzsiz bir ulu eşqin.

Təzə bir rəng alar böyük məhəbbət,
O, illər boyunca uzanacaqsa.
Bugünkü doğmalıq, hörmət, nəzakət
O böyük sevginin davamı, yoxsa?
Bir payız rəngi var, bir yaz rəngi var
Ürəyin hər rənglə öz ahəngi var.

*Noyabr 2000*

## CAZİBƏ

Sənin cazibəndən çıxmaq çətindir
Cazibən özünə sədaqətindir.
Hər sənə baxanda, bu nə sirdir,
Təzə bir gözəllik tapıram səndə.
Bir kədər gizlidir, bir qəm gizlidir
Sənin xəfifanə təbəssümündə.
Sənin hüsnündəki cəzbə mən acam,
Hər gün daha artıq sənə möhtacam.
Hər gün bir gözəllik, bir başqa məna
Düşürəm mənalar burulğanına.
Sən mənim qəlbimə nur tək süzüldün
Oxuya-oxuya səni mən hər gün
Qorxuram bu yeni tapıntılardan,
Hər gün daha artıq mən sənə heyran!
Sənin cazibəndən çıxmaq çətindir
Cazibən özünə sədaqətindir.
Cazibə sirrdir, o sirri açmaq
Çətindən çətindir, müşküldür, gülüm.
Hüsnün ordudursa, cazibən bayraq
Cəzbinlə ruhumu sən güldür, gülüm.
Cazibən bir almas daşı andırır,
Cazibən ruhumu cilalandır.
Cazibən hüsnünlə tənbətən oldu,
Hüsnünün əyarı cazibən oldu.
Sevinc ilə kədər, işıqla kölgə

İki rəng bir üzdə qol-qola vermiş,
İki rəng bir üzə tamlıq gətirmiş.
Sən varsan, bu dünya, bu aləm mənim
Usanıb özümdən öz naləm mənim.

*2001*

## ÜZR - TƏŞƏKKÜR

Məndən telefonda üzr istədin.
Mənə dönə-dönə «təşəkkür» – dedin.
Amandır, sən məndən üzr istəmə
De görək, borcludur bu gün kim kimə?

Cövrünü çəkmirəm mən ki, özgənin
Bu gün mənim borcum tən gəlir haqqa.
Bu tələb, bi rica haqqındır sənin,
Təşəkkür düşərmi halal bir haqqa?

Könüllü əzaba əzab deməzlər,
Onu çəkəndən də üzr istəməzlər.

*Oktyabr 2000*

## MƏLƏK KİMİ

Uçuş istəyirdin, sındı qanadın.
Bəxtindən yuxarı qalxdı öz adın.
Tər-təmiz yaşadın, mələklər kimi
Mələk qismətini yaşayammadın.

Səadət vəd etdi taleyin sənə,
Onu götürməyib, yalnız sevildin.
Sən arxa çevirib öz taleyinə,
Niyə bədbəxtliyi səadət bildin?

Kindən, küdurətdən uzaq yaşamaq
Mələk xislətinə bir həmdəm oldu.
Cənnət quşlarıdır mələklər... ancaq
Səninsə qismətin cəhənnəm oldu.

*Sentyabr 2000*

## BİR MƏKANDA
## İKİ ZAMAN

Necə oldu birdən-birə
Yada düşdü o xoşbəxt gün?
Burnumun ucu göynədi
Yaşadığım o gün üçün?

Bir məkanda iki zaman
Necə sığdı bircə ana?
Xatirələr bir körpüdür
Bu zamandan o zaman.

Qonaq getdim mən keçmişə,
Bu gerçəyin nə yalanı?
Xəyal necə yaşadı bəs
Bu zamanda o zamanı?

Vaxtın yönü irəlidir,
O dönmürsə öz yolundan.
Bəs yaş necə? Kiçildimi
Mən keçmişə dönən zaman?

Bizdən gizli min sirri var
Bir xəyalın, bir gümanın.
Demə, zaman çölündəymiş
Yaşadığım o zamanın.

*İyul 2001*

## XƏCALƏT

Gördüm, sehirləndim, bu necə tilsim?
Bu nə təsadüfdü, bu nə görüşdü?
Bir vaxt Afinada heyrətləndiyim
Qadın heykəlləri yadıma düşdü.

Xaliq, yaratdığın kamil xilqətə
Mən heç, bəs sən özün dedinmi əhsən?
Aldın qüdrətimi... bu təravətə,
Bu hüsni-kamilə biganəyəm mən.

Dağa dirənəndə axar sel-sular,
Eşilər, burular ləpələrində.
Könlümdə oyanan zərif duyğular
Gizləndi yaşımın utanc yerində.

Kəsdisə, qılıncdan itidir zaman,
Bu hökm kimsənin gəlməz eyninə.
Hissim, həyəcanım qış rüzgarından
Xəcalət kürkünü geydi əyninə.

*2001*

## ÇÖZÜNDƏ QƏM GÖRÜRƏM

Gözündə qəm görürəm,
Qəminə qurban canım.
Söylə mənə dərdini,
A mənim mehribanım.

Unut, unut dərdini
Bu beş günlük ömürdə.
Od altında əriyib
Muma dönər dəmir də.

Hər qurbana hazıram
Mən eşqimin yolunda.
Tikan da var, gül də var
Qızıl gülün kolunda.
Ölüm məqam gözləyib
Durur qapı dalında.

Mən yaxşıca bilirəm
Səndə dərdə dözüm yox.
Hələ yağış yağmamış
İslanmağa lüzum yox.

*May 2001*

## QƏDƏR BELƏYMİŞ

Zövqdə, duyğuda iki yox, birik
Biz eyni məzmunlu şerə bənzərik.
Vəzn bir, ölçü bir, bölgülər də bir
Amma son misralar qafiyələnmir.

Yoxuşa dirənən düzə bənzərik,
Atəşi qaralan közə bənzərik.
Odumuz eyniydi, közümüz eyni.
Ruhumuz, eşqimiz, özümüz eyni.

Bunlar bir gerçəkmi, ya boş düşüncə?
Bilmədik dünyaya gəlmədən öncə
Bu dünya beləymiş, göy-yer beləymiş?
Biz hardan biləydik, qədər beləymiş!

*Mart 2003*

## QORXMUŞAM

O xoş saatlarım, o xoş günlərim,
Nəşədən, sevincdən sərxoş günlərim
Ağrı-acılarla qol-boyun ötdü,
Ağrılar içimdə dərdlər böyütdü.

Heçliyə boşalan o dolu illər
Bir üzü sevincdi, bir üzü kədər.
Fərəh ağırlıqda dərd səkmişik biz,
Bədbəxtlik dadmışıq xoşbəxtlik qədər.

Sevincin içində dərd yemişik biz,
Sevdikcə sevgiyə dil demişik biz.
Ömrün ələyində günlərimizi
Günaha, savaba ələmişik biz.

Yaxşı da, yaman da keçdi ömürdən,
Hər biri payıdır bəxtin, qismətin.
Ömrün xoş üzünü unutmuşam mən,
Amma bəd üzünü unutmaq çətin!

Qorxmuşam, ölümdən qorxduğum kimi
Könlümdə boy atan dərddən, ələmdən.
İndi iki rəngli o illərimi
Yadıma salmaqdan çəkinirəm mən.

*Sentyabr 2000*

## O DA MƏN,
## BU DA MƏN

Getdin, min sualım oldu bir nida.
Sən getdin, Vətənə gəldi qürbətim.
Sən getdin, getdiyin həmən yolla da
Gəldi qüssələrim, gəldi həsrətim.

Biri bu gedişə uğur dilədi,
Biri peşman idi, biri pərişan.
Biri də birinə töhmət elədi,
Susdu o biri də utandığından.

İstədim onları barışdırım mən,
Olmadı, onlara qarışdım mən də.
Savaş istəyən də mən idim, əslən,
Savaşı ahımla körükləyən də.

Qayıt, bir yerə yığ sən o «mən»ləri
Qayıt ki, yolunu gözləyir onlar.
Getdiyin yol ilə qayıt, dön geri,
Qayıt, mənciyəzi özümə qaytar.

Getdin, min sualım oldu bir nida
Sən getdin, Vətənə gəldi qürbətim.
Sən getdin, getdiyin həmən yolla da
Gəldi qüssələrim, gəldi həsrətim.

*İyun 2000*

## QOV YUXUMU, SEVGİLİM

Gecə keçir, nədən bəs
Yuxu gəlmir gözümə?
Neçin yata bilmirəm,
Mat qalmışam özümə.

Ürəyimin atəşi
Məni cana gətirmiş.
Səni tapan gözlərim
Yuxusunu itirmiş.

Yuxum qaçıb gözümdən
Ürəyimlə bərabər.
Pəncərənin önündə
O, dolaşır gecələr.

Yuxum qaçıb gözümdən
Sevgi bumu, sevgilim?
Pəncərənin önündən
Qov yuxumu, sevgilim.

*Oktyabr 2000*

## QÖVSİ–QÜZEH HARDADIR?

İlk dəfə gördüm, gülüm,
Yağışlı gündə səni.
O zamandan saxlaram
Gözüm üstündə səni.

Güldü dilimdə adın,
Könlümü cidarladın.
Sən qövsi-qüzeh olub,
Göy üzündə parladın.

Günlər axdı, dolandı,
Könlümə qəm calandı.
Mən əvvəl bir can idim,
Bir canım haçalandı.

Könül intizardadır,
Ayrılıq zəhər dadır.
Yağış kəsdi, söylə bəs
Qövsi-qüzeh hardadır?

*Fevral 2001*

## ÇİÇƏK

Kamilsən, bütövsən, nursan, işıqsan
Ağlın kəsmədiyi bir yaraşıqsan.
Arzu çox, xəyal çox, ömür bir cərək.
Laləni, nərgizi qəhr edən çiçək,
Ətrini içində gizlədən çiçək
Ətrini gizlətdin, sirrə büründün,
Mənimçün qaranlıq meşəyə döndün.

*Avqust 2004, Mərdəkan*

* * *

Məhəbbət var,
İnam var
Söylə, bəs birlik hanı?
Əbədi gözləmədir bu sevdanın ünvanı.
İstəmirəm gün sayım,
ya ay sayım,
il sayım.
Xəyalımda yaşadın,
Xəyalında yaşayım.

*Sentyabr 2004, Mərdəkan*

* * *

Gündüzüm tilsimli, gecəm röyalı
Mən ruha çevrilib, sənə köçmüşəm.
Sən mənim könlümü ovsunlayalı
Mən özüm–özümə özgələşmişəm

*Sentyabr 2004, Mərdəkan*

## ƏBƏDİ BİR RUHSAN

A mənim sultanım, a mənim bəyim,
Ürəyin sevdası həmişə haqdır.
Sənə bəslədiyim sonsuz istəyim
Ömrümdən o yana uzanacaqdır.

Hay-həşir... Sonra da uzun bir sükut,
Günahkar bilməyək burda kimsəni.
Ensin başın üstə bir parça bulud,
Əyri baxışlardan qorusun səni.

Qısqanclıq? Nə olar, sevgidir o da,
Məni səni sevəli düşdüm bu oda.
Demə, axı, hər şey gəldi – gedərdi,
Mənim qısqanclığım sevgim qədərdi.

Harda aləm varsa, orda biz varıq
Sevib sevilməkçün yaranmışlarıq.
Sevda yolçusuyuq həm sən, həm də mən,
Sevgimiz göyərdi diləyimizdən.
Mənim məramımdır səndən güc almaq,
Sənə ucalmaq?

Qəlbində laybalay əlvan duyğular,
Sevib sevilməyə ehtiyacın var.
Gözəl xəyalları biz gerçək sayaq,
Xəyalla yaşayaq, xəyalla ancaq.

Xəyalda yoxlar da dönüb var oldu,
Vüsal mənzilimiz xəyallar oldu.
Xəyal gəlməsəydi köməyimizə,
Darısqal olardı bu dünya bizə.

Əbədi bir ruhsan məndən ötrü sən,
Gözlərim heç zaman görməz özgəni.
Min dəfə dünyaya əgər gələrsəm,
Hər dəfə yenidən sevərəm səni.

*Sentyabr 2004*

## İDEAL

Xanımsan, xatınsan, gülabatınsan,
Təpədən dırnağa əsl qadınsan.
Sən mənə bağlısan, mən sənə bağlı
Göylərin hökmilə olduq adaxlı.

Sevməkçün ürəyim əsim əsimdi,
Sevilmək öz arzum, öz həvəsimdi.
Xəyallar qoynunda yaşayıram mən,
Xəyallar – arzumdan əsən nəsimdi.
Xəyalda kam almaq! Bu da bəsimdi.
Sən mənim əl çatmaz öz xəyalımsan,
Ən böyük, ən ülvi idealımsan.
İdeal yolunda qeylü-qal olmaz
O, həyata ensə, ideal olmaz.

*2004*

## MÜMKÜNMÜ?

Bu sövda dəhşətdir, bu sövda zülüm.
Dağ çəkdi çəkdiyim bu zillət mənə
Bu sövda uçuruma dirənib gülüm,
Səni unutmağı sən öyrət mənə.

Könlümün hakimi, sultanısan sən,
Xəbərin yoxmudur öz qüdrətindən?
Unutmaq istərəm, səni unutmaq
Özümlə bacara bilmirəm ancaq

«Unutmaq» deyəndə vallah, qan ağlar
Sinəmdən asılan bu dustaq ürək
Səni unutmağın bircə yolu var;
Əvvəlcə özümü unudam gərək.

*Avqust 2004*

# QƏZƏL, QOŞMA, GƏRAYLI





*Bağlanmışam adına*
*Möhtacam imdadına.*
*Məhəbbətin oduna*
*Öz-özünü dağla, gəl.*

## HÜRRİYƏTƏ MÖHTAC

Dünyaya gələndən hamımız hörmətə möhtac,
Zəhmət çəkənin zəhməti bir qiymətə möhtac.

Səndən hərəkət, Tanrıdan ancaq bərəkətdir,
Hər qalib olan eşqlə bir zəhmətə möhtac.

Dünya alır öz nurunu daim ululardan,
Hər xalq və cəmiyyət ulu şəxsiyyətə möhtac.

Əvvəlcə dilək, sonra xəyal, sonra əməllər,
Ən üstün əməl öncə böyük niyyətə möhtac.

Azad yaşamaq, hürr yaşamaq insanın haqqı,
İnsan olan əkmək qədər hürriyətə möhtac.

*Fevral 2001*

## ELƏ HAQQ VAR Kİ...

Elə haqq var ki, gülüm, haqqın özündən uludur,
Quluyam mən o kəsin ki, o da haqqın quludur.

Doğulandan ölüyük biz, nə həyat var, nə ölüm,
Ölümün qorxusu ondan daha çox qorxuludur.

Ruhu pərvazlanacaq nəfsinə zülm eyləyənin,
Ruha qulluq eləmək, hər kəsə cənnət yoludur.

İçimizdən göyərir qol-qola şeytanla mələk,
Xeyrimiz, həm şərimiz hər kəsin öz sağ - soludur.

Kola lənət demədən kolda bitən gülləri gör,
Yaxşı bax, yaxşı əməllərlə bu aləm doludur.

*İyul 2000*

## SƏN DEDİN, MƏN DEDİM

Bu cansız aləmdə sıralanıbdır
Hər şey yumşaq ilə bərk arasında.
Ağıl gözü ilə fərqi görərsən
Əsl səxavətlə görk arasında.

Çox şey bu dünyada unudulsa da,
Dünən boşaltdığın bu gün dolsa da,
Fikrimiz, yolumuz eyni olsa da,
Fərq yoxmu qəsd ilə ərk arasında?

Vaxtdır hər köhnəyə təzə rəng vuran,
Bir yandan uçuran, bir yandan quran.
Əslində, eynidir, zamandır duran
Dublyonka ilə kürk arasında.

Dünən uyuyanlar bu gün oyanmış
Gördüyü röyanı həqiqət sanmış.
Babanla atanın yaşı dayanmış
Motal papaq ilə börk arasında.

Dünya da bölünür gecə-gündüzə,
Yalana, gercəyə, əyriyə, düzə.
Ən böyük həqiqət açılır bizə
Görüb duymaq ilə dərk arasında.

Mən dedim, sən dedin, yenə mən dedim,
Bir addım geriyə mən çəkilmədim.
Sən dediyin fərqi görə bilmədim,
Vallah, Azəriylə Türk arasında.

*Avqust 2000*

## BİLMİRƏM

Heç bilmirəm niyə gəldim dünyaya
Gəldim, niyə getməliyəm, bilmirəm.
Düşünəndə əvvəlimi, sonumu
Ağıllıyam, ya dəliyəm, bilmirəm.

Ömrüm boyu gəzdiyimi bulmadım
Bu dünyadan muradımı almadım.
Taleyimin öz sahibi olmadım
Bəs beləysə, kiməm, nəyəm, bilmirəm.

Dünya özü başdan başa sirdimi?
Son yerimiz göydü, yoxsa, yerdimi?
Öz içimdə boğmalıyam dərdimi,
Ya mahnı tək ötməliyəm, bilmirəm

*Oktyabr 2000*

## YETƏRMİ?

Bizə ağıl verdi Allah, bu ağıl
Onu dərk etməyə bizə yetərmi?
Nə qədər istəsən göyə səcdə qıl,
Görünməzi görmək gözə yetərmi?

Əlimiz uzundur, ağlımız gödək,
Bir daşın üstündə bir bostan əkmək,
İnsan ürəyinin rəsmini çəkmək,
Allahım, bir rəngə – boza yetərmi?

Sözümü şerimlə deyəndən bəri
Sandım, sözümdədir fikrin cövhəri.
Soruram: duyduğum dərinlikləri
Hissim qədər demək sözə yetərmi?

*Oktyabr 2001*

## BU DA BİR HƏQİQƏT

*Köhnə dostum İdris Qasımov üçün*

Ləyaqət, dəyanət, səadət bu gün
Sənin boş xəyalın, boş gumanındır.
Al – əlvan çiçəklər dərə-təpənin,
Vüqarlı dağlarsa çən-dumanındır.

Zaman – yalanlara baş əyənlərin,
İnsafa, mürvətə yox deyənlərin,
Haqlının haqqını çeynəyənlərin,
Haqqa, həqiqətə göz yumanındır.

İçində boğular qananın səsi,
Təndirdə küt gedər daim kündəsi.
Qanmaz – bu dünyanın xoşbəxt bəndəsi,
Dünya – gördüyünü qanmayanındır.

Küncə sıxışdırıb indi qış, yayı,
Havaya sovrulur xalqın ah-vayı.
Qaranlıq – işıqçün yananın payı,
İşıqsa – işıqçün yanmayanındır.

*İyul 2001, Şəki*

## KÖNLÜM

İstərəm dərd gözlə baxa dünyaya
Nə dincələ könlüm, nə yata könlüm.
Var səslə qışqıra, haray qopara
Qafili qəflətdən oyada könlüm.

Çöldə sərçə uçar, zirvədə qartal
Bu iki uçuşu düşün, ibrət al.
Zirvə başındadır ən ulu amal
Çırpınır çatmağa o qata könlüm.

Dünya tamaşadır başdan, binədən
Kimi oyunçudur, kimi seyr edən.
Duyduğum sirləri çözələyib mən
Kaş, ayna tutaydı həyata könlüm.

Fələklər səmada dolanıb dönür
Bir ulduz qəflətən şığıyıb sönür.
Olanı görməyə nə var? Görünür,
Səbəbi görməyə can ata könlüm.

Gördüyüm çox şeyə məəttələm mən,
Çiçəyin ətrindən, quşun səsindən.
Dərs alıb göylərin möcüzəsindən
Şerimdə möcüzə yarada könlüm.

*Yanvar 2002*

## AĞIL BİR ŞÜBHƏDİR

*«Allah bir şeyi yaratmaq*
*istədikdə onun əmri*
*o şeyə «ol!» - deməkdir.*
*Və o şey də dərhal olur».*
**Yasin surəsi, 82**

Bəzən həqiqətin axtarışında
Gözə güvənilmiş, qəlb unudulmuş.
Ağlımla ürəyim birləşən zaman
Mənim sağ bildiyim, görürəm, solmuş.

Ocağın altını, üstünü yox, yox
Közünü çözələ, tüstünü yox, yox.
Dünənki düşüncə bu günü yox, yox
Bu günkü düşüncə dünəni bulmuş.

Beynimdə fikirlər verir səs-səsə
Bu onu rədd edə, o bunu kəsə.
Anlaya bilmirəm zaman keçməsə
Dünən gül bildiyim, bilmirəm, kolmuş.

Həm yerə şübhə var, həm göyə şübhə
Varlığa, yoxluğa, heçliyə şübhə.
Ağıl bir şübhədir, hər şeyə şübhə
Şübhə həqiqətə uzanan yolmuş.

Tutub mən o yolu getdim,
Kainat
Açıldı, büküldü fikrimdə qat-qat.

Dünyanın əvvəli bildim, nəhayət,
Allahın dediyi bir kəlmə: «Ol!»muş.

*Yanvar 2003*

## BU NADAN

Dünyanı dərindən anlamasa da,
Xeyrini, şərini qanır bu nadan.
Yanmaz el eşqinə, vətən eşqinə
Dolların eşqinə yanır bu nadan.

Pulu xəzəl bilir. gülü kol bilir,
Küləyi yel bilir, arxı sel bilir,
Neçə yöndəm bilir, neçə yol bilir
Allahın yolunu danır bu nadan.

O xilaf çıxmadı öz ədasına
Bircə gün baş çəkdi dədə yasına.
Amma oynaşının papulyasına
Evli olduğunu danır bu nadan.

Vətənin dilinə arxa çevirdi
Bir vaxt rus dilinə könlünü verdi.
İndi ingilisi bilməkdi dərdi
Yüz il yaşayacaq sanır bu nadan.

*Aprel 2002*

## GÖZÜNDƏ

Sabahın eşqilə bu günə baxsan,
Ümidin nur olub çağlar gözündə.
Gül ki, dünya sənə cənnət görünsün,
Ağlasan dünya da ağlar gözündə.

Çəkənə dünyada qəm əskik deyil,
Arsıza heç zaman dəm əskik deyil.
Bədbinin gözündən nəm əskik deyil,
Arif göz yaşını saxlar gözündə.

İnama arxalan, özünə güvən
Aşılmaz dağları aşmaq istəsən.
Təpəyə çevrilər yolunu kəsən
Sıldırım qayalar, dağlar gözündə.

*May 2002*

## RƏBBİM

O qədər dərd çəkdik, bərabər oldu
Həftələr aylara, ay ilə, Rəbbim.
Məni əldən saldı ömrün yolları
Yetincə sonuncu mənzilə, Rəbbim.

Dərdin siqlətini daş çəkə bilmir,
Anın yıxdığını il tikə bilmir,
Ürəyin yükünü can çəkə bilmir
Çəkdikcə çoxalır o, hələ, Rəbbim.

Fikir düyün düşdü, ağıl dolaşdı
Getmək istədiyi yolu da çaşdı.
Əzab dalğaları başımdan aşdı
Çıxart mən batanı sahilə, Rəbbim.

Könül çox axtardı qibləgahını
Axır səndə tapdı öz pənahını.
Ötən illərimin min günahını
Çılğın gəncliyimə əfv elə, Rəbbim.

*Aprel 2002*

## AĞAC

Dağları, daşları yaşıllaşdırıb,
Gözəllik hissini oyadan ağac.
İnsana şirincə duyğu bəxş edən,
Quşlara həm yuva, həm həyan ağac.

Suyu çatmayanda saralıb-solar,
Bürküyə dözməyib yanıb qovrular.
Yarpaq dili ilə qəlbə od salar
Bizi pıçıltıyla danlayan ağac.

İsaya çarmıxdır, Musaya çomaq,
Yollara körpüdür, evlərə dayaq.
Yayda kölgə olar, qışda od-oğaq
İnsanın dostudur binədən ağac.

Demə, o cansızdır, demə, heç nədir
Bizim tək havaya, suya təşnədir.
Həm görür, həm duyur, həm də hiss edir
Bilmirəm, yerimir bəs nədən ağac?

Sözdür pıçıltısı, bizdən nə dilər?
Yanan ürəklərə sərinlik çilər.
Qədr gecəsində sabaha qədər
Allahın adını zikr edən ağac.

*Fevral 2003*

## SINDIRMA KÖNLÜMÜ
*(Nəğmə)*

Yaman tutulmuşam, sorma nədəndir
Taleyim dadıma yetişən deyil.
Toxunma könlümə, o, şüşədəndir
Sındırsan, bir daha bitişən deyil.

Toxunma könlümə, hər sözün oxdur
Yaman üşüyürəm, mənə soyuqdur.
Bir də isinməyə gümanım yoxdur
Quzeyə heç zaman gün düşən deyil.

Möhtacam bir kəlmə xoş sözə mən də
Nə qədər yuyunum dumanda, çəndə?
Dərədən burulub duman gələndə
Könül dağlarımdan ötüşən deyil.

Könlüm quş yuvası, sinəmsə dağ-dağ
Günahdan günahdır yuva dağıtmaq.
Sındırma könlümü, dön Allaha bax
O, könül qıranı əfv edən deyil.

Qırdın ürəyimi, bir də qırma, gəl,
Sözünü əməllə barışdırma, gəl,
Günahı savabla qarışdırma, gəl
Günah savab ilə, axı, tən deyil.

*2003*

## BUNA DA ŞÜKÜR

Birmi, ya ikimi, beşmi, ya onmu
Gəmirir beynimi fikir, ay Allah.
Hərəsi qolumdan yapışıb hər gün
Məni bir tərəfə çəkir, ay Allah.

Hədəflər dəyişir, kin-kin içində,
Məzhəblər qarışıq, din-din içində,
Bu qədər olməli dərdin içində
Ölmürük, buna da şükür, ay Allah

Yaşamaq qovğası çatdı son həddə
Vətən təəssübü boğuldu dərddə.
Qarabağ dərdini bu məmləkətdə
Görən, neçə nəfər çəkir, ay Allah?

Bu xalqın ah-vayı göyə dirəkdi
Bəxtiyar vay dərdi, amma gül əkdi.
Həmişə gözünü sabaha dikdi
İndiysə dünənə dikir, ay Allah.

*Yanvar 2003*

## KÖNÜL

*Könül Xasiyevanı dinlərkən.*

Boğazdan çözülən səs tellərilə
Al – əlvan ipəklər toxuyur Könül.
Əyninə geyinib duyqularını
Könül naləsini oxuyur Könül.

O səsin zil xalı yandırır bizi,
Bəmi sərinlədir ürəyimizi.
Nə imiş yanqısı, nə imiş sözü
Səsinin sehrilə nə deyir Könül?

O, gah yalvarışdır, gah sonsuz qürur
Dünyanın dərdini dünyadan sorur.
Yaralı bülbül tək gah cəh-cəh vurur,
Gah yetim quzu tək mələyir Könül.

Şair bu naləni dinləyən zaman
Dayanır onunçün elə bil zaman.
Səsinin sehrilə ulu tanrıdan
Hamıya xoşbəxtlik diləyir Könül.

*İyun 2003*

## BİLƏ BİLDİYİN QƏDƏR
***(İşlənmiş variant)***

*Əzizim Nurəddin üçün*

Çal dünyadan xoş günü
Çala bildiyin qədər.
Verəcəksən, unutma,
Ala bildiyin qədər.

Quzu kimi mələrsən,
Min-min arzu dilərsən.
Sən boşala bilərsən
Dola bildiyin qədər.

İdrak yolu – qorxulu,
Gülündən çoxdur kolu.
Gedəcəksən bu yolu
Gələ bildiyin qədər.

Gecə-gündüz çalışmaq,
Qaranlıqda yol açmaq!
Biləcəksən sən ancaq
Elə bildiyin qədər.

Bu dünyanın min donu,
Min rəngi, min oyunu.
Dərk edərsən sən onu
Bilə bildiyin qədər.

Sevinc dağına çıxsan,
Sanma dərddən uzaqsan.
Bir gün ağlayacaqsan
Gülə bildiyin qədər.

*İyul 1992, Şəki*

## İNSAN KİMİ SAXLA MƏNİ
*(İşlənmiş variant)*

Ulu tanrım, köməyim ol,
Arzuma adaxla məni.
Məni insan yaratmısan,
İnsan kimi saxla məni.

Göl olmuşam dama-dama,
Məlhəm qoyma sən yarama.
Bu sevdaya, bu mərama
Daha betər bağla məni.

Fikirlərim qatar-qatar,
Biri atar, biri tutar.
Yaxınlara əlim çatar
Qovuşdur uzaqla məni.

Soruşdular: kimdir mənim
Yaxşıma da pis deyənim?
Həm dostum, həm də düşmənim
Göstərdi barmaqla məni.

Ey ümidim, ey gümanım,
Sözüm haqsa, necə danım?
Qurban olsun haqqa canım,
Nahaq işdən saxla məni.

*İyul 1991, Şəki*

## HARAMDA HALAL

Nədir bu məlahət bu yaşındakı?
Başqa cür gözəlsən, vallah, sən indi.
Yaş ilə arzunun savaşındakı
Gizli nöqtədədir cazibən indi.

İlahi, xislət də dəyişilərmiş
İstəksə o köhnə istəkdir yenə.
Gənclik təravətin yerini vermiş
İndi ehtiyatın məlahətinə.

Mən bunu görürəm... Görürəm demə,
Duyuram... Çuxura axan suyam mən.
Neyləyim? Bənzəmir bu dəm o dəmə,
Bu gün enişin də yorğunuyam mən.

İstək oyandımı, bir qulsan ona
Onun qabağında yorğunluq nədir?
İstəyin başına, hər şey bir yana,
Ən soyuq ağıl da bir pərvanədir.

Gerimi qayıtdı baharım yenə?
Görürəm başıma səpilən qarı.
Baxınca bu təzə məlahətinə
Gözüm ləzzət çəkir, ürəyim ağrı.

Üz-üzə duranda istəklə gerçək,
Dayanır arada bir dərd, min fikir.

Özündən, düzündən xəbərdar ürək
Baxıb təpərinə xəcalət çəkir.

Qaynayıb, o qədər bir olduq ki, biz,
İtdi bir qazanda fərqlərin izi.
Sevgidən göyərən tək bir meyvəmiz
Haramlıq həddindən aşırdı bizi.

İllərin düşdükcə ömürdən, demə
İndin sabah üçün xəyal olurmuş.
Biz hardan biləydik, gülüm, sən demə
Məhəbbət haramda halal olurmuş.

*Fevral 2001*

## HƏYAT BİR SINAQ OLDU

*(«Rəqabət» pyesində Məlahətin mahnısı)*
*Musiqisi Cavanşir Quliyevindir*

Onsuz keçən günlərim
Ömrümə yamaq oldu.
Kədər mənim üzümə
Bir də dönüb ağ oldu.

Ələnsə də, ələyim,
Yox dünydan gileyim.
Eşqim, hissim, diləyim
Könlümdə dustaq oldu.

Su axdı, durulmadı,
Səbəbi sorulmadı.
Həyat, həyat olmadı
Mənə bir sınaq oldu.

Eşq ilkinə can atdı,
Ürəyimi qanatdı.
Getmiş idi, qayıtdı,
Beş günlük qonaq oldu.

*2003*

## OLUM HAQSIZ,
## ÖLÜM HAQLI

İstəyimə yol gedirəm
Gözü bağlı, sinə dağlı.
Mən dünyaya neyləmişəm
Mənə baxır qaşqabaqlı?

Qəmim şahdır, mənsə vəzir,
Hər əmrinə mən müntəzir.
Sevinc məndən kənar gəzir
Oldum dərdimə adaxlı.

Baxdım sola, döndüm sağa,
Nəfsimə qoydum qadağa.
Məni qoymur yaşamağa
Neyləyirəm mən bu ağlı?

Mən bu dağı çapammadım,
İstəyimdən qopammadım.
Gəzdiyimi tapammadım,
Axtardım əli çıraqlı.

«Olum haqdır» – deyən yoxdur
Hamı deyir ölüm haqdır.
Nə qəribə bir qınaqdır
Olum haqsız, ölüm haqlı.

*Oktyabr 2000*

## DƏRDLƏRƏ DİL OLMAĞA

Hasar olmaq asandır,
Çalış özül olmağa.
Nida olmaq hünərdir,
Nə var vergül olmağa.

Bu zülmün, bu zillətin
Önünü kəsmək – çətin!
Yazdım, dilsiz millətin
Dərdinə dil olmağa.

Yox etməkçün bu dərdi,
Fikrim – zülmə sipərdi.
Şerim toxum səpərdi
Sabah sünbül olmağa.

Həm yaxınım, həm yadım,
«Dur» dedi, karıxmadım.
Arx olmağa axmadım,
Axdım gur sel olmağa.

Mən eşq idim, həvəsdim,
Bu yollarda tələsdim.
İşıq olmaqdı qəsdim,
Yanmadım, kül olmağa.

*Avqust 2000*

## VAXT DA BİR UYDURMADIR

Təbiətdən savayı
Hər şey ancaq qurmadır.
Oddan çıxan tüstü də
Düz yox, burma-burmadır.

Bu saxtakar əyrilər
Düzləri çıxdaş bilər.
Hesabda ancaq hünər
Çıxma deyil, vurmadır.

Necə inanaq buna –
Şeyxin* uydurduğuna.
Guya onun hər günə
Yediyi bir xurmadır.

Boya var cah-cəlalda,
Üzdə, gözdə, camalda.
Yanaqdakı o xal da
Sonradan qoydurmadır.

Düzlüyə gəlmiriksə,
Göz yalana şəriksə,
İlkini bilmiriksə,
Vaxt da bir uydurmadır.

*Avqust 2000*

---

*Cəlil Məmmədquluzadənin "Ölülər" pyesindəki Şeyx Nəsrullaha işarədir.

## VAR
***(«Dar ağacı» pyesindən)***

*Musiqisi C.Quliyevindir*

Hər bir kəsin ürəyində
Bir arzusu, diləyi var.
Qartallara dəyən oxun
Ucunda öz lələyi var.

Əlænirik – sən də, mən də
Xeyrin, şərin ələyində.
Hər insanın ürəyində
Şeytanı var, mələyi var.

Gəldim, daşdan-daşa dəydim,
Ana bətnində öləydim.
Bu dünyanın, nə biləydim
Min hiyləsi, kələyi var.

Alışdırıb qəlbimizi,
Yandırdı bu dünya bizi.
Yaşayanın geci-tezi
Axır bir gün ölməyi var.

*Mart 2000*

## OLSA

Xəyal dönər həqiqətə,
Əgər ona təməl olsa.
Dünya gülər, büdrəyəni
Qaldırmağa bir əl olsa.

Haqq gələndə zülmət qaçar,
Gicitkan da ətir saçar.
Dağ dil açar, daş gül açar,
Əməl vaxta bədəl olsa.

Əl açıb ulu qüdrətə,
Ucalırıq ülviyyətə.
Dünya dönər bir cənnətə,
Sözdən əvvəl əməl olsa.

Bu çarx sağdan sola dönər,
Əyri də düz yola dönər.
Kifir də gözəl görünər
Düşüncəmiz gözəl olsa.

*Avqust 2000*

## NEYLƏMƏLİ?

Quş oxudu, fərəhləndik,
Daş oxusa, neyləməli?
Hörümçəklər tor toxudu,
Kol toxusa, neyləməli?

Dedin: «Dünya bir tamaşa,
Hər arzumuz gəldi başa».
Dediklərin başdan-başa
Boş yuxusa, neyləməli?

Səsimiz yox, küyümüz var,
Oxumuz yox, yayımız var.
Dəmə gəlmiş çayımız var,
Qənd yox isə, neyləməli?

Yalanlardan cana doyduq,
Ona uyduq, buna uyduq.
Ət qoxudu, duza qoyduq,
Duz qoxusa, neyləməli?

*Fevral 2000*

## ZAMANCA QÜRBƏTDƏ

Hər gün artır əzabım,
Lap sonuncu həddəyəm.
Səhər-axşam özümlə
Gizlicə söhbətdəyəm.

Təklikdə, vallah, çoxam,
Çoxluqda bir kolluğam.
Qəmim yoxsa mən yoxam,
Qəmimlə vəhdətdəyəm.

Əziləndə doğrular,
Yalan sözlər doğrular.
Çoxaldıqca oğrular
Doğruya həsrətdəyəm.

Dərdimi varaq-varaq
Çevirən namərdə bax.
Haqqım üçün, dərdə bax,
Haqsıza minnətdəyəm.

Xoş günə həsrət olduq,
Anladım, qismətdə yox.
Məkanca qürbətdə yox,
Zamanca qürbətdəyəm.

*Yanvar 2001*

## CAVABSIZ SUAL

Qəlbimizdə ömür boyu
Bir ümid çırağı yanır.
Budaqdan ana Həvvanı
Aldadan alma sallanır.

Onu danan, bunu danan,
Xəyalına havalanan,
Öz-özünə vurğun olan
Əyrisini doğru sanır.

«Bu dünyadan, axı, niyə
Kam almayım?» – deyə-deyə,
Dünya yükünü çəkməyə
Hər kəs könüllü çullanır.

Ömür kiçik bir an kimi -
Fırlanırıq dövran kimi.
Bir arzuya çatan kimi
O birisi xəyallanır.

Keçmişini salıb yada,
Qoca dərddə boğulsa da,
Acılığı dada-dada
Həyat onunçün ballanır.
İlkin, sonun fərqini bil,

Cavanlıq – şirincə nağıl.
Qocalıq – dərincə ağıl,
Coşub-daşmır, amma qanır.

Başdan-başa ömür yolu
Daşla-kəsəklə dopdolu.
Tez yaşlanan insan oğlu
Bəs niyə gec ağıllanır?

*Avqust 2001, Şəki*

## HAMI DEYİR DƏLİDİ

Cəsarətim, mərdliyim,
Ürəyimin dilidi.
Qorxum, cürətsizliyim –
Öz dilimin kilidi!

Gerçəyin günahı nə?
Həsrət qalıb xoş günə.
Yalan odun üstünə
Çəkilən boz külüdü.

Bu milləti soyanın,
Məlul-müşkül qoyanın,
Yalanlara uyanın
Yaman gəlhagəlidi.

«Əhsən» deyirlər yenə
Müdam yalan deyənə.
Haqqını istəyənə
Hamı deyir «dəlidi».

*Sentyabr 2001*

## ZAMAN, BELƏ TƏLƏSMƏ

Bir vaxt uzun gələrdi
Bu qısa ömür mənə.
İndi heyf deyirəm
Ömrün gödəkliyinə.

Zaman hara tələsir,
Günlər ötür an kimi.
Könlümə axşam çökür
Səhər açılan kimi.

Zaman, belə tələsmə
Zaman, mənə zaman ver.
Dünyanı anlamağa,
Zaman, mənə aman ver.

Uşaq idim, gənc idim
Ömrü uzun sananda.
Könül aldandığını
Nə bilsin aldananda?

*May 2001*

## OVU YOX,
## DAĞI GÖSTƏR

Su bulanıb çıxdığı
İlkin qaynağı göstər.
Sonra axıb gəldiyi
Yolu-yolağı göstər.

Sayıb qüsurlarını,
Sən gəl vurma aranı.
Hamı görür qaranı,
Sən mənə ağı göstər.

Yay gəlməmiş əlbəəl,
İstiyə qızınma gəl.
Qoyun-quzudan əvvəl
Otu, yaylağı göstər.

Demə sən bir, mən beşəm,
Vaxtdan dərs götürmüşəm.
O köpəyi görmüşəm,
Mənə çomağı göstər.

Çirkab atıb quyuya,
Böhtan demə sən suya.
Vura bilən ovçuya
Ovu yox, dağı göstər.

*Avqust 2000*

## ALDADIRIQ ÖZÜMÜZÜ

Tale bizə göz bərəltdi
Açan gündən gözümüzü.
Dünyanın çək-çevirində
Əyən əydi düzümüzü.

Doğru sözə yalan dedik,
Həqiqətə yol vermədik.
Bir qibləyə çevirmədik
Bu dünyada üzümüzü.

Yeni əsrin bu çağında,
Kişilərin ocağında,
Haqsızlığın qabağında
Qatlamışıq dizimizi.

Danan olduq kökü, soyu,
Ayırmadıq yasdan toyu.
İtirmişik tarix boyu
Saldığımız izimizi.

Neçə əsr mürgülədik,
Arzumuzu hörgülədik.
Boz küllərə qərq elədik
Alov tutan közümüzü.

Burda yalan, orda riya,
Üzlər maska, sözlər boya.

Nağıllara uya-uya
Aldadırıq özümüzü.

*Aprel 2001*

## TƏMƏNNA VAR, TƏLƏB YOX

Çözələdik dərdləri,
Suallar çox, cavab yox.
Ürəklərə baş vurun
Dərd çox, çəkməyə tab yox.

Haqqın yox "mən, mən" - deyə
Özünlə öyünməyə.
Haqq yolundan dönməyə
Bəhanə var, səbəb yox.

Qəzetlərdə döyüşdük,
Guya qızıl, gümüşdük.
Niyə bu günə düşdük,
Didişmə var, ədəb yox.

Bu yurdu soldan sağa
Düşdük çalıb-çapmağa.
Haqq yolunu tapmağa
Təmənna var, tələb yox.

*İyul 2001*

## GEDİŞİ VAR
## HƏR GƏLİŞİN

Hər doğulan ömrü boyu
Min dəfə ələkdən keçir.
Həm xəyallar, həm diləklər
Əvvəlcə ürəkdən keçir.

Üz-üzədir işıq-zülmət,
Yaxşı-yaman, doğru-qələt.
İnandığın bir həqiqət
Min şübhədən, şəkkdən keçir.

Su içdiyin o çeşmədən
Qaynağını sordunmu sən?
Xanəyə bax, öndə gedən
Şeş xanəsi yekdən keçir.

Uçmaq üçün təyyarələr
Öncə yerdən qüvvət alar.
Bir alçalan bir ucalar,
Uçuş sürünməkdən keçir.

El təkləri cüt istədi,
«Tək əldən səs çıxmaz» – dedi.
«Bulud təksə, çaxmaz» – dedi,
Amma cüt də təkdən keçir.

Gedişi var hər gəlişin,
Enməsi var yüksəlişin.

Yolundakı hər enişin
Bir yoxuşdan, dikdən keçir.

Zamana bax, yönünü gör,
Birinə bax, onunu gör.
İlkinə bax, sonunu gör
Son, ilkə dönməkdən keçir.

*2000*

## OĞUL

Qəlbinə baş vurmasa,
İnsan ucalmaz, oğul.
Səhvini görmək qədər
Mərifət olmaz, oğul.

«Haqq» deyə çarpan ürək
Haqqını tapsın gərək.
İçdən oyanmış çiçək
İl boyu solmaz, oğul.

Xoşdusa ilk arzular,
Sonrası gülşən olar.
Dağda bulanmış sular
Bağda durulmaz, oğul.

«El» deyə candan keçən,
Qəsdini ölçüb-biçən,
Əyri yolu düz keçən
Yolda yorulmaz, oğul.

*Oktyabr 2000*

## ÜZ ÇEVİRSƏ QƏDƏR SƏNDƏN

Bir diləyə könül verdik,
Hədəf məndən, hünər səndən.
Öz yolundan dönər olsan,
Haqqın üzü dönər səndən.

Bu gedişdə nələr gördük,
İntizarla ömür sürdük.
Biz ovqatı bölüşdürdük:
Əzab məndən, kədər səndən.

Üstələdi əyri, düzü,
Dara çəkdi sevda bizi.
Qarışdırdıq badəmizi:
Gülab məndən, şəkər səndən.

Hədər imiş bu savaşlar,
Hər əzabın bir sonu var.
Burnun suyu gözə damar
Üz çevirsə qədər səndən.

*May 2001*

## ALIŞMIŞAM DÖZÜMƏ

Haqqa nicat aradım,
Bir dedilər yüzümə.
Yalanı gerçək kimi
Söylədilər üzümə.

Bunu qədərə yozdum,
Ancaq doğrunu yazdım.
Aldandıqca uduzdum
Mən özümü özümə.

Xəyal göylərdən endi,
Təklənmişəm mən indi.
Zülm ərşə dirəndi,
Alışmışıq dözümə.

Varmı könül həmdəmi,
Ala məndən bu qəmi?
Calamışam gecəmi
Ümidsiz gündüzümə.

*İyul 2001*

## OLMADIM

Tutub getdim öz yolumu
Təntimədim, yorulmadım.
Enişlərdə, yoxuşlarda
Əilmədim, burulmadım.

Yaşadım öz aləmimdə
Dalğa qırdım söz gəmimdə.
Həm nəşəmdə, həm qəmimdə
Bütöv oldum, kəm olmadım.

Oxuyub haqq kitabını
Çəkdim dünya əzabını.
Çox içdim qəm şərabını
Bircə dəfə dəm olmadım.

Bu günümdən perikmişəm,
Gələcəyə göz dikmişəm.
Ömrüm boyu dərd çəkmişəm
Amma dərdə yem olmadım.

Qədər mənə qəsd elədi
İnam onu üstələdi.
Məni haqqa dost elədi
Nadana təslim olmadım.

*Oktyabr 2001*

## ÖZÜMÜ
## QURTARMAĞA

Vaxt tapmadıq Tanrıdan
Doğru yolu sormağa.
Zamanın əllərilə
Baş da keçdi qarmağa.

Sübhümüz-axşam çağı
İtirmişik sol, sağı.
Biz enirik aşağı
Dırmandıqca bu dağa.

Dağ çəkir tilsim mənə,
Kar olub sim-sim mənə,
Olmadı təslim mənə
Mən qul oldum, o ağa.

Taleyimə fal açdım
Öz-özümlə dalaşdım.
Bir gerçəyə yol açdım:
Olum vaxta sadağa.

Bu, arxamı, ya önmü,
Bu, rüzgarmı, bu, günmü?
Özümü öldürümmü
«Özümü qurtarmağa?»

*May 2001*

## ƏSDİ HİCRAN YELLƏRİ

Sevirsənsə, əzizim,
Mənim kimi çağla, gəl.
Bu gününü ürəklə
Sabahına bağla, gəl.

Əsdi hicran yelləri
Biz ayrılandan bəri.
Yaşadığın illəri
Bir daha varaqla, gəl.

Bağlanmışam adına
Möhtacam imdadına.
Məhəbbətin oduna
Öz-özünü dağla, gəl.

Qısılmısan arına
Tövbə gəlməz karına.
Yalnış addımlarına
Gülüb gəlmə, ağla, gəl.

Mən nə dünən, nə bu gün
Yaşamadım qəsd üçün.
Ürəyində dost üçün
Tutduğun çıraqla gəl.

Başlamadan yolunu
Sən əvvəldən gör sonu.
Bəslədiyin arzunu
Qəlbinə adaxla, gəl.

Ucal o yüksəkliyə
Allah deyə, haqq deyə.
Tapındığın gerçəyə
Sən səcdə qılmaqla gəl.

*Aprel 2002*

## ÜMİDİNİ İTİRƏNİN

Ölən arzu, diləklərin
Ürəkdə yüz layı qalmış.
Dünənindən qopanların
Hayı getmiş, vayı qalmış.

Bütöv yoxsa şükür kəmə
Aldığından çox diləmə.
Kəm də ölsə, qəm eləmə
Boynunda haqq-sayı qalmış.

Çox düşündüm, xeyir-şərin
Sonucunu dərin-dərin.
«Haydı» – deyən igidlərin
Kökdən gələn hayı qalmış.

Qədər atlı, sən piyada
Allah yetişsin imdada.
Bəxtsizlərin bu dünyada
Yalnız ümid payı qalmış.

Dərdini ud, varsa sənin
Yanında ümid verənin.
Ümidini itirənin
İtirəcək nəyi qalmış?

*Yanvar 2002*

## AŞAĞI

*Nə var Allahdan yuxarı?*
*Nə var qəbirdən aşağı?*
*Çəkdiyim ahdan yuxarı,*
*Bildiyim sirdən aşağı?*
**Ramiz Rövşən**

Ən ali xilqət-insanın
Haqqı özündən aşağı.
Ləyaqətsiz bir gədanın
Başı dizindən aşağı.

Adı qalıb ədalətin,
Yalan-asan, doğru-çətin.
Qibləsiz bir məmləkətin
Dağı düzündən aşağı.

Əyriyə doğru deyənin,
Düzə könül verməyənin,
Haqq beyninə girməyənin
Dərisi göndən aşağı.

Mehinə uysan havanın
Yağlı olammaz yavanın.
Haqq gözü kor binəvanın
Ağlı gözündən aşağı.

Yalanı müdam öyənin,
Qaraya bəyaz deyənin,

Həqiqəti görməyənin
Allahı dindən aşağı.

*Avqust 2003, Şəki*

## ƏYRİ YOLU DÜZ YERİ

Yalnız biri üçün yox
Hamı üçün dilək ol.
Hər könüldə gül deyil,
Bir könüldə dəmət ol.

Əyri yolu düz yeri
Hər mətləbin öz yeri.
Qəlbindəki sözləri
Söyləməmiş, ələk ol.

Tamahına qul olma,
Hər mətləbə yol olma.
Qandıran ağıl olma
Qanan, yanan ürək ol.

Gül-çiçək sovrulunca
Hardan bitdi bu yonca?
Varlıya dost olunca
Bir yoxsula kömək ol.

*İyul 2002*

## DÜŞƏR

Göz ucuyla baxma mənə
Könül min gümana düşər.
Hilal əsl ay olsa da,
İşığı bir yana düşər.

Zamandan dərs götürməsən
Nə biləsən kimsən, nəsən.
Dünən bu günü görməsən
Sabahın amana düşər.

Biri yamaq, biri calaq
Biri bomboz, biri dümağ.
Haqqı nahaqdan ayırmaq
Həmişə vicdana düşər.

Qan – dedi Allah duası –
Hər kəlməsi, hər nidası.
Qanmazın cövrü-cəfası
Bəs niyə qanana düşər?

*Mart 2003*

## YADLAŞMA

Dünya hərisliyində
Hədd-hüdudu aşmışıq.
Biz yaşamaq eşqinə
Hər dərdə qatlaşmışıq.

Dərdimiz, zillətimiz
Olub fəzilətimiz.
Dünya əzabıyla biz
Heç demə, adaşmışıq.

Dünya baxmır Allaha,
Bizi güldürmür daha.
Dərd ucuz, sevinc baha
Bu alverdə çaşmışıq.

Baxdım ömür yoluna,
Gördüm çatır lap sona.
Dünya mənə, mən ona
Yamanca yadlaşmışıq.

*Avqust 2003*

## YƏQİN, O DÜNYA DA VAR

Hər gecənin içində
Səhərə imza da var.
Əgər bu dünya varsa,
Yəqin, o dünya da var.

Qanmasan, salamatsan,
Hər qayğıdan azadsan.
Qandınsa, narahatsan
Düz yolda da xata var.

Batırsansa dərində,
Çapalama yerində.
Dərdin dənizlərində
Bir xilaskar ada var.

Ağılla hiss yan-yana
Mələk-iblis yan-yana.
Yaxşıyla pis yan-yana
Bu var isə, o da var.

*Avqust 2003, Şəki*

## BİLİM YOX

Ölüm varmı, ya yoxmu?
Var deməyə dilim yox.
Ölüm varsa, mən yoxam,
Mən yoxamsa, ölüm yox.

Ölümdən aman, aman!
Elçisi – axan Zaman!
Ölüm ilə təmasdan
Daha böyük zülüm yox.

Qəbir sərhəddir – deyə
Güman yox dirilməyə.
O dünyanı bilməyə
Bu dünyada bilim yox.

*Avqust 2003, Şəki*

## BİÇƏR

Dünən əkdiklərini
Vaxt keçər, əkən biçər.
Gül əkən – bir gülüstan,
Kol əkən tikan biçər.

Dayanıbdır üzbəüz
Doğru-yalan, əyri-düz.
Sevinc əkən gülər üz,
Dərd əkən aman biçər.

Zülmət əkən-qaranlıq,
Zülm əkən-yamanlıq,
Yol çəkən-firavanlıq,
Yel əkən tufan biçər.

Əks-səda-bir əvəz
O bir səsdir, bu bir səs.
«Bəlkə» əksən, ya bitməz,
Ya da boş güman biçər.

*Avqust 2003, Şəki*

## RÖYA

Ürəyimdə öz-özümə
Hər gün-üsyan, hər gün-qiyam.
Sərnişin ola bilmədim
Ömür boyu piyadayam.

Fikirlərim əqrəb olar
Hara dönsəm məni çalar.
Dörd dövrəmi sərt dalğalar
Döyən yaşıl bir adayam.

Hər gün məni dara çəkən
Dərdlər tükənməzmi, görən?
Röyalarda ayıq ikən
Ayıqlıqda röyadayam.

*May 2002*

## ÇÖZÜM YOX

Özümü söymədiyim
Gecəm yox, gündüzüm yox.
Bu danlağa dözməyə
Daha məndə dözüm yox.

Gah qalxıb, gah enmişəm
Qalxıb, təmizlənmişəm.
Enəndə gizlənmişəm
Bu gizlində özüm yox.

Dəyişkən hallarım var,
Min bir xəyallarım var.
Elə suallarım var,
Cavabına çözüm yox.

Könül, mənim yerimə
Sən ağla, sən kirimə.
Mənim çəkdiklərimə
Bəs deməyə sözüm yox.

Sinəmdəki bu dağa
Özüm oldum sadağa.
Allaha yalvarmağa
Daha mənim üzüm yox.

*Avqust 2003*

## AH!

Dünən qəlbə çəkilən dağ
Zaman keçmiş, unudulmuş.
Zalım məzlumun önündə
Geci-tezi zəlil olmuş.

Zalimlərin günahı var,
Məzlumların min ahı var.
Haqq adlanan pənahı var
O haqqla da haqqı bulmuş.

Axdıq, axdıq durulmadıq,
El dərdinə yad olmadıq.
Ah çəkməkdən yorulmadıq
Ah-Allaha gedən yolmuş.

Göz yaşımı tökə-tökə,
Gecələr ah çəkə-çəkə
Allahımı ürəyimdə bula bildim
Boşaldıqca dola bildim.
Əllərim göyə açılmış,
Ah-Allaha gedən yolmuş.

Ucaldıb könül ahımı
Tanımışam Allahımı.
Allah bizə pənah olmuş
Ah-Allaha gedən yolmuş.

Minnətdar oldum hər zaman
Könül dələn öz ahıma.
Nalə dolu dərdlərimi
Ah çatdırır Allahıma.

*2003*



# KİTABIN İÇİNDƏKİLƏR

**Yeni eranın ilk çağırışları** *(Ramazan Qafarlı)* 3

## SANDIQDAN SƏSLƏR

***Müəllifdən*** 15
Yox 16
Əmzik 17
Günah əsrin özündədir 18
Pambıq 20
Aldanış 21
Oldu 22
"Krım, Yalta, Qızıldaş…" 23
Pompey xərabələri önündə 24
Azəroğluna 25
Onun pərişanlığı 26
Assori 28
Anlamaq çətin 32
Əhməd, ay Əhməd 33
"Bu gün bayram edir..." 34
Qərib 35
150 il 36
Nağıl – həyat 37
Kirovun heykəli 40
Məndən qorxursan! 42
Dedim, dedilər 43
Krımda tatar qəbirləri 44
Torpaqdan pay olmaz 45
XX əsrin adamı 48

Daş qayalar — 50
Vəkil — 51
Hörümçək tor bağladı — 52
Kal oldum — 54
Damcı-damcı — 56
Xalq düşmənləri — 58
Dərələr — 59
"Özümə də görünməyən könlüm mənim..." — 61
Mən xəyal yemişəm — 62
Sahirə cavab — 63
Qorxu — 64
Yuxularım — 65
"Mənim səbrim" — 67
Qəribədir — 68
Səməd Mənsura — 69
At kişnədi — 71
Soğan — 73
Xəyal-xəyal — 75
Belə qalmaz — 76
Öz "mən"imin ağası — 78
"Qəlbim nə qədər ağladı sirdaşlarımızla..." — 80
İnamımla — 81
Sual – cavab! — 82
Yalan — 85
Diz üstə — 86
Ölümlə qarşı-qarşıya — 87
Özgə limanlara — 90
Qəzəb borcumuz — 91
Var – yox — 92
Müsavat — 93
Allahu–əkbər — 95

Tarix 97
Qaytara bilərmi? 98
Çöldə haqq axtarma 100
Səbr elədik 102
Lal-kar 106
Allahın ziddi ki, yoxdur 108
Ömürlə ödədik 109
Ayı 110
Aluştada Əmətxan Sultanın heykəli önündə 111
Bu da bir üsuldur... 114
Başqasının yasında 116
“Alçaqlığı bir qayə sanıb...” 117
Hüseyn Cavidə 118
Kimin əliylə? 119
Bəlkə ayıldım 120
Bir ulu məzar 122
“Şərin əliylə ölən...” 124
Zindanda şeir 125
Vətəndaşlıq vəsiqəm 137

## ƏLVAN ÇİÇƏKLƏR

Qəribəliklər 145
Ağrı çoxaldıqca 148
Məram 151
Açılmır düyün 154
Cism deyil, ruham mən 155
Səni dərk etməyə 156
Oğul istəyirəm 157
Çal, çal ki... 159
Siz ey limanlarda yatan gəmilər 160
Özünə dönüş 163

Qaç, at basdı, millət gəlir 164
Göz yaşları 169
Yox-yox 170
Şükür Allaha 171
Xoşbəxtlik – bədbəxtlik 172
Vətən namusu? 174
Ahəng 176
Mənim ana dilim 178
Tanıt məni mənə 180
Əzan borcu 183
Təmənna 185
Onun gücü xalqda, kəsəri haqda 186
Nəfs-iman 188
Ağ bayraq 190
Günahın varmıdır? 191
Hərənin öz payı 192
Qırın bir-birinizi 194
Məsləhət 196
Barı, düşmən olma 198
Dil – vətən 199
Salam – rüşvət 201
Burda dayan, burda dur 202
Tamah 203
Həsrətimizlə yaşıd oğlan 205
«Nə deyir?...» 207
Biganəlik – korluğumuz 208
Millətə xidmət 210
Diləklərin ricası 211
Niyə? 213
Bizə atalıq edən arzu 214
Getdiyimiz yol 215

Şeytana papış tikən 216
Təcavüz 217
Bəs nə zaman? 219
Bəsimdir mənim 220
«Niyə zəngin olur...» 221
«Körpə beşiyində...» 222
Vəhşi mədəniyyət 223
Gözümlə görmədiklərim 225
Tabutlar gəlir 226
Bir canın içində 228
Sükut, xəyal, məhəbbət 229
Ən ağır daş 231
Axtarıram 232
Bizim sabahımız – körpələr 233
Bilməmək 235
İstəyim budur 236
Gözümü yumsam da... 237
Yeganə təsəllim 239
Hürriyətim 240
Allah, məni belə ağlat 241
Tanrı Türkü qorusun 242
Məni gözüyaşlı qoyma, Allahım! 244
Yağ, ey yağış 246
Qəm özü tapır məni 247
Mənim duam 248
Məni yalqız qoymayın 249
Qafiləmmiş heç demə 250
Ağ atlı oğlan 251
İnamdan, imana 252
Dünya qürbət diyarı 254
Özümü yazmışam 255

Həyat bir oyunsa... 256
İki məchul bir məlumu 257
Gül verən əl 258
Peşman olmayaq 259
«Zora nöqtə qoyub...» 260
Dilim dolaşmasın 261
Dərdim – ustadım oldu 264
Nədən? 266
İlahi nur 267
Gözlə görə bilmədiyinə... 268
Oyaqlıq 269
Çuxur 270
Müxalifimə cavab 271
Əzan səsinə səcdə 272
Xəyal qırıqlığı 274
Çarpayım– dərd oylağım 278
«Bir şeyi–əcibiz.» 280
Qibləsizlik 282
Məhlənin «alimi» 283
Mətanət 284
«Özümü aramaq...» 285
«Sualı gözləmə...» 286
Koto 287

## İNSAN VƏ ZAMAN

Ey, dünənki körpələr 291
Yuxu 294
Sən dünyanın işinə bax 295
Gecikmə 298
Yalan-gerçək 300
Şahmar itkisi 302

Paradoks 304
Avropa birliyi 306
Elə yalqızam ki... 312
Bu dünənim, bu da mən 314
Yaşından geri qalan 316
Öndə sabah var 317
Dünənini – sabahını 318
Sual işarəsi 319
Hər gün – bir addım 324
Vicdan şahidliyi 325
Quran belə qurub 327
Qaytar məni 330
Ruhumuzu kol basıb 331
Biz nələri itirdik 333
Qırğı 335
Gərəksiz 336
Kilid 337
Həqiqətdən yalana 338
Şükür 342
Ömür – bir dağ yoxuşu 343
Sabah 344
Dərs 345
Ölüm – əbədiyyət 346
Nə imiş gerçək? 347
Gəlməyim neçinmiş, getməyim neçin? 348
«Çiynimdə sükutun...» 350
Məni qaytar özümə 351
Çadır şəkli 352
Cənnətdən əzaba 353
Harda yanğı varsa, işıq ordadır 354
Artıq zəngə dönüb zəncirin səsi 355

Qədərlə savaş 357
Dünən də, bu gün də... 358
Bugünəm mən 360
Özümlə söhbət 361
Bitdi gözləmələr 362
Dəyişmələr 364

## HƏSRƏT NƏĞMƏLƏRİ

Yana-yana buz olmuşam 369
Təzə bir rəng alar 370
Cazibə 372
Üzr – təşəkkür 374
Mələk kimi 375
Haramda halal 376
Xəcalət 377
Gözündə qəm görürəm 378
Qədər beləymiş 379
Qorxmuşam 380
O da mən, bu da mən 381
Qov yuxumu, sevgilim 382
Qövsi-qüzeh hardadır? 383
Çiçək 384
«Məhəbbət var, inam var...» 385
«Gündüzüm tilsimli...» 386
Əbədi bir ruhsan 387
İdeal 399
Mümkünmü? 390

## QƏZƏL, QOŞMA, GƏRAYLI

Hürriyətə möhtac 393
Elə haqq var ki... 394

Sən dedin, mən dedim ______ 395
Bilmirəm ______ 397
Yetərmi? ______ 398
Bu da bir həqiqət ______ 399
Könlüm ______ 400
Ağıl bir şübhədir ______ 401
Bu nadan ______ 403
Gözündə ______ 404
Rəbbim ______ 405
Ağac ______ 406
Sındırma könlümü ______ 407
Buna da şükür ______ 408
Könül ______ 409
Bilə bildiyin qədər ______ 410
İnsan kimi saxla məni ______ 412
Haramda halal ______ 413
Həyat bir sınaq oldu ______ 415
Olum haqsız, ölüm haqlı ______ 416
Dərdlərə dil olmağa ______ 417
Vaxt da bir uydurmadır ______ 418
Var ______ 419
Olsa ______ 420
Neyləməli? ______ 421
Zamanca qürbətdə ______ 422
Cavabsız sual ______ 423
Hamı deyir dəlidi ______ 425
Zaman, belə tələsmə ______ 426
Ovu yox, dağı göstər ______ 427
Aldadırıq özümüzü ______ 428
Təmənna var, tələb yox ______ 430
Gedişi var hər gəlişin ______ 431

Oğul 435
Üz çevirsə qədər səndən 434
Alışmışam dözümə 435
Olmadım 436
Özümü qurtarmağa 437
Əsdi hicran yelləri 438
Ümidini itirənin 440
Aşağı 441
Əyri yolu düz yeri 443
Düşər 444
Yadlaşma 445
Yəqin, o dünya da var 446
Bilim yox 447
Biçər 448
Röya 449
Çözüm yox 450
Ah! 451



# BƏXTİYAR VAHABZADƏ

## ƏSƏRLƏRİ

**On iki cilddə**

**VII cild**

**(2000-2004)**

*«Qafqaz Plus» MMC-də hazırlanmışdır.*

**Bədii dizayneri**
*Xəyyam Əliyev*

**Texniki redaktorları**
*Adilə Osmanova*

Çapa imzalanmış 12.08.2008. Kağız formatı 84x108 1/32.
Həcmi 28,938. Tirajı 500. Sifariş 016.
Qiymәti müqavilә ilә.

**Direktor:** *prof. N.B.Məmmədli*
**Nəşrə məsul:** *Əziz Ələkbərli*

*Kitab «Nurlan» nəşriyyat-poliqrafiya müəssisəsində hazır diapozitivlərdən çap edilmişdir.*
E-mail: *nurlan 1959@yaho.com*
Tel.: 497-16-32; 050-311-41-89
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev döngəsi 8/4.